Bu bir xalq qəzetidi
ƏDALƏT

## Zəngəzur dəhlizinin layihəsi hazırlanır



**"Azərbaycanın əsas hissəsini Naxçıvan MR ilə birləşdirəcək Zəngəzur dəhlizinin layihəsi hazırlanır".**

**Adalet.az xəbər verir ki, bunu keçirdiyi mətbuat konfrasında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) Avtomobil Yollarının İstismarı və Təmiri Baş İdarəsinin rəis müavini Hidayət Rüstəmov bildirib.**

**Onun sözlərinə görə, dəhlizinin Azərbaycan tərəfindəki Horadiz - Cəbrayıl - Zəngilan - Ağbənd hissəsinin uzunluğu 123,8 kmdir: "Bu yol 4-6 hərəkət zolaqlı olacaq.**

**Onun tikintisi aparılır və 2024-ci ildə başa çatdırılması nəzərdə tutulur".**

## Daxili işlər naziri polis əməkdaşı ilə vida mərasimində iştirak edib



**İyulun 27-də narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı daxil olmuş əməliyyat məlumatı əsasında keçirilən əməliyyat tədbiri zamanı polis əməkdaşlarına müqavimət göstərən şübhəli şəxsi zərərsizləşdirərkən onun üzərində olan qumbaranı partlatması nəticəsində Səbail Rayon Polis İdarəsinin Cinayət Axtarış şöbəsinin əməliyyat müvəkkili, polis kapitanı Elçin Səfərov müxtəlif dərəcəli bədən xəsarətləri almışdı.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən Adalet.az-a verilən məlumata görə, ağır yaralandığına görə tibb müəssisəsinə yerləşdirilmiş E.Səfərov bütün tibbi müdaxilələrə baxmayaraq avqustun 5-də vəfat edib.

Polis əməkdaşı ilə vida mərasimində Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov və nazir müavinləri iştirak ediblər.

**"Onun əziz xatirəsi, xidməti fəaliyyəti zamanı fədakarlığı qəlbimizdə əbədi yaşayacaqdır. Yaxınlarına, doğmalarına Allahdan səbr diləyirik! Allah rəhmət eləsin!" - deyə, nazirliyin məlumatında deyilir.**

## Türkiyənin daxili işlər naziri Azərbaycana təşəkkür edib



*Türkiyənin daxili işlər naziri Süleyman Soylu ölkədə tüğyan edən meşə yanğınları ilə mübarizədə göstərdiyi yardımlara görə Azərbaycana təşəkkür edib.*

*Adalet.az-ın məlumatına görə, nazir bildirib ki, Azərbaycandan 110 nəfərdən ibarət şəxsi heyət və 54 texnika yanğınla mübarizəyə cəlb olunub.*

*S.Soylu əlavə edib ki, yanğınlarla əlaqədar 36 mindən çox sakin təxliyə olunub:*

*"Bu günə qədər ölkə xaricindən yanğınla mübarizə üçün 2 975 nəfər və 473 texnika cəlb edilib.*

*Bütün bunlarla yanaşı, Azərbaycandan nazir müavininin rəhbərliyi ilə 110 nəfər və 54 texnika Türkiyəyə gətirilib. Azərbaycandan gələn komandaya və qardaşlıq göstərən hər kəsə təşəkkür edirik".*

Maşallah Məftun

## KƏRİM VƏLİYEV TANRININ HƏDİYYƏSİDİR

Bax: səh.3

## DEYƏSƏN, TAKSİ ŞİRKƏTLƏRİ OPERATİV QƏRARGAHI GÖRÜR




**Bunu mən demirəm ey və deməyə də qorxuram. Verərlər məhkəməyə, çəkib adamın ciyərini çıxarарlar, bunu camaat deyir. Və hətta camaat deyir ki, Operativ Qərargahı işlədənlərin özlərinin taksi şirkətləri var, ona görə şənbə-bazar metronun və marşrut avtobusların fəaliyyətini dayandırırlar.**

Elə deyil, ay camaat, vallah, elə deyil. Şənbə-bazar virus daha fəal olur. Kim evdən çıxsa onu yaxalayır. Amma virusun pulu olmadığına görə taksiyə minə bilmir. Ona görə də Operativ Qərargah taksini məsləhət görür.

Bu Fazil Mustafa da Operativ Qərargahdan nə istəyir, bilmirəm. Düşüb taksilərin üstünə. Elə hey yazır ki, niyə metro və avtobuslar şənbə-bazar günü işləmir?

**Operativ Qərargah, bəlkə yığışıb Fazil bəyə də bir taksi şirkəti açasınız?**

Aqil ABBAS

## 2,6 MİLYARD AVRO ERMƏNİSTANIN İLLİK BÜDCƏSİNDƏN ÇOXDUR

***Avropa İttifaqı təcavüzkar Ermənistana 2,6 milyard avro bağışlayacaq. Bu, Ermənistanın illik büdcəsindən çoxdur.***

***Ermənistan Silahlı Qüvvələri tərəfindən (təbii ki, ATƏT-in həmsədr dövlətlərinin də köməyini ayrıca qeyd etmək lazımdır) şəhər və kəndləri darmadağın olan, hətta xəritədən silinən Azərbaycan, mədəni-tarixi abidələri, məscid və məbədləri dağıdılan Azərbaycan, maddi sərvətləri 30 il yağmalanan Azərbaycan, 20 mindən çox şəhid verən Azərbaycan, 1 milyon qaçqını olan Azərbaycan, amma Avropa İttifaqı yardımı Ermənistana verir.***

Bax: səh.2

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 74 (5906) 7 avqust 2021-ci il
Qiyməti 30 qəpik

# Prezidentlər sərhəddəki vəziyyəti müzakirə etdi




**Avqustun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.**

**Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin Mətbuat Xidməti məlumat yayıb.**

**Dövlət başçısı qardaş Türkiyənin müxtəlif bölgələrində baş vermiş güclü meşə yanğınları nəticəsində insanların həlak olması ilə əlaqədar Prezident Rəcəb Tayyib Ərdoğana bir daha başsağlığı verib. Prezident İlham Əliyev yanğınların söndürülməsi və onların törətdiyi fəsadların qarşısının alınmasında Azərbaycanın Türkiyənin yanında olduğunu bildirdi və həmrəyliyini ifadə edib.**

**Prezident Rəcəb Tayyib Ərdoğan başsağlığına və meşə yanğınlarının ilk günlərindən Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Azərbaycanın yanğınların söndürülməsində Türkiyəyə göstərdiyi dəstəyinə görə təşəkkürünü bildirdi. O, Azərbaycandan olan yanğınsöndürənlərin yanğınsöndürmə əməliyyatlarında yüksək peşəkarlıq və sevgi ilə iştirak etdiyini vurğuladı. Prezident İlham Əliyev əlavə 40 ədəd yanğınsöndürən maşının artıq yola çıxdığını və sabah yanğın zonasına yetişəcəyini qeyd edərək, ərazidə xidmət göstərən yanğınsöndürən maşın və texnikanın sayının 93-ə çatacağını bildirdi.**

Bax:səh-2



**İyulun 27-də Bakının "Maşın bazarı"nda narkotiklərin qanunsuz dövriyyəsinə görə axtarışda olan 1982-ci il təvəllüdlü Müseyib Ələsgərov polislərin onu saxlaması üçün keçirdiyi əməliyyat zamanı özünü partlatmış, nəticədə 4 polis əməkdaşı xəsarət almışdı. Onlardan biri - polis kapitanı Elçin Rəşid oğlu Səfərov dünən xəstəxanada vəfat etmişdir.**

**Allah rəhmət eləsin!**

## Ermənilər Qandini Tiflisdə də "rahat qoymur"

Bax:səh-2

## BİZDƏ FUTBOLU DAĞIN BAŞINA QALDIRMIŞDI, İNDİ DƏ GEDİR UKRAYNANI ABIRA SALMAĞA



**Qəzetələrdə oxudum ki, millimizin baş məşqçisi Canni De Byazi Ukrayna yığmasına baş məşqçi gedə bilər.**

De Byazi sağ olsun, Azərbaycan millisini Braziliya səviyyəsinə qaldırdı qoydu dağın başına, indi də gedir Ukraynanı abıra salmağa.

Bir Foqts vardı, gəldi 5 il Azərbaycan futbolunun içinə oturdu. Hər il də bunun piarşikləri mətbuatda yazırdılar ki, Braziliya ölür Foqtsu aparmaq üçün, İngiltərə diz çöküb yalvarır, İtaliyanın baş naziri elçi düşüb ki, gəl bizim milliyə və sair və ilaxır. Axırda da bir minnətlə, həm də şantajla qalırdı Azərbaycanda.

İndi də De Byazi deyəsən, həmin yolu tutub.

**And olsun Həzrət Abbasın qələm olmuş qollarına, De Byaziyə "Sabah" komandası da yiyə durmaz, qaldı futbol ölkəsi Ukrayna.**

## İNSANIN MEYMUNDAN ƏMƏLƏ GƏLMƏYİNİN ƏN DƏQİQ SÜBUTU



***Uzun illərdir, hətta əsrlərdir insanın meymundan əmələ gəlib-gəlməməsi alimlərin mübahisə mövzusu olub. Hələ də tam bir qənaətə gələ bilmirlər.***

***Amma Vladimir Jirinovski öz danışıqları və hərəkətləri ilə bu mübahisəyə özünün timsalında nöqtə qoydu ki, həqiqətən insan meymundan əmələ gəlib.***

## Qazi-şair gündəliklərini məktəblilərlə birlikdə yazacaq - Yeni layihə



**Vətən müharibəsi qazisi, şair-publisist Emin Piri Təhsil Nazirliyinin V Qrant Müsabiqəsində qalib olub.**

Adalet.az-ın məlumatına xəbər görə, onun təqdim etdiyim "Zəfər klubu" layihəsi müvafiq yarışmanın seçilmişləri sırasındadır.

Layihəyə əsasən bundan sonra Emin Piri müharibə gündəliyinin bir hissəsini məktəblilərlə birgə yazacaq. Belə ki, gündəliklər məktəbli məktubları ilə bir yerdə yayımlanacaq.

**Xatırladaq ki, Emin Piri bir müddətdir müddətdir mətbuatda müharibə gündəlikləri yazır.**

## OPERATİV QƏRARGAH, NƏ BADƏ KİTABXANALARI AÇASINIZ



**Qətiyyən olmaz! Bu, böyük faciələrə yol aça bilər. Virus vurar kəlləçarxa. Bilirsiniz də kitabda toz olur, nəmişlik olur və sair və ilaxır.**

Əsas restoranlardı, barlardı, çayxanalardı, pivəxanalardı, toyxanalardı. Xalqa bunlar lazımdı, kitab lazım deyil. Kitab oxuyarlar, savadlanarlar, dünyagörüşləri genişlənər, məsələn, yaponlar kimi, almanlar kimi, fransızlar kimi, sonra da haqlarını tələb edərlər. Heyf deyil, restoranda, barda oturub bala-bala vurmaq.

## Bakıda əri ilə dalaşan qadın səhvən qaynatasını yandırıb

**Bakıda Sabunçu rayonunda ailə münaqişəsi zamanı bədbəxt hadisə baş verib.**

**Ər və arvad mübahisə edib. Qadın həyat yoldaşına əsəbləşərək onun maşınına benzin tökərək yandırıb.**

**Bu zaman benzin oğlanın atasının üzərinə düşüb və o yanıq xəsarəti alıb.**

**Məsələ barədə Daxili İşlər Nazirliyi açıqlama verib.**

**DİN-in Mətbuat Xidmətinin əməkdaşı Nurlan Əliyev oxu.az-ın sorğusuna cavab olaraq bildirib ki, baş verən hadisə ilə bağlı Sabunçu Rayon Polis İdarəsində araşdırma aparılır:**

**"Araşdırmanın nəticəsindən asılı olaraq məsələyə hüquqi qiymət veriləcək.**

**İlkin məlumata görə, kişin yanması qəsdlə edilməyib".**

## QURBAN QURBANOV, NƏ DEYİM EY SƏNƏ?..



***Sən də kişi oğlu kişisən, futbolçuların da. İt hürər, "Qarabağ" keçib gedər. Kipr yunanları və eləcə də yunanlar dəvəsi ölmüş ərəb kimi bir şeydilər.***

## PAŞİNYAN GETMİŞDİ İRANA KABAB İYİNƏ



**Amma şair Əhəd Muxtar demiş, gördü bir eşşək də axtarırlar dağlamağa. Bizim qəzetələr yazır ki, yeni seçilmiş İran prezidenti, adı yadımdan çıxdı Paşinyanla görüşdə Qarabağ söhbəti eləməyib və bundan da Paşinyan bərk dilxor olub. Və bizimkilər də sevincdən çırtıq çalır.**

Dostlar, belə söhbətləri hamının içində eləmirlər ey, bağlı qapı arxasında edirlər.

Mejduproçim, dünən Ağdamın kəndlərinin birindən partlamamış bir mərmi tapıblar, 44 günlük savaşda atılan, İranın istehsalı imiş.

Aqil ABBAS
aqilabbas@rambler.ru

## SƏRHƏD NAMUSDUR



*Sərhəd hər bir dövlətin namusudur. Hər bir insan, hər bir ailə başçısı namusunu özü qorumalı olduğu kimi, hər bir dövlət də namusu olan sərhədini təbii ki, özü qorumalıdır.*

*Bildiyimiz kimi, Ermənistanın dövlət sərhədini Rusiyanın Silahlı Qüvvələri, belə demək mümkünsə, Rusiyanın sərhəd qoşunları qoruyur.*

*Yəni Ermənistan namusunu özü qoruya bilmədiyinə görə Rusiyaya etibar edib. İran-Ermənistan sərhədində, eləcə də Ermənistan-Türkiyə sərhədində özüm bunun dəfələrlə şahidi olmuşam.*

Bax: səh.2

## GÜNÜN LƏTİFƏSİ

**Kəndlərin birində 32 yaşlı müəllimənin 18 yaşlı şagirdə qoşulub qaçması xəbərini eşidən məktəb direktoru növbədən kənar iclas keçirir.**

40-50 yaşlı müəllimələrə:

**- Məndən xəbərsiz bir addım da atmırsınız, bundan sonra sizi məktəbə qardaşlarınız aparıb gətirəcək!**

Yaşlı müəllimələrdən biri:

**- Müdir, mənim qardaşım 10 ildi rəhmətə gedib.**

Müdir:

**- Kəs səsini, sən indidən qaçmağa bəhanə axtarırsan!**

# Prezidentlər sərhəddəki vəziyyəti müzakirə etdi



**Avqustun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin Mətbuat Xidməti məlumat yayıb.

Dövlət başçısı qardaş Türkiyənin müxtəlif bölgələrində baş vermiş güclü meşə yanğınları nəticəsində insanların həlak olması ilə əlaqədar Prezident Rəcəb Tayyib Ərdoğana bir daha başsağlığı verib. Prezident İlham Əliyev yanğınların söndürülməsi və onların törətdiyi fəsadların qarşısının alınmasında Azərbaycanın Türkiyənin yanında olduğunu bildirdi və həmrəyliyini ifadə edib.

Prezident Rəcəb Tayyib Ərdoğan başsağlığına və meşə yanğınlarının ilk günlərindən Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Azərbaycanın yanğınların söndürülməsində Türkiyəyə göstərdiyi dəstəyinə görə təşəkkürünü bildirdi. O, Azərbaycandan olan yanğınsöndürənlərin yanğınsöndürmə əməliyyatlarında yüksək peşəkarlıq və sevgi ilə iştirak etdiyini vurğuladı.

Prezident İlham Əliyev əlavə 40 ədəd yanğınsöndürən maşının artıq yola çıxdığını və sabah yanğın zonasına yetişəcəyini qeyd edərək, ərazidə xidmət göstərən yanğınsöndürən maşın və texnikanın sayının 93-ə çatacağını bildirdi. Dövlətimizin başçısı yanğın zonasında 1 helikopter, 1amfibiya tipli yanğınsöndürən təyyarənin və 150 nəfər əlavə heyət göndərilməklə 510 nəfər yanğınsöndürənin fəaliyyət göstərdiyini diqqətə çatdırdı.

Azərbaycan Prezidenti əlavə 200 nəfər xüsusi təlim keçmiş yanğınsöndürən heyətin də göndərilməsini təklif etdi və beləliklə, Azərbaycandan olan yanğınsöndürən heyətin sayının 710 nəfərə çatdırılacağını dedi.

Prezident Rəcəb Tayyib Ərdoğan bu əlavə dəstəyə görə təşəkkürünü bildirdi və bu dəstəyin Azərbaycan ilə Türkiyənin qardaşlığının və dostluğunun bariz təcəssümü olduğunu diqqətdə çatdırdı.

Söhbət zamanı Prezident İlham Əliyev Ermənistan-Azərbaycan sərhədində Ermənistan tərəfindən törədilən təxribatlar barədə Prezident Rəcəb Tayyib Ərdoğana məlumat verdi və Azərbaycan Ordusunun Ermənistanın bu kimi təxribatlarına layiqli cavab verdiyini vurğuladı.

Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin hər zaman qardaş Azərbaycanın yanında olduğunu bildirdi.

**Dövlət başçıları söhbət əsnasında postmünaqişə dövründə gedən regional proseslər barədə geniş fikir mübadiləsi apardılar.**

# İlham Əliyev əsaslı şəkildə yenidən qurulan "Suraxanı" yarımstansiyasının açılışında iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əsaslı şəkildə yenidən qurulan 110/35/6 kilovoltluq "Suraxanı" yarımstansiyasının açılışında iştirak edib.**

1932-ci ildə tikilən "Suraxanı" yarımstansiyası istismar müddətini dəfələrlə keçmişdi və təbii ki, artan tələbatı qarşılaya bilmirdi. Məhz buna görə, yarımstansiyada əsaslı şəkildə yenidənqurma işləri aparıldı.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına məlumat verdi ki, yarımstansiya sökülərək açıq tipliden qapalı tipli variantda tam yenidən qurulub.

Dövlətimizin başçısı yarımstansiyanı işə saldı.

Hazırda dünyada pandemiyanın davam etməsinə və iqtisadi-maliyyə çətinliklərinə baxmayaraq, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial infrastrukturun daha da müasirləşdirilməsi, əhalinin sosial məsələlərinin həlli istiqamətində icra olunan layihələr uğurla və ardıcıl şəkildə davam edir. Bu layihələr arasında əhalinin keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təminatı istiqamətində həyata keçirilən işlər xüsusi yer tutur.

Son illərdə yeni müasir elektrik yarımstansiyalarının yaradılması, mövcudlarının əsaslı yenidən qurulması bu sahənin maddi-texniki bazasının daha da möhkəmləndirilməsində mühüm rol oynayır və nəticədə istehlakçıların etibarlı və keyfiyyətli elektrik enerjisi ilə təchiz olunmasını təmin edir.

"Suraxanı" yarımstansiyasında digərlərində olduğu kimi müasir avadanlıq quraşdırılıb. Yarımstansiya Suraxanı rayonunu, Sabunçu və Xəzər rayonlarının bir hissəsini, o cümlədən bir neçə digər sosial strateji və sosial infrastruktur obyektini elektrik enerjisi ilə təchiz edəcək.

Xüsusi layihə əsasında "Suraxanı" yarımstansiyasının gərginliyi dəyişdirilərək 110/20/6 kilovoltluqdan 110/35/6 kilovoltluğa keçirilib, itkilərin azaldılmasına nail olunub. Eyni zamanda, yarımstansiyanın transformatorlarının ümumi gücü də 126 meqavolt amperədək artırılıb.

**Müasir avadanlığın quraşdırılması nəticəsində yarımstansiyanın istismar xərclərinin azaldılmasına, işçi heyətin təhlükəsiz əmək fəaliyyətinə, avadanlıqların ətraf mühitin zərərli təsirindən qorunmasına və yarımstansiyanın daha səmərəli fəaliyyət göstərməsinə nail olunub.**

# UNEC-in Montpellier Universiteti ilə ikili diplom proqramının 4-cü məzunlarına diplomları təqdim edilib

**UNEC-in Fransanın Montpellier Universiteti ilə ikili diplom proqramının məzunlarına diplomların təqdimolunması mərasimi keçirilib.**

Məzunlarla görüşən UNEC rektoru professor Ədalət Muradov onları təbrik edərək, hər iki universitetdə qazandıqları bilik və bacarıqların onların gələcək fəaliyyətlərində və karyeralarında faydalı olacağından əminliyini ifadə edib. Rektor bu il Montpellier Universitetinin ikili diplom proqramından 18 tələbənin məzun olduğunu, ümumilikdə isə 2018-ci ildən start verilən proqramda 46 tələbənin uğurla iştirak etdiyini bildirib.

Xarici universitetlərdə tətbiq olunan yeniliklərin və beynəlxalq təcrübənin ölkəmizə gətirilməsində bu gənclərin önəmli rol oynaya biləcəklərini diqqətə çatdırıb.

UNEC-də xarici ölkələrin aparıcı universitetləri ilə bakalavr və magistr təhsili üzrə 8 ikili diplom proqramı



reallaşdırıldığını deyən rektor, qısa zamanda iki yeni ikili diplom proqramına start veriləcəyini və proqramların sayının daha da artırılacağını bildirib.

Sonra məzunlar UNEC ilə Montpellier universitetindəki təhsilin oxşar və fərqli tərəflərindən danışıblar, hər iki universitetin tədris prosesi, biliyin qiymətləndirilməsi, müəllim-tələbə münasibəti, akademik mühit barədə fikilərini bölüşüblər.

**Çıxışlardan sonra məzunlara Montpellier Universitetinin diplomları təqdim olunub.**

# Ermənilər Qandini Tiflisdə də "rahat qoymur"



**Hindistanın məşhur siyasi və milli lideri Mahatma Qandinin Tiflisdəki heykəli təhqir olunub. Bu barədə şəhərin meri Kala Kaladze xüsusi açıqlamayla çıxış edib. Kaladze deyib ki, naməlum şəxslər M. Qandinin bu yaxınlarda Tiflisdə qoyulmuş heykəlinə ziyan vurub, onun eynəyini qopardıb aparıblar. Xatırladaq ki, Qandinin Tiflisdəki heykəli cəmi bir ay bundan əvvəl qoyulmuş, təntənəli açılış mərasimində Hindistanın xarici işlər naziri və onun gürcü həmkarı da iştirak etmişdi.**

Hələlik cinayətkar tapılmasa da bunun kimin, daha doğrusu, şəhərdə yaşayan hansı millətin nümayəndələrinin əməli olduğunu təxmin eləmək çətin deyil. Hələ bir neçə ay əvvəl M. Qandinin Yerevandakı heykəli də təhqir olunmuşdu. Özü də bir neçə dəfə. Əvvəlcə yumarta atəşinə tutulmuş, bir müddətdən sonrasa onu yandırmışdılar. Maraqlı burasıdı ki, hazırda Ermənistanla Hindistan arasında münasibətlər yüksək səviyyədədi. Ermənilər Kəşmir məsələsində Hindistanın, Hindistan da Qarabağ münaqişəsində rəsmi Yerevanın tərəfini tutur. Ancaq bütün bunlara baxmayaraq ermənilər Hindistanın azadlıq simvoluna çevrilmiş bu böyük tarixi şəxsiyyəti nəinki sevmir, hətta ona nifrət eləyirlər. Səbəb isə onun vaxtilə Atatürklə yaxşı münasibətdə olması və uydurma erməni genosidini tanımamasıdı.

**Yerevandakı biabırçılıqdan sonra Hindistan hökuməti sərt bəyanatla çıxış etmiş, cinayətkarların dərhal cəzalandırılmasını tələb etmişdi. Bundan sonra heç kim tutulmasa da, hökumət abidəni ciddi mühafizə eləməyə məcbur olmuşdu. Görünür, cinayətkar erməni çetesi indi də Tiflisdə açılan heykəli hədəf seçib.**

**Adalet.az**

*Aqil ABBAS*

# SƏRHƏD NAMUSDUR

*Sərhəd hər bir dövlətin namusudur. Hər bir insan, hər bir ailə başçısı namusunu özü qorumalı olduğu kimi, hər bir dövlət də namusu olan sərhədini təbii ki, özü qorumalıdır.*

*Bildiyimiz kimi, Ermənistanın dövlət sərhədini Rusiyanın Silahlı Qüvvələri, belə demək mümkünsə, Rusiyanın sərhəd qoşunları qoruyur.*

*Yəni Ermənistan namusunu özü qoruya bilmədiyinə görə Rusiyaya etibar edib. İran-Ermənistan sərhədində, eləcə də Ermənistan-Türkiyə sərhədində özüm bunun dəfələrlə şahidi olmuşam.*

*İndi Azərbaycanla Ermənistanın sərhəd xətləri müəyyənləşir və orda da Rusiyanın sərhəd qoşunları yerləşdirilir. Baxıram ki, bu bizim xalqda bir az narahatlıq yaradıb.*

*Dostlar, bundan narahat olmağa dəyməz. Ermənistan öz namusunu qorumaq iqtidarında deyil, ona görə də sərhədlərini qorumağı Rusiyaya həvalə edib. Ona görə də sərhədlər tam dəqiqləşəndən sonra təbii ki, Ermənistanın digər sərhədləri kimi Azərbaycanla da sərhədində ruslar dayanacaq.*

*Namussuz dövlətdən bundan artıq nə gözləmək olar?*

# Azərbaycanda 1 242 nəfər koronavirusa yoluxub - 8 nəfər vəfat edib

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 1 242 yeni yoluxma faktı qeydə alınıb, 345 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Adalet.az-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 8 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 349 316 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 334 258 nəfər müalicə olunaraq sağalıb, 5 051 nəfər vəfat edib, aktiv xəstə sayı 10 007 nəfərdir.

# Rey Kərimoğlu: "Qazilərimiz səbrli olsunlar!"



**Xəbər verdiyimiz kimi 44 günlük Vətən Müharibəsi qazisi, Qəbələ rayon sakini Bəhram Nuriyev sosial şəbəkədə canlı yayım açaraq intihara cəhd edib. O, səhhətində yaranan problemlə bağlı aidiyyəti qurumların doğru rəy vermədiyini, psixiatriya xəstəxanasına yerləşdirilməsi ilə bağlı qərarın ədalətsizlik olduğunu bildirib. Ümumiyyətlə son zamanlar Vətən Müharibəsi iştirakçılarının. Qazilərimizin tez-tez narazılıqlarını müşahidə edirik.**

"Qarabağ Qaziləri" İctimai Birliyinin mətbuat katibi, Birinci Qarabağ döyüşlərinin iştirakçısı Rey Kərimoğlunin "Adalet.az"- a bildirdi ki, təmsil etdiyi təşkilatın Gənc Qazilər Filialının araşdırmasına görə, Bəhram Nuriyevin sənədləri Müdafiə Nazirliyində düzgün tərtib edilməyib. Onun sözlərinə görə qazimiz bundan əsəbləşib intihara əl atıb: "Ümumiyyətlə, 44 günlük Müharibə ilə bağlı ən çox narazılıq edənlər Müdafiə Nazirliyindəndir. Müdafiə Nazirliyi qazilərin sənədlərinin tərtib olunması ilə bağlı laqeyd və qeyri-peşəkar davranırlar. Xüsusilə Müdafiə nazrinin bacanağı, Tibb Xidmətinin rəisi general Elxan İbrahimov bu işdə birbaşa cavabdeh olsa da, hələ də narazılıq aradan qaldırılmayıb. Qazilər arasında intihar birinci dəfə deyil. Biz də arzu edrik ki, olmasın. Amma belə getsə qazilər arasında intiharlar olacaq. Çünki onlarla tam məşğul olan, maraqlananlar yoxdur. Onların problemləri ilə birbaşa məşğul olan Qeyri Hökumət Təşkilatı yoxdur. Biz təzəlikcə "Qarabağ Qaziləri" İctimai Birliyinin Gənc Qazilər Filialını yaratmışıq. Prezident İlham Əliyevin fərmanı ilə şəhid ailələri və yaralılar üçün vahid mərkəz mərkəz YAŞAT Fondunu yaradılıb. Əmək və Əhalinin Sosual Müdafiə Nazirliyinin nəzdində yaradılan mərkəzin işinə 7 dövlət qurumu cəlb edilib. Həmin fond tam gücü ilə işləyəndə düşünürəm ki qazilərin, müharibə iştirakçılarının problemləri aradan qaldırılacaq. Ona görə də Vətən uğrunda canından keçməyə hazır olan gənc qazi qardaşlarımızdan xahiş edirəm səbrli, təmkinli olsunlar. Hər hansı problemlə qarşılaşanda Qarabağ Qazilər Birliyinə müraciət etsinlər".

**İLTİFAT**

# Səxavət Məmməd: "Ən böyük problem jurnalistikamızda ixtisaslaşmanın olmamasıdır"

**Ötən il Vətən müharibəsini yaşadıq. Hərbi jurnalistikada bu və ya digər şəkildə boşluqları gördük. Həmçinin, hansı yönlərdə təlim, inkişaf lazım olduğunu da.**

**Bu boşluqları necə aradan qaldırmaq olar?**

**Hərbi reportyor Səxavət Məmməd Adalet.az-a bu barədə fikirlərini bölüşdü.**

"Azərbaycan ordusu müharibədən qalib çıxsa da, jurnalistikası barədə bunu demək çətindir. Qarabağda münaqişənin başladığı tarixdən müharibəyə qədər 30 ildən çox zaman keçirdi. Bu müddət ərzində Azərbaycan jurnalistikası konflikt sahəsində çox ciddi inkişaf etməliydi.

Məsələ ondadır ki, bu sahəyə diqqət çox ayrılmışdı. Bu sahədə yalnız bəzi jurnalistlər fərdi olaraq özlərini inkişaf etdirirdilər. Bizdə insanlar elə düşünür ki, konflikt ancaq müharibə deməkdir. Əslində isə bu geniş bir məhfumdur. Yanğınlar, təbii fəlakətlər, mitinqlər, müharibələr məhz konflikt jurnalistikasının fəaliyyət sahəsinə daxildir."



Onun bildirdiyinə görə, bu sahədə peşəkarlığı olmayanlar müharibə dövründə də jurnalist bumu yaratdılar. Fərqli sahələrdə çalışanlar şou tipli xəbərləri ilə seçilirdi. Ən böyük problem jurnalistikamızda ixtisaslaşmanın olmamasıdır.

"Bizdə elə bir həddə gəlinib ki, mitinqlərə peşəkar və təcrübəliləri yox, yeni başlayanları, əlinə ilk dəfə mikrafon, kamera alanları göndərirlər. Bu isə öz növbəsində ciddi problemlər yaradır. Azərbaycanda bir neçə ciddi hadisə baş verib ki, onlarda jurnalistika sinifdə qalıb. 2016-cı ilin aprel döyüşləri, Xızıda N saylı hərbi hissənin ərazisindəki partlayış, Şamaxıda zəlzələ və 44 günlük müharibə. Müharibə vaxtı Azərbaycanda müharibə jurnalistikası bumu yaşandı. Fərqli sahələrdə çalışan jurnalistlər birdən birə cəbhə bölgəsində görünməyə başladı. Əslində müharibə zonasında fəaliyyət göstərən jurnalistlərin əvvələr hansı sahədə olması hazırladıqları materiallarda, verdikləri informasiyalarda özünü göstərirdi. Şou və idman sahəsindən gələnlər "şad xəbər var" deyərək, məsələnin şousu ilə məşğul olurdular. Sosial sahə üzrə işləyənlər isə dağılmış evlər, daha çox dramatikləşmə, duyqusallaşma yönündə işlər görürdülər. Əslində Azərbaycan mətbuatının müharibə yazmasına və çəkməsinə rəsmi olaraq icazə verilmirdi. Bəzi jurnalistlər öz əlaqələri hesabına bu işi görə bilirdi. Ən böyük problem jurnalistikamızda ixtisaslaşmanın olmamasıdır. Türkiyədə, İtaliyada və İngiltərədə müharibə jurnalistikası sahəsində ciddi kurslar mövcuddur. Azərbaycan müharibəyə qədər ən azı 10-15 jurnalist hazırlamalı idi. Ölkə daxilindəki təlimlər isə o qədər effektli sayılmırdı. Bundan əlavə Azərbaycan mediasında zirehli gödəkçə və dəbilqə demək olar yox idi. Müharibə vaxtı Türkiyədən gətirildi. Düşünürəm ki, Azərbaycandan jurnalistlər arasında ciddi təlimlərə ehtiyac var.

Ancaq bu təlimlərə "bizim redaksiyadan da bir nəfər orda olsun" adı ilə yox, bu sahəni sevən, işləmək istəyən şəxsləri qoşmaq və onların ixtisaslaşmasında yardımçı olmaq lazımdır. Görünən odur ki, bölgədə proseslər uzun illər davam edəcək. Ona görə də, ixtisaslaşma kurslarına ciddi ehtiyac var. Bundan əlavə Azərbaycan mediası təkcə ölkə daxilində yox, bəzi jurnalistlərin xaricdəki konflikt ərazilərə göndərilməsinə də şərait yaratmalıdır. Suriyaya, Əfqanıstana, İraqa jurnalistlərimizin səfərləri təşkil edilməlidir. Əgər hər şey ölkə daxilində olub, diplomdan sonra yenə hər kəs başqa sahə ilə məşğul olacaqsa, bu yerində saymaqdan başqa bir şey sayılmayacaq."

**Emin Piri**

*Aqil ABBAS*

# 2,6 MİLYARD AVRO ERMƏNİSTANIN İLLİK BÜDCƏSİNDƏN ÇOXDUR

***Avropa İttifaqı təcavüzkar Ermənistana 2,6 milyard avro bağışlayacaq. Bu, Ermənistanın illik büdcəsindən çoxdur.***

***Ermənistan Silahlı Qüvvələri tərəfindən (təbii ki, ATƏT-in həmsədr dövlətlərinin də köməyini ayrıca qeyd etmək lazımdır) şəhər və kəndləri darmadağın olan, hətta xəritədən silinən Azərbaycan, mədəni-tarixi abidələri, məscid və məbədləri dağıdılan Azərbaycan, maddi sərvətləri 30 il yağmalanan Azərbaycan, 20 mindən çox şəhid verən Azərbaycan, 1 milyon qaçqını olan Azərbaycan, amma Avropa İttifaqı yardımı Ermənistana verir.***

***Bizim də imkanımız vardı ki, ermənilərin yaşadığı şəhər və kəndləri bombalayaq, amma biz insanlıq göstərdik, dinc əhali yaşayan heç bir yerə bomba atmadıq. Amma Ermənistanın Silahlı Qüvvələri bizim dinc əhali yaşayan şəhər və kəndləri hətta ballistik raketlərlə vurdular.***

***Təkcə onu demək kifayətdir ki, Tərtər şəhərinə on mindən çox mərmi düşüb. Ümumiyyətlə, 30 il ərzində Ermənistan Azərbaycana yüz milyardlarla dollar (hesablamalara görə, təxminən 600 milyard dollar) zərər vurub.***

***Amma Avropa İttifaqı yardımı Ermənistana verir.***

***Budur dünyanın "ədaləti"! Budur Avropa dövlətlərinin iki yox ey, çoxüzlülüyü!***

***Deyirlər Əzrayıl bala paylayır, bir nəfər də qayıdır ki, mənim balama dəyməsin, onun balası mənə lazım deyil.***

***Bizim heç kəsin pulunda gözümüz yoxdur, heç kimdən yardım gözləmirik və istəmirik. Bu 30 ildə necə dik durduqsa, yenə yüz illər də dik duracağıq.***

***70 il Sovet hökuməti sordu Azərbaycanı, müstəqilliyimizi bərpa edəndə büdcəmizdə heç 2 milyon dollar da yox idi. Ulu Öndər Heydər Əliyev sıfırdan qurdu bu dövləti. Azərbaycanı regionun ən inkişaf etmiş ölkəsinə çevirdi. Heydər Əliyevin siyasi varisi Möhtərəm Prezident İlham Əliyev isə Azərbaycanı dünyada söz sahibi elədi və 30 illik işğala 44 gündə son qoydu.***

***Belə-belə işlər, Avropa İttifaqı. Vaqif Bayatlı Odər demiş, türk min illərin gün işığıdı, nə qədər basdırsan, yenə torpağın üstündə qalar.***

***Biz gün işığıyıq.***

***Yəqin ki, 2,6 milyard avronu da Amerika, Rusiya və Fransa işlənib işdən çıxmış, yararsız silah-sursatlarını ermənilərə sırımaqla tutub əllərindən alacaq.***

# Azər Həsrətdən Çelyabinsk məhkəməsinə sərt sözlər: Qəbuledilməzdir...

**Rusiyanın Çelyabinsk şəhərinii kassasiya məhkəməsində şəhər Cümə Məscidinin imamının müavini Rinat Yaminevin işinə baxılır. O, "Vkontakte" sosial şəbəkəsindəki paylaşımlarında milli və dini zəminldə nifrət yaratmaq cəhdlərində suçlanır. Yaminev Azərbaycan Prezidenti İlham Əliyevin Qarabağda ermənilərin donuz saxladıqları, viran qoyduqları məscidin önündə çəkilən videosunu paylaşıb.**

Yaminevə qarşı Rusiyanın İnzibati Hüquqpozmalar Məcəlləsinin 20.3.1 maddəsi əsasında ("Nifrət və ya düşmənçilik yaratmaq) cinayət işi qaldırılıb.

Yaminevin "Vkontakte"dəki paylaşımlarına psixologiya elmləri namizədi Andrey Rezepin məhkəmə üçün ekspert qismində rəy verib.

Rezepin hesab edib ki, "paylaşımlar islam fundamentalizmi ideologiyasını təbliğ edir, İslamı xristianlıqdan üstün sayır, Qarabağ münaqişəsini Çelyabinsk sakinləri üçün aktuallaşdırır".

Halbuki ermənilərin donuz saxladıqları məscidlə bağlı xəbəri Rusiyanın bütün nüfuzlu media orqanları dərc etmişdilər.

Çelyabinskin Traktorozavodsk rayon məhkəməsi Yaminevi suçlu sayaraq onu 10 min rubl məbləğində cərimələyib.

Apellyasiya məhkəməsi qərarı qüvvədə saxlayıb.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu olayla bağlı olaraq Çelyabinskin vitse-qubernatoru Anatoli Vekşinlə görüşüb. P.Bülbüloğlu məhkəmənin qərarının ləğvinə çalışır.



"Rusiyada konkret olaraq Çelyabinsk Məscidininn imamına qarşı bu cür təqibi başladılması sözün düzü bizi çox narahat edir.

Çünki adam faktiki olaraq heç bir qanun pozuntusuna yol verməyib.

Sadəcə olaraq, bir din adamı kimi əsl həqiqətlər barədə sosial mediyada paylaşımlar edib. O, özü hansısa millətə, yaxud şəxsə qarşı çağırış etməyib".

Bu sözləri sözü gedən məsələ barədə "Adalet.az"-a danışan siyasişərhçi Azər Həsrət bildirdi ki, Azərbaycan 44 günlük Vətən Müharibəsini qələbə ilə başa çatdırandan sonra dünyanın müxtəlif insanları, istər jurnalistlər, istərsə də din xadimləri ölkəmizə gəlib əsl həqiqətləri öz gözləri ilə görüb bu barədə məlumatlar paylaşırlar.

Onun sözlərinə görə, Azərbaycanda faliyyət göstərən bütün xarici ölkələrin səfirliklərin əməkdaşları o bölgələrə zaman-zaman səfər edib əsl reallıqları öz gözləri ilə yerində müşahidə edirlər.

**"Yəni bütün dünya Azərbaycanla bağlı həqiqətləri bilir, ermənilərin bizim milli-mənəvi və tarixi abidələrimizin başına nə oyun açmaları barədə düzgün informasiyaya malikdir. Hamı bilir ki, ermənilər bizim məscidlərimizi necə xarabaya çevirib viran qoyublar, orda donuz saxlamaqla əslində İslam dinini təhqir ediblər. Bilinən, həqiqi nəsə barədə paylaşım etmək hansısa milli qarşıdurma, yaxud etnik zəmində çağırış sayıla bilməz. Bu səbədən həmin din xadiminin təqibə məruz qalması, cəzalandırılması qəbuledilməzdir",-deyə A.Həsrət fikrini tamamladı.**

**İltifat HACIXANOĞLU**

### Bu maska ki var...



**Amma nolsun, yenə görürsən ki, avtobusda, metro qatarında çoxlu sayda maska taxmayan insanlar var. Özü də sıxlıq olan yerdə ha! Adamlar ayaq üstə durur və amma yenə bəziləri maska taxmırlar. Hələ biz ara məsafəsini demirik. Bizim camaat qəribə camaatdı ey! Karonavirusa yoluxanların sayı aşağı düşəndə elə bildilər ki, bu xəstəlik tay bitdi. Ona görə də əhali arasında, elə içi mən qarışıq bir arxayınçılıq yaranıb ki, tay xəstəlik olmayacaq. Maska taxmağa, ara məsafəsi saxlamağa, dezinfeksiyaedici məhlullardan istifadə etməyə ehtiyac qalmayıb.**

İyulun 4-ü səhər saatlarında 50 nömrəli avtobusla işə gedərkən gördüm ki, nəinki sərnişinlər, heç sürücü də maska taxmayıb. Dedim ki, qardaş, niyə maskan yoxdu? O da özündən razı halda dilləndi ki, mən vaksin vurdurmuşam, maska taxmaya bilərəm. Amma sən və sərnişinlər mütləq maska taxmalısınız. Amma axşam saatlarında işdən evə qayıdanda həmişə görürəm ki, "Ballı market"in yanında polislər maska taxmayan adamları cərimə elədiklərinə görə o dəqiqə sürücü də maska taxır, sərnişinlər də. Yəni, xala xətrin qalmasın.

Elə ona görə də son günlər virusa yoluxanların sayı 900-ə çatıb. Məgər bu "SOS" siqnalı deyilmi? Belə getsə, yoluxanların sayı daha da artacaq və Operativ Qərargah sərt tədbirləri yenidən tətbiq edəcəkdir. Əgər bu rejimə keçmək istəmiriksə, hamı qanunlara əməl etməlidir. İlk növbədə bu maska ki var ha, onu taxmalıyıq, ara məsafəsi saxlamalıyıq, tez-tez əlimizi dezinfeksiyaedici məhlullarla və sabunla yumalıyıq. Özümüzü qorusaq, deməli, bu virusa yoluxmaya bilərik. Amma bir şərtlə ki, özümüzü qoruyaq!

**Emil FAİQOĞLU**

---

### “QR kodlu” “Vətən bağı” parkı salınacaq



**Son günlər Vətən Müharibəsi şəhidlərinin xatirəsinə park yaradılması fikri cəmiyyət tərəfindən müsbət reaksiya ilə qarşılanıb. İctimai fəal Emin Tarverdiyevin təşəbbüsü atılan addıma dövlət orqanları, müxtəlif insanlar da dəstək verib. Emin Tarverdiyev bu barədə fikirlərini Adalet.az-a bölüşüb.**

”Dostlarla məsləhət etdik ki, Bakıda şəhidlərinin xatirəsinə ”Vətən bağı” adlı park yaradılsın. Öncə bizə qazilərin, şəhid ailələrinin, cəmiyyətin dəstəyi lazım idi ki, buna görə də sosial şəbəkələrdə paylaşımlar etdik. Kifayət qədər müsbət reaksiya ilə qarşılandı və bizə dəstək olanların sayı get-gedə artmaqdadır.

Bir neçə dostumuz ağacları öz boynuna götürdü, bir şirkət parkın gübrələnməsi ehtiyacını öz üzərinə götürdü.”

İctimai fəalın sözünə görə dövlət orqanları da onların bu layihəsinə biganə qalmayıb.

”Ilk olaraq nəyi edəcəyimizi bilmirdik. 2900-3000 ağacın əkilməsi nəzərdə tutulur ki, bu da Bakı kimi yerdə xeyli ərazi deməkdir. Biz də öncə Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət etdik. Qısa zamanda bizə cavab verildi. Yerlə bağlı müvafiq icra orqanına müraciət etməyimizi məsləhət gördülər. Bakı Şəhər İcra Hakimiyyəti bizi dəvət etdi, bu gün görüşəcəyik. İnanıram ki, yaxşı olacaq. ”Vətən bağı”nı dəstəkləyəcəklər.Parkla bağlı müxtəlif yeniliklərimiz olacaq. Hər ağacın yanında QR kodu olacaq. O kod oxunduqda bir şəhid haqqında məlumat veriləcək.”

**Emin Piri**

---

### CNN peyvənd olunmayan işçilərini qovdu




***CNN İnternational peyvənd olunmayan ofisə gələn 3 işçisini işdən qovdu.***

***Adalet.az "Reuters"-ə istinadən xəbər verir ki, CNN İnternational peyvənd olunmayan işçilərinə bunu mesajla bildirib. Qurumun prezidenti Jef Zukerin imzasını daşıyan mesajda onların peyvənd mövzusunda anlayış göstərmədikləri və hər işçinin peyvənd olmaq məcburiyyətində olduğunu bildirib.***

***"Xəbər, idman və studiyalarda işləyən hər kim olursa olsun oeyvənd vurdurmaq məcburiyyətindədir. Bu mövzudakı təpkimiz aylardır davam edir. Heç kimin bu mövzuda tərəddüdü olmamalıdır".***

***Qeyd edək ki, CNN xəbər kanalının Los Angeles, Vaşinqton və Atlanta ofislərində maska taxmaq məcburiyyəti də tətbiq olunub.***

*Tərcümə şöbəsi:*
*Eminquey*

---

# KƏRİM VƏLİYEV TANRININ HƏDİYYƏSİDİR

**Uzun illər hərbidə xidmət etdiyim üçün hərbi təyinatlarla tez-tez maraqlanıram. Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti müzəffər Ali Baş Komandan İlham Əliyevin general-leytinat Kərim Vəliyevi Müdafiə Nazirinin birinci müavini, Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi təyin etməsi məni 1-ci Qarabağ müharibəsinin iştirakçısı kimi çox sevindirdi. Belə bir təyinatı Ali Baş Komandanımızdan çoxtan gözləyirdik, ən azından ona görə ki, Kərim Vəliyev Azərbaycan əsgəriylə Orta Asiyadan Avropaya qədər geniş bir coğrafiyaya yayılmış, 50 milyondan çox azərbaycanlının danışdığı türk dilində danışacaq əsgərin, zabitin dərdini-sərini, sosial-məişət qayğılarını öz dilində eşidəcək və ona qayğı göstərəcək. Əsgərin dilində danışan komandir hesab edirəm əsgərin ikinci ürəyidir.**

Kərim müəllim xalqına, Vətəninə ruhən bağlı bir ziyalı insandır. Onun tabeliyində olan şəxsi heyyətə münasibəti doğma və halal mövqenin məhsuludur. Bunu ona verilən orden və medallar da təsdiq edir. Yüksək hərbi peşəkarlığa malik olan bu insanı insanlığın zirvəsini kəşf edənlərdən biri hesab etmək olar.

1996- cı ildə məni döyüş bölgəsindən Bakıya Hərbi-Elmi Mərkəzin strukturlarından birinə ixtisasıma uyğun olaraq xidmətimi davam etdirmək üçün göndərdilər. Müəyyən vaxtdan sonra bizim idarəmiz General-leytinant Kərim Vəliyevin tabeliyinə keçdi. Haqqında çox rəvayətlər, həqiqətlər eşitmişdim bu cəsur döyüşçünün nə edəsən ki, üzünü görməmişdim. Birinci Qarabağ müharibəsində Fizuli istiqamətində apardığı döyüşlərdə yağı düşmənə necə divan tutmasıyla bağlı ordumuzda indi də söz-söhbətlər gəzməkdədir. Belə döyüşçülər, generallar ordumuzu zənginləşdirən, qəhrəmanlıq dastanları yazan insanlardır, döyüşçülərdir. Yaxşı yadımdadır mərhum generalımız Polad Həşimovun ölümünə acıyan bir general kimi Kərim Vəliyev böyük təşvişə düşmüşdü. Çox həyəcanlı görünürdü. Elə bil ən əziz doğmasını itirmişdi, Real TV-yə müsahibəsini verərkən elə bil bütün vicudu əsirdi, nə edəcəyini bilmirdi.. General Polad Həşimovun ölümü general Kərim Vəliyevi bərk sarsıtmışdı. Elə bil özünə gələ bilmirdi. ”Necə oldu Poladı vurdular,



axı o vurula bilməzdi...” belə fikirlər xəyalən sanki başının üstündə duman təki görüntü yaratmışdı. Bəli, tarixdə belə hadisələr çox olmuşdur. İşini, peşəsini bilənlər, onun öhtəsindən gələnlər qiymətli dəyərli olurlar. Vətən isə qəhrəmanlarının çiynində tarixə çevrilir, əbədiləşir.

44 günlük Qrabağ müharibəsi kimin kim olduğunu göstərdi, istər ön cəbhədə, istər arxa cəbhədə.

Dostlarımız da bilindi, düşmənimiz də. İlham Əliyevin komandanlığı altında Azərbaycan əsgəri tarix yazdı, möcüzələr göstərdilər. Adlarını qızıl hərflərlə tarixə yazdılar. Sayılan-seçilən oğullarımız çox oldu. Nümunəvi döyüşlər apardılar, o döyüşlər ki, bütün dünya indi zəfər döyüşlərimizdən danışır.

Ermənistanda bu gün sabit gündəm yoxdur. Yaxın günlərdə bu terror dövləti məcbur olacaq Azərbaycan dövlətinin ərazi bütövlüyünü tanısın və bu da Qarabağın sonu olacaq. Yeni müharibə riski davam etsə də dəmir yumruq yerindədir. Əyər düşmən siyasi kursuna yenidən baxarsa onda dəmir yumruq işə düşməyə bilər. Qrdusu darmadağın olan Paşinyan hakimiyyəti çabalayır nə edəcəyini bilmir, dilənməklə məşğuldur. Cənab Ali Baş Komandanımızın ”Cəhənnəmə getdi status, gora getdi status” ifadəsi erməni ekstremistlərini bir qədər duyğulandırmışdır. Post-münaqişə dövrü üçün Cənab Prezidentimiz İlham Əliyevin siyasi kursu yetərlidir. Tanrıya şükürlər edirəm biz yerimizdəyik.

Qürurla deyə bilərəm ki, Kərim Vəliyev Azərbaycan üçün tarixə çevrilən əsl generallardan birisidir.. Zəngin hərbçi biliyi və peşəkarlığı, dəmir iradəsi, milli qəyərlərə qiymət vermək bacarığı, torpaq sevgisi, Kərim Vəliyev ruhunun özəlliyini göstərən elementlərdəndir. Kərim Vəliyev Azərbaycan xalqına Tanrının hədiyyəsidir. Mən 1-ci Qarabağ Müharibəsinin iştirakçısı olaraq Ali Baş Komandanımıza səslənərək demək istəyirəm:

**Cənab Ali Baş Komandan İlham Əliyev çox sağ olun ki, ordumuzu Azərbaycan əsgərinə yabanı olanlardan təmizləməklə Qarabağ döyüşlərində şücaətlər göstərmiş bir generala lazımı təyinatı verdiniz. Bu təyinat milyonların ürəyindən xəbər verir. Bəli, bu gün mən təqaüddəyəm. Təqaüddə olsam da bacarıqlı Vətənin çağrışına getməyə hər vaxt hazıram. Qarabağ Azərbaycandır!**

***Dağlar yenə güllənəcək,***
***Çaylar yenə sellənəcək,***
***Ölsəm ruhum dillənəcək,***
***Vətən sənin əagərinəm,***
***Vətən sənin əsgərinəm!***

**Hörmətlə**
**Maşallah Məftun**
**1-ci Qarabağ müharibəsinin iştirkçısı, hərbi ekspert,**
**AYB və AJB-nin üzvü**

---

# Əsgəri girdiyi torpaqdan əsgər çıxara bilər...

***"Vətən əxlaqımız qüvvətli olmazsa, nə müstəqilliyimizi, nə azadlığımızı, nə də Vətənimizin bütövlüyünü qoruya bilmərik".***

*Ziya Göyalp*

**Hörmətli oxucular, düz görmək, düz eşitmək, düz danışmaq və düz yazmaq insandakı ən böyük mənəvi keyfiyyətdir. Mən də düz danışacağam, düz yazacağam.**

...Belə deyirlər ki, çox vaxt yazıçı mövzusunu yox, mövzu özü yazıçını tapır. Sizlərə təqdim etdiyim bu yazı da bir təsadüf nəticəsində məni tapmışdır... Belə ki, qohumlardan birinin övladının xeyir işinə dəvət olunmuşdum. Ordakı qonaqlar və dost-tanışılar arasında ilk dəfə gördüyüm orta boylu, sakit təbiətli, mehriban baxışlı, abır-həyalı, sözün əsl mənasında həyatda çətinliklər görmüş insanı xatırladan bir gənc də vardı. Onun gözəl bəzədilmiş süfrədən kənarda dayanıb mehriban nəzərlərlə qonaqlara tamaşa etməsi, kimliyi diqqətimdən yayınmadı. Yanında dayanan ağsaqqal kişini tanıdım. Əslən Şuşanın Xanlıqpəyə kəndindən idi. Şuşada yaşayırdı. Adı Rəhman idi. Hiss etdim ki, yanındakı gəncə kömək göstərir.

Səmimi deyim ki, Şuşadan məcburi köçkün düşdüyümüz 30 ilə yaxın müddətdə onunla bir-iki dəfə xeyir-şər məclislərində rastlaşmışdım. Onun və yanındakı gəncin hansı səbəbdən süfrədən kənarda dayanmaları, ağsaqqalın əl işarəsi ilə məni cavana göstərərək nəsə deməsinin səbəbini öyrənmək üçün qeyri-ixtiyari əyləşdiyim stuldan ayağa qalxıb onlara yaxınlaşdım. Tanış olduq. Onlar ata-oğul idilər. Onu da deyim ki, gənc oğlanı cəbhədən gələnə oxşatmışdım. Yanılamamışdım... Adı Taleh idi.

***44 günlük Vətən müharibəsindən təzəcə qayıtmışdı. Onu var gücümlə qucaqlayıb köksümə sıxdım, gözlərindən öpdüm. Tanışlığımızdan qürur hissi keçirdim. Hiss etdim ki, yazacağım yazının mövzusu özü məni tapmışdı.***

***...Xeyir işin sahibinin hörmət əlaməti olaraq mənə tapşırdığı masabəyi səlahiyyətimi tamamilə unutmuşdum.***

Rəhman kişi verəcəyim sualları gözləmədən - birnəfəsə oğlunun uşaqlıq illərindən, əsgəri xidmətə könüllü getməyindən, düşmənə qarşı içində gəzdirdiyi nifrətdən, keçdiyi döyüş yolundan danışmağa, oğlunu mənə tanıtmağa çalışırdı Söhbətimizdən məlum oldu ki, Taleh hələ kiçik yaşlarından güclü təfəkkürə, gözəl yazı yazmaq qabiliyyətinə malik olaraq sinif yoldaşlarından fərqlənən uşaq olub. Onun üzünü görmədiyi, adını eşitdiyi doğma Şuşası ilə bağlı yazdığı yazıları həm sinif yoldaşlarının, həm də müəllimlərinin maraqlarına səbəb olmuşdur. Talehin təhsil sahəsində qazandığı uğurlar, layiq görüldüyü Fəxri vərəqələr, diplomlar oxuduğu məktəbə gətirdiyi başucağılı məni valeh etdi. O da məlum oldu ki, Taleh düşmənlə savaş meydanında da mərdliklə vuruşub. Lakin döyüşlərin birində ağır kəllə-beyin travması alıb. Bu hadisənin təsiri Talehin danışığında və yerişində özünü göstərir... Özümü bir anlığa xəyalən şəhidlərimizin, qazilərimizin, əsgər və zabitlərimizin yanında hiss etdim.



...Talehin sakit-sakit danışığından, mehriban baxışlarından ayrıla bilmirdim. Çətin və şərəfli ömür yolur keçmiş bu gənc haqqında oçerk yazmağı, onu gənclərimizə tanıtmağı özümə mənəvi borc bildim.

***Qısa tanıtma:***

***Həsənov Taleh Rəhman oğlu 08.12.2000-ci ildə Bakının Suraxanı rayonunda anadan olub. 2007-2018-ci illərdə Suraxanı rayonundakı 232 nömrəəlio orta məktəbdə təhsil alıb. Taleh 2015-ci ildə "İdeal Vətəndaş" qəzeti tərəfindən respublika üzrə məktəb şagirdləri arasında aparılan istedad və bilik sorğusunda "İlin ən yaxşı şagirdi" Fəxri fərmanı ilə təltif olunubdur. 2018-ci ildə Azərabycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən "Sabahın Alimləri" layihəsində iştirak edərək yazdığı şifrə qıran proqram ilə "Sabahın Alimləri" layihəsinin "Kompüter Elmləri Kafedrası"nın və "Kiçik Akademiya"nın informatika kafedrasının üzvü seçilmişdir.***

Həsənov Taleh 2019-cu ildə Şuşa rayon Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən 3 il müddətinə hərbi xidmətə yararsız hesab olunmasına baxmayaraq könüllü yazılaraq həqiqi hərbi xidmətə getmişdir.

2019-2021-ci illərdə 2 il ön cəbhədə həqiqi hərbi xidmətdə olmuşdur. Həqiqi hərbi xidmətdə olduğu müddətdə 7 ixtisasda atıcılıq və faktiki kurs keçmiş, hərbi xidmətdə fərqləndiyi üçün mexanikləşdlirilmiş həmlə raboruna göndərilərək həmin taborda baş atıcı vəzifəsində xidmətə davam etmişdir. Həmin taborda gecə 300 m məsafədən qumbaraatanla BMP hədəfini dəqiq vurduğuna görə, 300 m məsafədən hərəkətdə 6 hədəfi vurduğuna görə fərqlənmişdir.

Taleh Həsənov mexanikləşdirilmiş həmlə taboru tərkibində 2-ci Qarabağ müharibəsində Ağdam rayonunun Qaradağlı, Qapanlı, Orta Qərvənd, Mirəşelli, Çıraqlı və Əhmədağalı kəndlərində, Qızıloba, İlxıçılar, Tağıbəyli, Şıxlar, Baş Qərvənd və Cavahirlər kəndləri istiqamətində, habelə Tovuz döyüşlərində erməni faşizminə qarşı qəhrəmanlıqla vuruşmuşdur. O, 2-ci Qarabağ müharibəsində mexanikləşdirilmiş həmlə taboru ilə girdikləri döyüş əməliyyatlarının birində heyəti olduğu BMP-nin vurulması nəticəsində ağır-kəllə beyin travması almışdır. Heyətlərində isə 2 MAHHXHQ yaralanmış, 1 qazi isə şəhid olmuşdur.

***Taleh Rəhman oğlu Həsənov Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2021-ci il tarixli Sərəncamı ilə "Vətən Müharibəsi" iştirakçısı, "Ağdamın Azad olunmasına Görə" və "Döyüşdə Fərqlənməyə Görə" medalları ilə təltif olunmuş, III dərəcəli 2-ci Qarabağ müharibəsi veteranı adına layiq görülmüşdür.***

Azərbaycanın vətənpərvər oğlu Taleh ailədə bir bacı, bir qardaşdılar. Atası Həsənov Rəhman Allahverdi oğlu 1991-1997ci illərdə Şuşa polisində xidmət etmiş və 1991-1994-cü illərdə 1-ci Qarabağ müharibəsində Ermənistan silahlı qüvvələrinə qarşı döyüşərək ayağından yaralanmışdır. 1997-ci ildə Şuşa polisindən ehtiyata buraxılmışdır.

***Bacısı - Həsəova Zümrüd Rəhman qızı ailəlidir, 2 övladı var.***

***Anası Həsənova Validə Mürşüd qızı evdar qadındır.***

Yeri gəlmişkən qeyd edək ki, Talehin anası Validə xanım söhbətimiz əsnasında dedi ki, Vətənimizin işğalçı ermənilərdən azad edilməsində silaha sarılan, düşmənlə ölüm-dirim savaşına girən həyat yoldaşım RəhmanLa və hələ uşaq ikən: "Şuşamızı mən azad edəcəyəm, ana, deyən oğlum Talehlə fəxr edirəm. Mən bir ana kimi şəhər və kəndlərimizi viranəyə çevirən, körpələrimizi gözüyaşlı qoyan, Xocalını qan dənizində boğan, Azərbaycan ərazilərini işğal etməkdən əl çəkməyən, insana və insanlığa hörmət qoymağı bacarmayan, işğalçı və əbədi düşmənimizə - erməni faşizminə aldanmamağı, onların kimliyini unutmamağı gələcək nəsillərə tövsiyə edirəm.

***Mən bir ana kimi Azərbaycan Respublikası Silahlə Qüvvələrinin Ali Baş Komandanının rəhbərliyi altında torpaqlarımızı canı və qanı bahasına erməni işğalçılarından düşməndən azad edən şəhidlərimizin, qazilərimizin, əsgər və zabitlərimizin, şəhid analarımızın qarşısında baş əyirəm. Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə sağalmalarını arzulayıram!***

Nəhayət, məni tapan mövzunun sonunda 44 günlük Vətən müharibəsinin qəhrəmanlıq tarixini özündə əks etdirən kitab yazacağımı nəzərə alaraq bu yazıya nöqtə qoyuram. Üzümü analara, atalara, dünyanın bütün insanlarına, "sülh"dən, "ədalət"dən, "demokratiya"dan dəm vuran ölkələrin səlahiyyət sahiblərinə üzümü tutaraq deyirəm:

*Amandır, qoymayın bir də yer üzü,*
*Diksinib oyansın bomb səsindən!*
*Amandır, qoymayın Günəşin gözü*
*Tutalar Neytron zəlzələsindən!*

*Hələ sağalmayıb vurulan yara,*
*Çoxlarl gəzdirir qoltuq ağacı.*
*Analar çəkilib gözündən dara,*
*Muğştuluq gözləyir gör neçə bacı?!..*

**Bu yazı mənim Vətənimizin azadlığı uğrunda döyüşən əsgərlərimizə, şəhidlərimizə, qazilərimizə, çətin günümüzdə bizə qardaşlıq əli uzadan Türk dövlətinə, Vətən sevgisini hər şeydən üstün tutam qəhrəman xalqımıza - soydaşlarımıza mənəvi borcumun kiçik bir hissəsidir. Bu mövzuda hələ çox yazılar yazacağıq!**

**Əyyub Şırlanlı,**
**şair-publisist, AYB-nin üzvü,**
**birinci Qarabağ müharibəsinin veteranı,**
**əməkdar müəllim**

---

*Aqil ABBAS*

# BOŞANANDA DA ADAM KİMİ BOŞANMIRIQ

*Azərbaycanda boşanan tərəflər bir-biriylə düşmən olur, qanlı bıçaq olur və bəzən hətta olmayan varidatlarının üstündə qırğın düşür. Bu cəhənnəm, ər boşadığı arvadını sonradan qısqanıb gedib öldürür də. Bəzən nəinki boşadığı arvadını, qayınatasını, qayınanasını, hətta qaynını belə öldürür.*

*Biz nə təhər müsəlmanıqsa, boşanma ilə bağlı peyğəmbərin qoyduğu qanunlara da əməl etmirik.*

*Sizə qəribə bir hadisə danışmaq istəyirəm.*



*İki-üç il bundan əvvəl İsveçrədə yaşayan Vural Baydan adlı bir ıqdırlı dostum məni ailəlikcə İsveçrəyə dəvət etmişdi.*

*Çox qəribə bir insandır. Onu da deyim ki, Türkiyədə nəşr olunan "Dolu" romanımı oxumuşdu, sonra filmə də baxmışdı. Xocası Seyfəddin Altaylı vasitəsilə məni axtarıb tapmışdı, İzmirə dəvət etmişdi və orda "Dolu" filminin təqdimatını keçirmişdi. Beləcə salam-sabahımız yaranmışdı.*

*Və günlərin birində gördüm ki, mənə iki bilet göndərib Sürixə. Və xanımımla getdik Sürixə. Bir on gün onun qonağı olduq.*

*İsveçrədə sayılıb-seçilən kişilərdən biridi.*

*Deməli, bu, İsveçrədə yaşayanda (təxminən 40 il orda yaşayıb) bir alman qadınla evlənib və ondan iki oğlu və bir qızı var. Böyük oğlu da futbolçudu. Sonra boşanıblar və gəlib İzmirdən bir xanımla evlənib ondan da bir qızı var.*

*Və bir gün dedi ki, Ursula (boşadığı xanım) eşidib ki, Azərbaycandan qonaqlarım gəlib bizi yeməyə dəvət edir.*

*Ayrılıblar və adam kimi ayrılıblar, yenə ünsiyyət saxlayırlar. Düzdür, övladları anası ilə qalır, amma o da öz atalıq borcunu yerinə yetirir.*

*Nə isə, bizə bu dəvət təbii ki, təəccüblü gəldi. Əgər xanım boşandığı ərinin qonaqlarına belə hörmət bəsləyirsə, görün öz ərinə nə qədər hörmət bəsləyir.*

*Bir maraqlı da söhbət. Deməli, gedirik Ursula xanımgilə qonaq.*

*Xanımım soruşdu:*

*-Vural bəy, biz xanımınla necə söhbət edəcəyik, heç olmasa bir az türkcə bilir?*

*- Qətiyyən, türkcə bilmir. Ursula uzun müddət Iqdırda anamın yanında yaşayıb, yalnız azərbaycanca bilir.*

*Xeyli güldük. Bilməyənlər bilsinlər ki, Iqdırda, Qarsda, hətta Ərzurumda yaşayanlar özlərini Türkiyə türkü yox, Azərbaycan türkü sayırlar. Məsələn, mən Iqdırda, Qarsda olanda elə bilirdim Ağdamdayam, Ağcabədidəyəm.*

*Sözümün canı nədir? Boşananda adam kimi boşanın.*

---

## Vüqar İsgəndərov: "Təxribatlar birbaşa Paşinyanın tapşırığı ilə həyata keçirilir"

**”Paşinyanın ikinci dəfə Ermənistanın baş naziri kimi təsdiq olunmasından sonraki bəyanatları sübut edir ki, bu adam avantürist, sözü ilə əməli bir olmayan etibarsız siyasətçidir.”**

Bu sözləri son günlər Azərbaycan Ermənistan sərhəddində atəşkəsin ermənilər tərəfindən intensiv pozulmaslna münasibət bildirərkən, millət vəkili Vüqar ”Adalet.az”-a deyib. Onun sözlərinə görə, Azərbaycan Rusiya və Ermənistan rəhbərləri arasında ötən ilin noyabrın 10-da imzalanan üç tərəfli razılaşmanın şərtlərinə əməl etməyə Ermənstan borcludur:



”Bunu gözəl anlayan Paşinyan seçki öncəsi bir çox revanşist vədlər verməyə başladı. Təbii ki, kütləyə hesablanmış ritorika idi... Artıq Paşinyan baş nazir kimi təsdiq olunub. Amma hakimiyyətdə olduğu dövrlərdə hamıya göstərib ki, onun fikirlərində qətiyyət yox, nizamsızlıq var. Həm də ölkə daxilində vəziyyətin ağırlığı, Ermənistan ordusunun rəşadətli əsgərlərimiz tərəfindən təmamilə məhv edilməsi, minlərlə insanın müharibədən sonra ölkəni tərk etməsi, iqtisadi çöküş, daxildə anarxiya Paşinyanı çıxılmaz vəziyyətdə qoyub”.

Millət vəkili onu da vurğuladı ki, Paşinyanın sön günlər verdiyi sərsəm bəyanatları Rusiyaya qarşı demarş kimi də qiymətləndirilə bilər. Hələlik Rusiyanın Paşinyana təmki göstərməsinin şahidiyik. O da məlumdir ki. Ermənistan Rusiyanın for postudur. Bütün sahələrə diqqət etsək görürük ki, artıq Ermənistan müstəqil ölkə olmaqdan çıxıb Rusiyanın bir əyalətinə cevrilib. Heç bir müstəqil siyasəti və iqtisadiyyat siyasət yürütməyən Ermənistan bir çox dövətin oyuncağına çevrilib”.

Ermənistan rəhbərliyinin həm Rusiyadan, həm də qərbdən faydalanması məsələsinə də toxuna V.İsgəndərov bu ikibaşlı oyunun Paşinyanın sonunu yaxınlaşdıracağını dedi:

”Belə görünür ki. Ermənistan Rusiyadan başqa Qərbin böyük ölkələrindən də vəd alıb. Əslində Avropa Birliyinin ona ayırdığı 2.6 milyard avroya sakit yanaşması onu göstərir ki, artıq Rusiya Ermənistanatəmir. Putin yaxşı bilir ki, Paşinyan Sorosun oyuncağı olsa da. Qərbin çaldığı havaya oynasa da. Dara düşən kimi Rusiyanın qucağına qaçacaq. Məhz Qərbin verdiyi vədlər də Paşinyanın son günlər başından böyük danışmasına səbəb olub və üç tərərfli razılaşmanın şərtlərini həyaata keçirilməsini yubadır. Bunun üçün də sərhəddə təxribatlar törədilir. Bəzən deyirdilər ki, yerli idarəetmə orqanlar və hərbi komandanlar ona tabe olmaq istəmədikləri üçün Koçaryanın fitvası ilə Azərbaycanla sərhəddə təxribatlar olur. Mən isə əksinə deyirəm ki, bu təxribatlar birbaşa Paşinyanın tapşırığı ilə həyata keçirilir. Çünki orduya diqqət etsək, Paşinyan bir çox yüksək vəzifəyə öz adamlarını - qərbyönümlü hərbçiləri təyib edib. Paşinyanın baş nazir kimi ilk işi ordudan rusiyameyilli zabitləri qovmaq oldu. Bu da Paşinyanın qərbdəki ağalarından hansı tapşırıqları almasını göstərirdi”.

**İLTİFAT**

Faiq QİSMƏTOĞLU,
faiqqismetoglu@box.az



# Qardaşım Qürbətə oxşayırdı

Mənim çox dostlarım, yoldaşlarım olub. Və onların da hərəsi bir cür xatirimdə qalıb. Xatirimdə qalanlardan biri də tələbə dostum və uzun illər yoldaşlıq elədiyim, çörək kəsdiyim, ürək sirrimi bölüşdüyüm Rafiq Hacıyevdir. Və Rafiq Hacıyev heç bir dostuma, yoldaşıma bənzəmirdi. Tamamilə başqa bir dünyanın, başqa bir aləmin adamıydı. Bunu nəyə görə deyirəm?! Ona görə deyirəm ki, o, harda olurdusa, harda yaşayırdısa, harda oxuyurdusa, harda işləyirdisə, özünün qeyri-adi xüsusiyyəti və səmimiyyəti ilə seçilirdi.

Mən Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini 1979-cu ildə bitirmişəm. Rafiq isə 1980-ci ildə universiteti qurtarıb. Yəni, məndən bir kurs aşağıda təhsil alırdı. Özü də yeganə tələbə idi ki, oxuya-oxuya ölkənin ən nüfuzlu və hörmətli qəzeti "Kommunist"də işləyirdi. Heç universiteti bitirənlər Mərkəzi Komitənin orqanı olan bu qəzetdə korrektor işinə düzələ bilmirdi. Amma Rafiq Hacıyevin istedadı, zəhməti və ən nəhayət fərqli bir dünyagörüşə malik olması onu bu nüfuzlu qəzetə gətirmişdi. Orda da Rafiq bir daha necə qəzetçi olmağını, necə jurnalist olmağını və necə publisist olmağını sübut elədi.

Azərbaycan mətbuatında məsul katiblikdə işləmək elə də asan məsələ deyildi. Çünki məsul katib qəzetin həm də görən gözü, düşünən beyni, danışan dili idi. Bütün materialların yerləşdirilməsi və təqdimatı məsul katibin istedadından, peşəkarlığından asılı idi. Rafiq Hacıyev həm jurnalist, həm publisist, həm də məsul katibliyin əməkdaşı kimi çox böyük yeniliklərə, çox böyük orijinallığa imza atıb. Və uzun müddətdə bu istedadına görə məlum mətbuat orqanında şərəf və namusla, vicdanla öz vəzifə borcunu yerinə yetirib.

Hətta onu qeyri-adi istedadına görə Mərkəzi Komitənin xətti ilə 3 aylıq Laçında çıxan qəzetin nəşrə hazırlamağı və tərtibat işlərini görməyi həvalə ediblər. O, bu vəzifəni də çox böyük peşəkarlıqla, çox böyük zəhmətlə icra edib. Özü də deyirdi ki, mən orda bu vəzifəni icra edəndə, bir adamla oturub-durmurdum. Qonaq otağında qalır, orda çörək yeyir və orda da istirahət edirdim. Və o 3 ayda Rafiq həmin rayon qəzetinin respublikanın ən nüfuzlu mətbuat orqanlarından birinə çevirib. Buna görə də hətta Mərkəzi Komitənin təşəkkürünü də alıb.

Ötən il Rafiq Hacıyevin 65 illiyi media mərkəzində qeyd ediləndə filologiya elmləri doktoru, professor, Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlı dedi ki, Rafiq səhv eləyib mətbuata, jurnalistika aləminə gəlib. Çünki ona nə "Əməkdar jurnalist" fəxri adı verildi, nə də jurnalistlərin binasından ev aldı. Amma Rafiqin çox gözəl muğam səsi var. Biz tələbəlikdə onunla universitetin yataqxanasında bir yerdə qalmışıq. O qədər kartoşka qızartması yemişik ki, hələ də dadı damağımızdan getmir. Sözümün canı odur ki, əgər Rafiq musiqi arxasınca getsəydi, ifaçılıqla məşğul olsaydı, indi xalq artisti idi. Rafiq haqqında çox böyük ədalətsizlik olub. Və bir daha mən dost olaraq düşünürəm ki, o, nə vaxtsa öz halal haqqını alacaq.

Məhərrəm Qasımlı, Rafiq Hacıyev halal haqqını almadan bu dünyadan köçdü. Amma namuslu, şərəfli və vicdanlı bir ömür yaşadı. Yaşadığı bu zaman kəsiyində bir adamın haqqına belə girmədi. Bir qarışqanı tapdalamadı. Onun o qədər böyük ürəyi, yumşaq qəlbi vardı ki, bir hadisə olan kimi o dəqiqə bu böyük ürək, yumşaq qəlb titrəyirdi. Çünki Rafiq nəinki insanın qəlbinə dəyməz, hətta bir yaşıl yarpağı, bir gülü öz budağından, kolundan qoparmazdı.

...Tez-tez bizim redaksiyaya gəlirdi və tez-tez də mənimlə telefon əlaqəsi yaradırdı. Deyirdi ki, sən haçan ordasan, o vaxt gələcəm. Mən də redaksiyada olanda bir də görürdüm əlində çanta, bizim otağa gəlir və biz iki qardaş aşağı düşüb bufetdə çay içərdik. Ölümündən bir neçə gün əvvəl yenə mənə zəng elədi. Dedi, sabah gələcəm. Elə gəldi də. Dəhlizlə hərəkət edəndə gördüm ki, Rafiq bizim otaqdan çıxır. O dəqiqə əlimi havada yellədim və "gəlirəm" - dedim. Görüşdük, hal-əhval tutduq. Dedi ki, düşək 1-ci mərtəbəyə. Bir stəkan çay içək və 1-ci mərtəbəyə düşdük. Dostumuz Anar bir çaynik çay gətirib masanın üstünə qoydu. Elə pulu vermək istəyirdim, bir də gördüm Rafiq bir şax manatı Anara uzatdı. Onu da deyim ki, heç vaxt imkan vermədi ki, onun yanındakılar və mən heç olmasa bir dəfə çayın pulunu verək. Elə ki, çay içirdik, çayniki gətirən kimi hamımızı qabaqlayıb şax bir manatı çayçıya verərdi. Və sonra da oturub çay süfrəsi arxasında ürəyimizi boşaldar, sıxıntılarımızı yada salar və bir anlıq da olsa, kədərimizi, sevincimizi bölüşərdik.

Rafiq eynən mənim rəhmətlik böyük qardaşım Qürbətə bənzəyirdi. Onun kimi görünüşü vardı, onun kimi yeriyərdi və onun kimi də qeyri-adi mərd hərəkətlər edərdi. Bircə gözlərində fərq vardı. Mənim qardaşımın gözü qara idi, onun gözü isə göy idi. Və bu göy gözlərdə həmişə heç kimin duya bilmədiyi, heç kimin hiss etmədiyi bir kədəri hiss edirdim, duyurdum. Çünki Rafiq ömrü boyu çox çətin anlar, günlər yaşayıb. Öz gücünə universitetə qəbul olub və öz gücünə də gəlib jurnalistikanın ən yüksək zirvəsinə çatıb.

...Onun nə arxalı əmisi olub, nə dayısı olub, nə də elə bir adamı. Amma əmililərdən də, dayılılardan da çox böyük uğurlar əldə edib. Hamısını öz zəhməti ilə, alın təri ilə qazanıb. Bəlkə də Azərbaycan mətbuat tarixində Rafiq Hacıyev nadir jurnalistlərdəndir ki, qəzet tərtibini, maket işini və məsul katibliyini çoxlarından yaxşı bacarıb. Yəni bu işi beş barmağı kimi bilib. Həmişə də öz redaktorlarından, xüsusən Rəfael Nağıyevdən və Vaqif Bəhmənlidən çox razılıq edib. Deyirdi ki, hər iki jurnalist mənim müəllimim olub. Hər ikisindən həm jurnalistikanı, həm publisistikanı, həm də peşəkarlığı öyrənmişəm. Vaqif Bəhmənli



ilə işləmək mənə çox ləzzət edirdi. Eyni zamanda Loğman Rəşidzadə kimi bir publisist və jurnalist ilə yoldaşlıq eləmək, bir yerdə işləmək çox gözəl anlar idi.

...Yenə ölümündən bir neçə gün əvvəl mənə zəng eləmişdi. Amma həyətdə olduğuma görə telefon yanımda deyildi. Evə qayıdanda gördüm ki, mənə zəng çalıb. Özü də onun bir neçə nömrəsi vardı və o bir neçə nömrədən də mənə zəng edərdi. Nömrəni görən kimi zəng vurdum, söndürüb yenidən özü mənə zəng çaldı. Bir az dərdləşdik. Bir çox tanınmış jurnalistlərin mənzillə bağlı prezidentə müraciətindən çox narahat olduğunu dedi. Mən də təsəlli verdim ki, bir az səbirli ol, onların müraciəti Quran ayəsi deyil. Hər şey cənab prezidentin istəyindən asılı olacaq və sənin kimi jurnalistlər də gec-tez öz halal haqqını alacaq. Deyəsən, bu sözlərim onu bir qədər sakitləşdirdi.

Amma sabahısı gün eşitdim ki, dostumuz və qardaşımız Rafiq Hacıyev Allahın dərgahına qovuşub. O sağlığında halal haqqını ala bilmədi. Amma mən inanıram ki, bu dünyada vicdanlı və ədalətli adamlar çoxdur. Əgər jurnalistlərə ev paylanarsa, onun halal haqqını ailəsinə, balalarına qaytarmaq lazımdır. Cənab Prezident bu xalq, bu dövlət və bu millət üçün çalışan jurnalistləri həmişə qiymətləndirib. Və inanıram ki, bir gün onun da zəhməti qiymətləndiriləcək və ailəsi sevindiriləcək.

Onun hər gün görüşdüyü, çay içdiyi dostları, qələm yoldaşları var; Sabir Hüseynov, Ağacəfər Həsənli, Allahverdi Eminov, Əbülfət Mədətoğlu və adını çəkə bilmədiyim digər yazarlar. İnanın, Rafiqin dünyasını dəyişməyi Azərbaycanın tanınmış ziyalılarının hamısını kədərləndirib. Və düşünürəm ki, Rafiqin ən böyük mükafatını Allah verib. Çünki onun yeri cənnətdir.

Onun ən yaxın dostlarından olan professor Məhərrəm Qasımlı deyir ki, mən son bir ayda iki yaxın dostumu itirmişəm - biri elmlər doktoru, professor Məhəmmədəli Mustafanı, biri də böyük jurnalist və ziyalı Rafiq Hacıyevi. Rafiq ölümündən bir neçə gün əvvəl Aşıqlar Birliyinə gəlmişdi və yeni çapdan çıxmış kitabını mənə hədiyyə gətirmişdi. Bizim tələbəlik vaxtından çox səmimi zarafatlarımız var. Dedi ki, ay Məhərrəm, 70 yaşında mənim yubileyimin aparıcısı sən olarsan, əgər gəlməsən, özün bilirsən də... Mən də dedim ki, ürəyini buz kimi saxla. Sənin 70 yaşında aparıcılıq da edəcəm, hələ bir zarafat var, onu da. Hər ikimiz o ki var güldük. Sonra ayağa qalxıb, öpüşüb-görüşdü və çıxıb getdi. Mənim ölümünə inanmadığım bir neçə böyük insan var. Onlardan biri də tələbə dostum, böyük publisist və jurnalist Rafiq Hacıyevdir.

...Yazını nikbin notlarla tamamlamaq istəyirəm. Çünki Rafiq Hacıyev heç vaxt kədərə, həsrətə baş əyən insan deyildi. O, həmişə gələcəyə, sabaha çox böyük ümidlə baxardı və deyərdi ki, bir gün gələcək, mənim kimi yetim-yesir jurnalistlərin hamısı sevinəcək. Bundan gözəl arzu nə ola bilər. Rafiqin özü sevinməsə də, qoy onun gələcəkdə ailəsi, balaları və ruhu sevinsin...

...Və bizim də yaddaşımızda, qəlbimizdə Rafiq elə həmin nikbin, ümidli və Allaha sığınan, pənah aparan jurnalist kimi qalıb. Çünki Rafiq Hacıyev kimi böyük ziyalılar, böyük jurnalistlər yeni bir tarix yazdığı kimi Allahın dərgahında da çox rahat və çox sakit yaşayırlar. Ən azından ona görə ki, o, heç vaxt balalarına haram tikə yedirtməyib və Allahın dərgahına haqq yeyən kimi yox, haqqı yeyilən kimi dönüb. Ruhun şad, məkanın Cənnət olsun, qardaş!

# Müəllim ömrü, atalıq qayğısı, hərbçi şərəfi: Şəhid baş leytenant Əvdil Quliyevin əziz xatirəsinə

**44 günlük Şanlı Vətən müharibəsində sırf hərbçilərdən başqa, hər bir ixtisasın sahibi, hər peşənin daşıyıcısı şərəflə iştirak etdi. Həkimlər, bərbərlər, çilingərlər müəllimlər Qarabağda tarix yazdılar.**



Adalet.az xəbər verir ki, bu gün sizə haqqında söhbət açacağımız soydaşımız da müəllimdir.

Elə bir müəllimdən ki, düşmənə dərs verdi , şagirdlərinə nümunə oldu. Söhbət baş leytenant Əvdil Quliyevdən gedir.

Vətən uğrunda başlanmış müharibənin bizə tanıtdığ xalqının igid oğlu Quliyev Əvdil Qardaşxan oğlu əslən Ağdam rayonunun Mərzili kəndindən olsa da, 1972-ci ildə Beyləqan rayonunun Təzəkənd kəndində anadan olub. O vaxt şəhidimizin atası işi ilə bağlı Beyləqanda ezamiyyətdə olarkən igid Əvdil dünyaya gəlib. Bu səbəbdən də doğum şəhadətnaməsinə Beyləqanın adı yazılıb.

Ali təsilini Kənd Təsərüffatı Akademiyasında (indiki Gəncə Dövlət Aqrar Universiteti) alıb. Ali məktəbi leytnant rütbəsilə bitirib.

1996-cı ildə Beyləqan rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb və 1996-2000-ci illərdə Tovuz rayonunda N saylı hərbi hissədə tağım komandiri kimi qulluq edib. Baş leytnant rütbəsinə layiq görülməsininsəbəbi nizam-intizamı, hərbi biliyi, bir də əsgərlərinə qarşı həm komandir, həm də qardaş münasibəti göstərməsidir. Qəhrəmanımız 2000-ci ildə ailə həyatı qurub, üç övladatasıdır. Bundan bir il əvvəl isə - 2019-cu ildə Beyləqan rayon Təzəkənd kənd tam orta məktəbində Hərbi Rəhbər kimi pedaqoji fəaliyyətə başlayıb.

2020-ci ilin oktyabrın 1-də səfərbərliyə çağırılıb və döyüşlərə qatılıb. Füzuli, Cəbrayıl, Qubadlı, Xocavənd uğrunda gedən döyüşlərdə iştirak edib. Noyabrın 6-da Şuşa uğrunda gedən döyüşlərdə yaralı zabit yoldaşına yardım edərkən snayper gülləsi ilə yaralanır, ayın 7-də isə Şəhid olur. Əvdil Quliyev ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunması uğrunda" və "İgidliyə görə" medalları ilə təltif olunub.

### *"Dön, nə olar..."*

Yazı boyu nə qədər istəsəmdə Ə. Quliyev haqqında keçmişdəki kimi yaza bilmədim. Əvvəl ona görəki, şəhidlər ölmür, ikinci ona görə ki, evində ona ehtiyacı olan, ondan sevgi, nəvaziş, ata qayğısı gözləyən 3 övladının gözləri hələ də yollardan yığılmayıb. Hələ də məsumcasına bir möcüzə olacağına inanırlar: Qəflətən qapı açılacaq, hərb geyimdə olan ata düz qapının astanasında dizini yerə qoyub, qollarını geniş açaçcaq və uca səslə, gülə-gülə: " Kim mənim üçün çox darıxıb birinci o yüyürsün qucağıma"- deyəcək, uşaqlar da bir göz qırpımında özlərini atanın qolları arasına atacaqlar...

### *Bəli, bu itki ilə barışmamağın verdiyi amansız ümiddir*

Amansız ümid olan yerdə gerçək təsəllilər də var. Məsələn, Əvdil kimi bir igidin ocağında 3 övlad böyüyür. Hətta o uşaqların ən böyüyü Tamara O hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fizika fakültəsinin III tədris ili tələbəsidi. Müəllim olacaq!

Hətta Tamaradan kiçik bacısı da hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fizika fakültəsinin III tədris ili tələbəsidi. Şəhidimizin oğul övladı isə məktəblidir. Hər biri öz növbəsində atasına layiq övladlardı və inşallah ki, gələcəkdə də onların xoş, ürəyimiz açan, şad edən xəbərlərini eşidəcəyik! Quliyevlər ailəsi bütün Azərbaycanın tanıdığı və ehtiram göstərdiyi bir ailə oldu. Bir də illər, qərinlər, əsrlər keçəcək və heç vaxt Əvdil müəllim bu xalqın nə yaddaşından, nə də ürəyindən, nə də tarixindən silinməyəcək! Necə ki, 12 əsr əvvəl yadelli işğalçılara qarşı döyüşən Babəki bu gün də ehtiramla xatırlayırıq, eləcə də Əvdil müəllimi unutmayacağıq.

### *Müqəddəs şəhidlərimiz və əbədi ziyarətgahlarımız*

30 iilik Qarabağ müharibəsi hər kənddə, hər şəhərdə bir şəhidlər xiyabanı yaranmasına səbəb oldu. O, xiyabanlar xalqımızın müqəddəs ziyarətgahıdır! O xiyabanda nur üzlü şəhidlərimiz uyuyur! O nur üzlülərimizin biridə Əvdil müəllimdir. Nur üzlü şəhidimiz! Yeri gəlmişkən, şəhidimizin babası Hüseynqulu Qardaşxan oğlu Quliyev 1941-1945-ci illərdə - Böyük Vətən Müharibəsində xüsusi igidliklər göstərmiş azərbaycanlılardandır. Bu da onu göstərir ki, qəhrəmanlıq Quliyevlər nəslində təsadüfi hadisə deyil, genetik xarakterdi.

Dünya durduqca ziyarətgah olan şəhid oğullarımız! Sizinlə fəxr edirik, sizinlə qürur duyuruq!

Beyləqan rayonu Təzəkən kəndinin şəhidlərinin , o cümlədən şəhid Əvdil Quliyevin ruhu qarşısında baş əyirik!

**Təzəkənd şəhidləri:**

**1.Abbasov Vüsal Telman oğlu**
**2. Balacayev Qərib Nəsib oğlu ( Ağdam, Mərzili)**
**3. Bayramov Xəqani Mamed oğlu**
**4. Bayramov Səddam Ələddin oğlu**
**5. Bəyişli Elgün Teyyub oğlu**
**6. Quliyev Əvdil Qardaşxan oğlu**
**7. Məmmədov Maarif Məhəmməd oğlu**
**8. Məmmədov Elşad Əvəz oğlu**
**9. Yunisli Ruslan Elçin oğlu**
**10. Vəliyev Elnur Mirsiyab oğlu**
**11. Əliyev Tural Arif oğlu**

**Böyük ehtiramla**
**Əntiqə Rəşid**

# Könül Nurullayeva: "Qalib Ordu haqda dezinformasiyaların yayılması yolverilməzdir"

**"Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordusundan biri kimi 44 günlük Vətən müharibəsində tarix yazdı. Ali baş komandan İlham Əliyevin də bəyan etdiyi kimi, Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində bir dəfə də olsun geriyə addım atmadı. Halbuki müharibələrdə hücumlar, geriyə dğönmələr, manevrlər olur. Amma Azərbaycan Ordusu 30 illik işğala son qoymaq naminə bütün imkanlarını səfərbər etmişdi. Düşmən bu müddətdə bir dəfə də olsun, uğurlu əməliyyat apara bilmədi".**



Bunu Adalet.az-a Milli Məclisin deputatı Könül Nurullayeva deyib. Deputat bildirib ki, bütün beynəlxalq hərbi ekspertlər Azərbaycan Ordusunun yüksək səviyyəli, mütəşəkkil komandanlığını nümunə kimi gəstərdi: "Düşmənin hədəflərini sərrast dəqiqliklə məhv edən ordunun əsl gücü döyüş meydanında bəlli oldu. Hərbçilərimizin peşəkarlığı, yükəsk səviyyəli vətənpərvərlik hissi ilə yanaşı, cəmiyyətin ordunun yanında olması Silahlı Qüvvələrimizə əlavə güc verirdi. Biz hələ ötən ilin yayında-Tovuz döyüşləri zamanı cəmiyyətin Ordumuza dəstəyinin şahidi olduq. Cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq, hər kəs Azərbaycan əsgərinin yanında idi, hər kəs ordumuzun ətrafında sıx birləşmişdi. Biz həm də əzmkarlığımızla düşmənə qalib gəldik.

Orduda təşkilatlanma, xalq-ordu birliyi postmüharibə dövründə də davam edir. Azərbaycan öz sərhədlərində daha da möhkəmlənir, ərazilərimizin təhlükəsizliyinin təmin olunması istiqamətində kompleks tədbirlər həyata keçirilir. Yeni mərhələdə də təbii ki, həm ordumuzun, həm də cəmiyyətin qarşısında yeni vəzifələr durur.

İndi proseslərə daha həssas yanaşmalı, xüsusi ilə informasiya cəbhəsində müharibə dövründə olduğu kimi eyni həssasiyyəti qoruyub saxlamalıyıq". Deputat fikirlərinin davamı alaraq bildirib ki, "son günlər bəzi kütləvi informasiya vasitələri və sosial şəbəkələrdə Azərbaycan Ordusunda ştat dəyişikliyi, şəxsi heyətin rotasiyası, kadr islahatları və Orduya aid digər məlumatların təhrif olunmuş şəkildə yayılması azuolunan hal deyil. Müdafiə Nazirliyinin sonuncu bəyanatında da qeyd olunduğu kimi, şəxsi heyətin, xüsusilə yuxarı çinli zabit heyətinin vəzifə yerdəyişməsi kimi məlumatlar xidməti xarakter daşıyır və hərbi-dövlət sirri sayıla bilər. Qalib Ordu haqda bu cür məlumatların yayılması və bu istiqamətdə müzakirələrin təşkil olunması yolverilməzdir. Sosial şəbəkələrdə və ya mediada rəsmi mənbələrlə dəqiqləşdirilmədən yayılan informasiyalardan ölkəmizə qarşı təhlükəli məqsədlər üçün istifadə olunduğunun dəfələrlə şahidi olmuşuq. Burada artıq hərbçilərimizin həyati təhlükəsizliyi məsələsi ortaya çıxır. Azərbaycan mediası Ermənistan xüsusi xidmət orqanlarının dezinformasiya siyasəti üçün mənbə olmamalıdır.

Vətəndaş məsuliyyəti burada əsas şərtdir. Biz müharibə dövründə olduğu kimi, postmüharibə dövründə də ordumuzun yanında olmalı, KİV-lərdə və ya sosial şəbəkələrdə məsuliyyətsiz informasiyaların yayılmasına mane olmalıyıq".

# *Ağaclar quruyur*



*Bir neçə gün bundan əvvəl televizorda bir süjetə baxdım. Orda Bakının rayonlarının birində eldar şamının qurumasını göstərirdilər. Çox qəribədir ki, başqa ağaclara bir şey olmasa da, orda bir neçə ağac qurumuşdu. Mütəxəssis də bildirirdi ki, onun qurumasına səbəb xəstəliklə bağlıdır. Amma bu məsələyə heç də birmənalı yanaşmaq olmur. Necə olur ki, həmin ağaclar isti iyul, avqust aylarında xəstəliyə tutulur. Görünür elə bu ağacların xəstəliyə tutulmasının əsas səbəbi vaxtlı-vaxtında onların suvarılmamasıdır. 15-20 ilin ağacları qurumur, amma 3-4 ilin ağacları quruyur.*

*Ürək ağrısı ilə deməliyik ki, Bakıda isti yay günlərində əksər ağaclara su verilmir. Yəni onlar Allahın ümidinə qalır. Yağış yağsa, payıza qədər birtəhər dözür, yağış yağmasa o ağaclar quruyur, sıradan çıxırlar. Biz belə bir təşəbbüs irəli sürdük: hansı yaşayış sahəsində ağaclar varsa, onlara su verilmirsə, o sakinlər öz gücü hesabına o ağacları suvarsınlar. Məsələn, biz Yeni Günəşli yaşayış sahəsinin "D" massivində 13 nömrəli binanın qarşısındakı ağacları isti yay günlərində özümüz suvarırıq. Bir həftə onlara su verməsək, ağaclar o dəqiqə solur və quruyur. Bax, onda görün isti yay günlərində 3 ay bu ağaclara su verməyəndə, onlar nə hala düşəcək. Ağacların qurumasını istəmiriksə, onları mütləq vaxtlı-vaxtında suvarmalıyıq.*

# *Meşələr yanır*



*Hər gün tez-tez eşidirik ki, bəs, filan yerdə meşə yanğınları baş verir. Amerikada, Rusiyada və qardaş Türkiyədə yanğınların qarşısını almaq çox çətindir. Hətta bir çox ölkələrdən və eləcə də respublikamızdan meşə yanğınlarının söndürülməsi üçün kömək məqsədi ilə yanğınsöndürənlər Türkiyəyə göndərilib. Təbii ki, böyük yanğın ocaqlarının əksəriyyəti müasir texnikanın gücü ilə söndürülüb, amma hələ də yanğınların qarşısını tam almaq mümkün deyil. Hidrometroloqlar bildirir ki, şənbə günü Antaliyada və digər yerlərdə güclü leysan gözlənilir. Və insanlar bu güclü leysana da çox böyük ümid bəsləyirlər.*

*Artıq bizim məmləkətimizdə də meşə yanğınları başlayıb. Yardımlıda, Lənkəranda və digər bölgələrdə yanğınlar tüğyan eləyir. Bəs bu yanğınlar nədən yaranır? Bəlkə elə meşələr özbaşına yanır. Xeyr, meşələrin yanmasında günahkar biz insanlarıq. Biri siqaret çəkib kötüyünü söndürmədən qurumuş otların arasına atır, biri meşədə istirahət edib, yandırdığı ocağı söndürmədən gedir, biri də avtomobildə hərəkət edərkən bir qığılcım hansısa quru sahəyə düşür və yanğın yaranır.*

*Bütün bunlar onu göstərir ki, baş verən yanğınların böyük əksəriyyəti insanların səhlənkarlığından yaranır. Axı bu meşə, bu ağaclar, bu gözəl məkanlar insanlara nə pislik edib ki, biz onu yaman günə qoyuruq?! Meşə yanırsa, yaşıllıq olmayacaq, yaşıllıq olmayacaqsa, havamız çatışmayacaq və nəticədə biz insanlar min bir xəstəliyə düçar olacağıq. Gəlin, hamılıqla meşələrimizi, təbiətimizi, gözəlliklərimizi qoruyaq!*

***Emil FAİQOĞLU***

# *Alqayıt Vəliyev: Məni şərə salıblar...*

**Rusiyanın Çelyabinsk şəhərinii kassasiya məhkəməsində şəhər Cümə Məscidinin imamının müavini Rinat Yaminevin işinə baxılır. O, "Vkontakte" sosial şəbəkəsindəki paylaşımlarında milli və dini zəminldə nifrət yaratmaq cəhdlərində suçlanır. Yaminev Azərbaycan Prezidenti İlham Əliyevin Qarabağda ermənilərin donuz saxladıqları, viran qoyduqları məscidin önündə çəkilən videosunu paylaşıb.**

Rəsçi sənədlərə görə, ötən ilin dekabrında 45 yaşlı azərbaycanlı Alqayıt Vəliyev bu postları görüb, əsəbləşib, qəzəblənib və Rusiya Federal Təhlükəsizlik Xidmətinin Çelyabinsk şəhər idarəsinə şikayət ərizəsi yazaraq Rinat Yaminev "millətlərarası nifaq yaratmaq"da suçlayıb.



Alqayıtın şikayətnaməsində deyilir: "Bu informasiyalar mənim dini hisslərimə toxundu və məscidi bu günə salan ermənilərə qarşı mənfi emosiyalar yaratdı. Halbuki məntiqli insan kimi anlayıram ki, Ermənistanın adi vətəndaşları buna görə məsuliyyət daşımırar. Ermənilərin əksəriyyəti xristian olduğundan məscidonlar üçün adi tikilidir. Bu səbəbdən də onlar müsəlmanların dini hisslərinə toxunduqlarını düşünmədən məsciddə nə istəsələr yerləşdirə bilərdilər".

Sözü gedən məsələ ilə bağlı "Adalet.az"-a danışan Alqayıt Vəliyev bu barədə məlumatsız olduğunu, kimlərinsə onu şərə saldığını dedi:

"Qardaş, heç bilmirəm mənim adım ora necə düşüb. Mən ümumiyyətlə dekabr ayında "Covid 19"-a yoluxmuşdum və müalicə alırdım. Bu barədə mənə dostlarım xəbər verəndən sonra Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Çelyabinsk şəhər idarəsinə müraciət edib rəsmi izahat tələb etmişəm."

Özünün vaxtilə 1-ci Qarabağ Müharibəsinin iştirakçısı olduğunu deyən A.Vəliyev 4 il Murovdağda döyüşüb:

"Mən Azərbaycanı, Vətənimi sevirəm, onun uğrunda döyüşmüşəm. Yaralanmışam da. Bu məsələ barədə Yaminev mənə dekabr ayında zəng edəndə xəctəxanada idim. Dedi ki. guya mənim şikayətimə görə onu işdən çıxarıblar. Mənə bir milyon rubl verməlisən. Mən də dedim ki, heç nədən xəbərim yoxdur. Sən də kassasiya şikayəti ver, gəlim şahid kimi izahat verim ki, heç nədən xəbərim yoxdur. Razılaşdıq. Amma ondan bir xəbər çıxmadı. Bir neçə gün bundan əvvəl bu xəbər yenə meydana çıxanda da getdim FTX-ya rəsmi izahat istədim. Bu gün mənə cavabını verəcəklər. Mən Yaminevin məhkəmə hökmünə də baxmışam. Axı orda mənim adım yoxdur"

A.Vəliyev onu da vurğuladı ki, bu məsələ ortalığa çıxandan Azərbaycanın Rusiyadakı səfirliyinə, Ufa şəhərində fəaliyyət göstərən Azərbaycan - Başqırdıstan Dostluq Evinin rəhbəri Rəna xanıma da məlumat vermişəm. Məni kimin şərlədiyini əslində bilirəm. O da azərbaycanlıdır, əsl həqiqəti dəqiqləşdirəndən sonra onun kimliyini açıqlayacağam".

**Alqayıt Vəliyev saytımız vasitəsilə ismarıc da yolladı:**

**"Neçə gündür Azərbaycanın mətbuat orqanarı mənim adımı bu işdə hallandırırlar. Əslində bu xəbər meydana çıxanda Azərbaycanda idim. Məhz bu işə görə Çelyabinskə qayıtdım. Nə qədər həmin saytlara mənim bu məsələdən xəbərimin olmadığını desəm də, yenə də öz bildiklərini edirlər. Hamısını da yığıb saxlamışam. Heç əziyyət çəkib həmin xəbərləri pozmasınlar. Mən FTX-dan rəsmi təkzib məktubunu alandan sonra bir-bir həmin KİV-i məhkəməyə verəcəyəm."**

**İltifat HACIXANOĞLU**

# "Bir damla göz yaşı"

**Bir neçə il öncə onunla qiyabi tanış oldum. Daha doğrusu, həftənin şənbə günü idi. Adətən "Ədalət" qəzeti beş günlük iş rejimində çalışır. Sadəcə mən şənbə günləri redaksiyaya gəlib, özəl yaradıcılığımla məşğul oluram. Həm mühit sakit və rahat olur, həm də əlimin altında istədiyim dəftər, kitabı tapa bildiyimdən uzun illərdir ki, şənbə-bazarı da iş otağında keçirirəm. Bax, həmin günlərin birində iş telefonuma zəng gəldi. Dəstəyi qaldırdım və tanımadığım, amma adamın diqqətini özünə çəkən bir oğlanın səsi dəstəyin o biri başından "salam" dedi. Təbii ki, Allahın salamını qəbul etmək hamının borcudur və mən də eyni səmimiyyətlə ona cavab verdim. Kimi istədiyini soruşdum. Zəng edən oğlan birbaşa mətləbə keçdi:**

- Bura "Ədalət" qəzetidi? Mənə Əbülfət Mədətoğlu lazımdır.
- Eşidirəm, buyurun.
- Mən sizə türmədən zəng vururam. Barənizdə eşitmişəm, qəzetinizi də burada oxuyuruq. Sizdən bir xahişim var. Qardaşım sizin yanınıza mənim əlyazmalarımı gətirəcək. Ona baxın.

Təbii ki, bu zəng və onun sahibinin taleyi dərhal məni öz aurasına aldı. Fikirləşmədən dedim ki, həftənin birinci günü gətirsin əlyazmalarını. Beləcə sağollaşdıq.




Deyilən zamanda əlyazmalar stolumun üstündə idi.

Arıq, cüssəli, amma dili-diavər qardaşı ilə söhbətləşdik. Onun nədən cəza çəkdiyini öyrəndim. Bu da bir təsirli fakt idi. Bir gəncin həyat hekayəsi məni həmin əlyazmasını qısa müddətdə oxuyub gözdən keçirməyə bütün mənalarda məcbur etdi.

Bir həftədən sonra əlyazmasını gətirib apardılar. Qardaşı mənə göstərdiyim xidmətə görə "xərcimiz nə qədər olacaq, müəllim?" - dedi. Sənin də, mənim də xərcim Kamilin tezliklə ailəsinə qovuşmasıdı. Allah qapısını açsın, dedim.

Bir neçə aydan sonra həmin kitab işıq üzü gördü və Kamil o kitabla birlikdə mənə özünün əl işi olan bir nərd taxta da göndərdi. Çox gözəl şəkildə işlənmiş nərd taxtanın içərisində avtoqraf da vardı... "Əbülfət Mədətoğluna Kamil Fərəcdən dost hədiyyəsi".

İndi həmin kitabı təkrar gözdən keçirirəm və misalların arasından Kamilin boy göstərən sevgisini, sədaqətini, dürüstlüyünü, paklığını, mərhəmətini bir udum hava kimi, bir içim su kimi ruhuma köçürürəm, hopdururam. Yeri gəlmişkən, xatırladım ki, "Qanun" nəşriyyatında ötən ilin payızında işıq üzü görmüş bu kitab gənc şairin oxucuları ilə ilk baş-başa təmasıdı. Onun şeirlərini oxuduqca elə düşünməyin ki, böyük iddialar şairi ilə qarşılaşacaqsız. Yox, bu misralarda sadəcə həyat gerçəklikləri, gənc bir oğlanın yaşamı, dünyaya baxışı, münasibəti özəl bir formada ifadə olunubdur. Məsələn, onun "Yuxu" şeirində belə bir məqam var.

*Baxırdım gözünə məzlumcasına,*
*Sanki o baxışlar nəsə deyirdi.*
*Bu gecə röyada süslü gözlərin,*
*Dustaq aşiqini seyr eləyirdi.*

*Süzürdüm mən də o baxışları,*
*Sinəmdə ürəyim gizildəyirdi.*
*Aşmaqla tikanlı sədləri əlim,*
*Sənə toxunmağı çox istəyirdim.*

Zənnimcə burdakı yaşam, burdakı təsvir bir cavan oğlanın həbsxana divarları arasında yaşadıqlarını nakam sevgisinin bütövlüyündən bir cizgidir. Onu, yəni o naxışı duymamaq, görməmək mümkünsüzdü. Və yaxud Kamil Fərəcin "Zindan" şeirinə diqqət yetirək.

*Hayana baxırsan, hasar görürsən,*
*Çarəsiz-çarəsiz bəxtə gülürsən.*
*Cismən yaşasan da, ruhən ölürsən,*
*Arzular, ümidlər məhbəsi zindan.*

*Və yaxud "Peşmanam" şeirinə üz tutaq.*

*İndi mən çox peşmanam,*
*İndi gözüm gülməyir.*
*Çəkdiyim ağrı-acı,*
*Bir an belə dinməyir.*

*Uzun sürür gecələr,*
*Səhərlər açılmayır.*
*Günəş doğaraq məni,*
*Qəm əlindən almayır.*

Ümumiyyətlə, həbsxana həyatının bütün yaşantılarını Kamil Fərəc şeirində özünü tapması, təbii olduğu qədər də müəllifin duyğusallığı, sözün vurğunluğu da diqqətçəkəndir. Onun şeirləri göstərir ki, canında, qanında olan istedad ətrafına biganə deyil. Ona görə qarşılaşdığı, gördüyü, eşitdiyi nə varsa, onun ürəyində, ruhunda əks-səda verir. Bu da sonda misralara, şeirə çevrilir. Düşünürəm ki, yaşadıqları onun yeni həyatında dünyabaxışının formalaşmasına və fərqli bir poetik nümunələr yaratmasına kömək edəcəkdir. Bax, bu arzu, istək ilə də gənc şair Kamil Fərəcə hər zaman yolun açıq olsun, deyirəm.

**Əbülfət MƏDƏTOĞLU**

# "Atamın xatirələri"

**May ayının əvvəllərində "Qarabağa aparan yol" qəzetinin əməkdaşı, dəyərli həmkarım Fariz Çobanoğlu mənə içərisinə avtoqraf yazılmış kitab bağışladı. Daha doğrusu, kitabı təqdim edəndə bildirdi ki, bunu qardaşım sizin üçün göndərib. Vaxtınız, imkanınız olanda bir diqqət yetirərsiniz...**

Təbii ki, təşəkkürümü bildirdim və kitabı elə onun yanındaca açıb böyük sayqı ilə yazılmış avtoqrafı oxuyub təkrar Fariz bəydən xahiş etdim ki, mənim təşəkkürümü qardaşına çatdırsın və elə həmin gün də masanın üstündə, gözümün önündə olan kitabı aradabir vərəqləməyə, ayrı-ayrı bölmələrini mütaliə etməyə vaxt ayırdım. Açığını deyim ki, bu kitab mənə böyük oxucu kütləsindən daha çox bir nəsil üçün, bir el-oba üçün qələmə alınmış xatirə toplusu təsiri bağışladı. Elə kitabın anatasiyasında da qeyd olunub ki, buradakı hekayələr Qarabağın, Zəngəzurun, Dərələyəzin yaylaqlarında, qışda isə Mildə, Muğanda yaşamış bir ömrün sevgi, qayğı, sevinc dolu anlarının yazıya köçürülmüş formasıdı. Yəni, kitabı oxucu önünə çıxaran Əli Zalov atası ilə bağlı eşitdiklərini, bildiklərini və təbii ki, yaddaşına yazdıqlarını qələmə alıbdır. Bu xatirə xarakterli hekayələri oxuduqca Əli Zalovun atası Zal Əziz oğlu ilə bağlı düşüncələrini səmimiyyətinə, yaşam gerçəkliyinə iynə ucu boyda da olsa şübhə yeri qalmır. Hətta kitabın ilk səhifəsindəki Sədi Şirazidən gətirilmiş ixtibasın özündə də bu dediklərim təsdiqi tapır. Sədi Şirazi vurğulayıb ki, mərdlik qolun gücü və qılıncla ölçülmür. Mərd adam ədalətli və öz hislərinə hakim olmağı bacarandır. Zənnimcə, bu fikirlər həyatın hər üzünü görüb, yaşayıb və haqq dünyasına köçəndə də əməlləri ilə yaşayan ağır taxtalı, dizi bərk insanların ən böyük qazancıdır. Çünki onların adı rəhmət sözü ilə yanaşı dayanır. Bax, bu mənada kitabın məsləhətçisi Əlibala Zal oğlunun kitaba yazdığı ön söz əvəzi fikirlərində bir həqiqət də öz təsdiqi tapmışdır. Məsləhətçi vurğulamışdı ki, "Zal Əziz oğlunun




əməyi hədərə getməyib. Halal zəhmətlə özünün dediyi kimi yağışa, qara sinə gərərək, gecələr vətən daşlarının başının altına yastıq edərək böyütdüyü doqquz övladın altısı ali təhsil alıb". Valideyn üçün bundan böyük missiya, bundan uğurlu nəticə ola bilməz. Çünki həmin təsirli övladlar bu millətin, bu torpağın ağrıyan yarasını da, gül açan çəmənini də daha fərqli bir sevgi ilə, sayqı ilə dəyərləndirir və şərəfləndirirlər. Deməli, Zal Əziz oğlu Azərbaycana bir valideyn olaraq, bir vətəndaş olaraq qiymətini hədiyyə olan təsirli övladlar bəxş edib.

Hekayələrin birində ata-oğlu dialoqu xüsusilə mənə arxada qalan illərimi xatırlatdı. Həmin dialoqu sizə təqdim edirəm.

"Atam bir dəfə mənim ağladığımı gördü.

*- Əli, oğlum neçə yaşın var? - dedi.*

*- 42 yaşım var - astadan dedim.*

*- Mən atamı itirəndə heç 8 yaşım yox idi. Ürəkli ol, özünü kişi kimi apar. Yas məclisini yaxşı təşkil edin. Məni hündür bir yerdə dəfn edin, qətiyyən kədərlənib ağlamayın".*

Bu bir ata-oğul söhbətindən daha çox dünyanın namərdliyini yaxşı bilən, ömrün faniliyini qəbul edən, amma bu faniliyin, bu namərdliyin qarşısına üzüağ çıxan bir atanın oğluna həm məsləhətidi, həm vəsiyyəti. Ona görə də qaçqınçılığın əziyyətini çəkib, elindən-obasından uzaqda torpağa tapşırılan Zal Əziz oğlu öncədən oğluna nəyi necə etməyi, necə ayaqda durmağı həm qətiyyətlə, həm də düşündürücü, inandırıcı bir şəkildə söyləyib. Bu deyilənləri qəbul etməmək, ona tabe olmamaq, yəni bu istəkdən yayınmaq ən böyük yanlışlıq olar. Elə Əli Zalov da bu yalnışlığa gedən yolu birdəfəlik yaddaşından silib, ata nəsihətini önə çəkib.

Ümumiyyətlə, kitabı oxuduqca bir insanın düşüncələrini hüdudsuzluğuna, həyat sevərliyinə daxilən vurulursan. Adi bir kənd adamının, sıravi bir əliqabarlı bir insanın müdrikliyinə heyrət edirsən. Düşünürsən ki, xalq ona görə hər kəslə vuruşmağa, döyüşməyə sona qədər hazır olur ki, onun zəkası aydındı, yolu məlumdu. Əqidəsi dəyişməzdi və bir də bu xalq soyuna, kökünə, torpağına son dərəcə qırılmaz tellərlə bağlıdı.

**Bəli, mən Cəbrayıl rayonunda doğulub dünyaya gəlmiş, son mənzili Lökbatanda olan Zal Əziz oğlu ilə bağlı oğlu Əli Zalovun yazdığı "Atamın xatirələri" kitabını hər kəsin oxumasını tövsiyə edərdim. Çünki bu kitab bir ailənin timsalında bütün ailələr barəsində hekayələr toplusudu. O ki, qaldı müəllifin Cəbrayıl rayonunun Xəlifəli kəndinə doğma yurduna olan sevgisinin ifadəsinə... şükürlər olsun ki, artıq o yerlərin həsrəti sona çatıb. 44 günlük Böyük Vətən Müharibəmiz bizi Cəbrayıla, Diridağa qovuşdurub. Və düşünürəm ki, bundan sonra Əli Zalov atasının ruhu ilə etdiyi söhbətləri zamanı gələndə öz nəvələrinə yurda dönüşün işığında danışacaqdır.**

**Əbülfət MƏDƏTOĞLU**



*Elşad ÇOBANLI*
*"Odlar Yurdu" Universitetinin müəllimi*

# CƏSURLUĞUN RAHİB MƏMMƏDOV NÜMUNƏSİ

**Dostluq - insanlar arasındakı qarşılıqlı sevgi münasibəti, şəxsiyyətlərarası bağ forması və ünsiyyətdir. Dostluq dedikdə həm də xeyirxahlıq, fəzilət, rəğbət, şəfqət, dürüstlük, fədakarlıq, sədaqət, səxavət, bağışlama, qarşılıqlı anlaşma və şəfqət, bir-birinin yanında olmaq və güvən kimi insani keyfiyyətlər başa düşülür. Dostluq təkcə fərdlər arasında deyil, həm də xalqlar arasında olur. Təbii ki, xalqlar arasındakı dostluğu yaradan da ayrı-ayrı fərdlər - xalqın tarixində mühüm rol oynayan şəxsiyyətlərdir. İnsanlar arasında şəxsi maraqlara söykənən dostluğun ömrü qısa olduğu kimi, xalqlar arasında da süni dostluğun ömrü uzun olmur, daha doğrusu, belə dostluq ənənəyə söykənmirsə, tarixi kökü yoxdursa, yaşaya bilməz. Rusiya imperiyasının xalqlar dostluğu adı altında yaratdığı SSRİ-nin ömrünün cəmi 70 il sürməsi də bunun sübutudur.**

Bəli, xalqlar arasındakı dostluğu şərtləndirən çox cəhətlər var. Hətta qonşu olmaq da hələ dost olmaq demək deyil. Biz bunu Ermənistanın timsalında həm tarixi təcrübədən, həm də ki, bu ölkənin son 30 ildəki davranışından yaxşı bilirik. Gürcüstandan söz düşəndə isə, biz könül rahatlığı ilə dost və qonşu dövlətlərik deyə bilirik. Doğrudur, ötən əsrin sonlarında müəyyən qüvvələrin əliylə Gürcüstanda yaşayan azərbaycanlılara qarşı ayrı-seçkilik siyasəti yeritməklə bu iki xalq, eyni zamanda iki qonşu dövlət arasında nifaq salmağa cəhdlər olub. Belə cəhdlər sonralar da olsa da, hər dəfəsində də uğursuzluğa uğrayıb - hər iki xalqın müdrikliyi, tarixi dostluq təcrübəsi qalib gəlib.

Xalqlar arasında dostluğun yaranmasında və getdikcə möhkəmləndirilməsində, yuxarıda da qeyd etdiyimiz kimi, ayrı-ayrı fərdlərin böyük rolu olub həmişə. Azərbaycanla Gürcüstan, azərbaycanlılarla gürcülər arasındakı dostluğa töhfə verənlərdən biri də Rahib Məmmədovdur. Ola bilsin bu gün istər Azərbaycanda, istərsə də Gürcüstanda gənclərin çoxusu Rahib haqqında məlumatsızdır, bilmirlər ki, o, bu iki xalqın dostluğuna öz canı bahasına yeni çalar, yeni rəng qatıb. Amma həm Azərbaycanda, həm də Gürcüstanda yaşlı və orta nəslin nümayəndələri bu gün də onu minnətdarlıqla xatırlayır, ruhunu ehtiramla yad edirlər.

Rahib Məmmədov 1967-ci il avqustun 25-də Ağdam rayonunun Mahrızlı kəndində anadan olub. 1984-cu ildə Mahrızlı kənd orta məktəbini bitirdikdən sonra, Ağdam şəhərində yerləşən Kənd Təsərrüfatının Elektrikləşdirilməsi və Mexanikləşdirilməsi texnikumuna daxil olub. Burada bir il oxuduqdan sonra - 1985-ci ilin noyabr ayında həqiqi hərbi xidmətə çağırılıb. Xidmətini Gürcustan SSR-də, Batumi şəhəri yaxınlığındakı Xelvaçauri qəsəbəsində yerləşən hərbi hissədə keçib. 1987-ci ildə onun hərbi xidmət keçdiyi vaxt Gürcüstanın Xobi rayonunun Çaladidi kəndində təbii fəlakət baş verib və 20 yaşlı Rahib Məmmədov böyük fədakarlıq və qəhrəmanlıq göstərərək, 28 nəfər kənd sakinini seldən xilas edib, özü isə qəhrəmanlıqla həlak olub. Rahibin bu qəhrəmanlığından o zaman təkcə Gürcüstanda yox, bütün keçmiş SSRİ məkanında danışılır, mətbuatda yazılırdı.



Ölümündən sonra o, SSRİ Ali Soveti Rəyasət Heyətinin 22 iyul 1987-ci il tarixli fərmanı ilə ö ittifaqın ən yüksək mükafatlarından sayılan "Qırmızı Ulduz" ordeni ilə təltif edilib.

R.Məmmədovun bu şücaəti Azərbaycan və Gürcüstan xalqları arasında dostluq münasibətlərinin timsalına çevrilib, hər yerdə xatirəsi əziz tutulub. Hətta bu cəsur azərbaycanlının adını yaşatmaq üçün fəlakətin baş verdiyi gün kənddə doğulmuş bir oğlan uşağına da Rahib adı qoyulub. Çaladidi kəndində onun abidəsi ucaldılıb. 2012-ci ildə həmin abidə Azərbaycan Dövlət Neft Şirkətinin (ARDNŞ) Gürcüstandakı aktivi olan Kulevi Qara dəniz neft terminalının maliyyə dəstəyi ilə təmir edilib və üzərində ingilis və gürcü dillərində bu sözlər yazılıb: "1987-ci ildə baş vermiş sel daşqınları zamanı onlarla insanı həyatı bahasına xilas etmiş azərbaycanlı əsgər Rahib Məmmədovun işıqlı xatirəsinə minnətdarlıq duyğusu ilə".

1997-ci ildə Rahib Məmmədovun xatirəsinə Gürcüstanın Qardabani rayonunda beynəlxalq boks turniri keçirilib.

Rahib Məmmədovun xatirəsi Azərbaycanda da əbədiləşdirilib, oxuduğu məktəbdə xatirə muzeyi yaradılıb. Bakının Xətai rayonunun Əhmədli yaşayış massivindəki küçələrdən birinə onun adı verilib.

Azərbaycan və gürcü xalqları arasındakı dostluğu əks etdirən çoxlu belə nümunələr gətirmək olar. Ancaq Rahib Məmmədovun çox da uzaq olmayan keçmişdə Gürcüstan torpağında göstərdiyi qəhrəmanlığı xatırlatmaqda məqsədimiz odur ki, dostluğu tarixin dərin qatlarına söykənən iki qonşu xalqın taleyində mühüm rol oynamış belə oğullarımız unudulmasın.

**Bu gün respublikamızda gənclərlə bağlı kifayət qədər qeyri-hökümət təşkilatları var. Yaxşı olar ki, iki qonşu xalq arasında dostluğun inkişafına mühüm töhfələr vermiş Rahib Məmmədov kimi igidlərimizlə bağlı müntəzəm olaraq tədbirlər həyata keçirilsin ki, gənclər onları daha yaxından tanısınlar. Gürcüstandakı gənclər təşkilatları ilə qarşılıqlı əlaqə saxlayıb, belə tədbirlərin eyni zamanda Gürcüstanda da keçirilməsi isə azərbaycanlı və gürcü gənclər arasında dostluq əlaqələrinin genişlənməsində böyük rol oynaya bilər.**

# Asta sür maşını, amandı sürücü!

**İsti havalar təkcə yanğına və ağacların qurumasına səbəb olmur. Həm də isti havalar bir çox sürücülərin sükan arxasında yatmasına və yuxulamasına gətirib çıxarır. Xüsusən də kondisioner sistemi olmayan avtomobillərdə isti havalarda mənzil başına getmək daha çətindir. Ən azından ona görə ki, bu cür nəqliyyat vasitələrində sürücü bir anlıq olsa da mürgüləyir və nəticədə yol-nəqliyyat hadisəsi qaçılmaz olur.**

Elə sürücülər də var ki, sutkanın 16-18 saatını sükan arxasında keçirir. Ələlxüsus da, avtobusları idarə edənlər və eləcə də, müxtəlif markalı yük maşınlarında tikinti materialı daşıyanlar. Bax, bu cür sürücülər havanın müsbət 40 dərəcədən yuxarı olduğu günlərdə daha diqqətli olmalı, özlərinin həyatını təhlükəyə atmamalıdılar.

Heç olmasa, 100-150 km hərəkət edəndən sonra avtomobili yolun kənarında



saxlayıb, dincəlməli, yol polisinin stasionar postlarında əl-üzlərini soyuq su ilə yumalıdılar. Bir balaca ehtiyatsızlıq və diqqətsizlik isə onları uçuruma apara bilər. Ona görə də bu isti yay günlərində hər bir sürücü diqqətli olmalı, özünün və başqasının taleyini düşünməlidir. Ki, qəzalar baş verməsin.

**Emil FAİQOĞLU**

# Şoyqu: "Bu halda Rusiya hərbi bazaları aktivləşdiriləcək"

**Əfqanıstandan birbaşa hücum olarsa, Rusiyanın Tacikistan və Qırğızıstandakı hərbi bazaları aktivləşdiriləcək. Ümid edirik ki, Talibanla mövcud razılaşmalar yerinə yetiriləcək. Ancaq keçmiş təcrübəyə əsasən buna inanmaq çətindir. Bu məqamda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) üzvlərimizə bacardığımız qədər**



**dəstək olmalı və kömək etməliyik.**

Bunu Rusiyanın müdafiə naziri Sergey Şoyqu bəyan edib. "Tacikistandakı bazamız kifayət qədər güclüdür və əlbəttə ki, birbaşa hücum olduğu təqdirdə KTMT sərhədlərini qorumaq üçün aktivləşdiriləcək. Eyni şey Qırğızıstandakı bazamıza da aiddir. Belə bir ehtiyac ola bilər", - Şoyqu qeyd edib.

**MEHRİBAN**

## "Dünyaya 2 milyard doza peyvənd verəcəyik"



**Bu il Çin dünyaya yeni koronavirus infeksiyasına qarşı 2 milyard doza peyvəndi təqdim edəcək və Qlobal Peyvənd Giriş Proqramına 100 milyon dollar ayıracaq.**

**Bunu Çin Prezidenti Si Szinpin COVID-19 Peyvəndləri üzrə Beynəlxalq Əməkdaşlıq Forumunun ilk konfransında deyib. O bildirib ki, Çin inkişaf etməkdə olan ölkələrə COVID-19 pandemiyası ilə mübarizədə kömək edəcək: "COVAX tərəfindən ayrılan 100 milyon dollar, ilk növbədə, inkişaf etməkdə olan ölkələrə peyvəndin çatdırılmasını təmin edəcək. Ümid edirəm ki, bu forum dünyada peyvəndlərin mövcudluğunu və bərabər paylanmasını təmin etməyə, inkişaf etməkdə olan ölkələr arasında həmrəyliyi və əməkdaşlığı gücləndirməyə və pandemiya üzərində erkən qələbə qazanmağa kömək edəcək".**

**MEHRİBAN**

## QHT qanunvericiliyində dəyişikliklər müzakirə olunub

**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının növbəti iclası keçirilib.**

İclasda Agentliyin Müşahidə Şurasının iclasının reqlament sənədinin layihəsi və QHT qanunvericiliyində müvafiq dəyişikliklərlə bağlı təkliflər ətrafında müzakirələr aparılıb.

Agentliyin Müşahidə Şurasının iclasının reqlament layihəsi üzrə çıxış edən Müşahidə Şurası üzvləri sənəddə öz əksini tapan ümumi müddəalar, iclasın işinin təşkili qaydası, iclasında Müşahidə Şurası üzvlərinin hüquqları, vəzifələri və səlahiyyətləri, müvafiq sənədlərin hazırlanması, müzakirəsi, qəbulu, Muşahidə Şurasında sənədlərin ilkin və yekun müzakirəsi qaydaları, həmçinin bir sıra digər maddələr ətrafından fikir mübadiləsi apardılar. Müzakirələrin yekununda bütün təkliflər nəzərə alınmaqla sənədin yekun variantının hazırlanaraq növbəti iclasa təqdim edilməsi qərara alınıb.

**Daha sonra QHT qanunvericiliyində dəyişikliklərlə bağlı Muşahidə Şurası üzvlərinin hazırladıqları təkliflər ətrafında müzakirələr aparılıb. Səsləndirilən təkliflər arasında qrantlarla maliyyələşən layihələrin qeydiyyatının sadələşdirilməsi, QHT-lərin qeydiyyata alınması prosedurun təkmilləşdirilməsi və bununla bağlı digər sənədləşmələrin asanlaşdırılması yer alırdı. Müzakirələrin sonunda qərara alındı ki, qısa zamanda Agentlik adından bu istiqamətdə hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər ümumiləşdirilsin və müvafiq qurumlara təqdim edilsin.**

## Türkiyə ordusu terrorçuları məhv etdi



**Türkiyə ordusu İraqın şimalındakı Qara bölgəsində terrorçulara qarşı əməliyyat keçirib.**

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb. "Türkiyə ordusu "Sülh çeşməsi" əməliyyat bölgəsinə sızmağa cəhd göstərən 2 PKK-çını zərərsizləşdirib", - məlumatda bildirilir.

Qeyd olunub ki, terrorçular Hərbi Hava Qüvvələrinin əməliyyatı nəticəsində məhv edilib.

**MEHRİBAN**



*Səbuhi Vəliyevin yeni şeirləri Məzahir Əhmədoğlunun təqdimatında*

# Gecə görüş yerimizlə... Xəlvət görüşən ayrılıq

### *Dərməz bu gülü*

**Şellənir qış ağ atında,**
**Yazın hələ həniri yox.**
**Gül bitəcək daş altında,**
**Bir kimsənin xəbəri yox.**

**Gözdən uzaq bitən gülün,**
**Görən ömrü nə qədərdi?**
**Bitməsəydi mən nə bilim,**
**Dünya necə görünərdi?**

**Arılar da gördü gülü,**
**gördü təkdi,**
**Nə qondu, nə şirə çəkdi.**
**Kəpənəklər uçdu gendən,**
**Həmin gündən,**
**Arılar tək ürəyini,**
**Burda qoyub gedəcəkdi.**

**Hər yan gül-çiçək olsa da,**
**Tapanmazsan gəz, bu gülü.**
**Qucaqlardan dağılsa da,**
**Yerini verməz bu gülün.**

**Görənin də ağlı çaşar,**
**Yavaş-yavaş yaxınlaşar,**
**Daşa baxıb yazıqlaşar,**
**Əyilib dərməz bu gülü.**

**Öz halında, gümanında...**
**Bir ağrı qalar canında.**
**Gözü gəzər, son anında,**
**Yanında görməz bu gülü.**

### *Güldün gülə bildikcə*

**Xəyallarda uçan uçub,**
**Olan olub, keçən keçib.**
**Bulağından içən içib,**
**Gəl üzülmə bir yad üçün.**

**Yalnız quru söz göndərər,**
**Nədən şamı tez söndürər?**
**Di gəl ki, dünyanı verər,**
**Görmədiyi bu dad üçün.**

**Könül belə incikdisə,**
**Kiçilərsən kiçildikcə.**
**Güldün gülə bildikcə sən,**
**Bir dəlisov fəryad üçün.**

### *Seviləndən yiyəsi yox*

**Əli qalıb sinəsində,**
**Bir həzinlik var səsində.**
**Ayrılıb gedir əslində**
**Bir sözü, bəhanəsi yox.**

**Gözlərini döyə-döyə,**
**Ha desin ki, əvəzi yox.**
**Yanında mininə dəyən,**
**"Bir dənəsi", əzizi yox.**

**Beləymiş yazılan yazı,**
**Daha bunun niyəsi yox.**
**Atıb getdi zalım qızı,**
**Seviləndən yiyəsi yox.**

### *Sənin pəncərən*

**Qoy pəncərən açıq qalsın,**
**Ciyərinə çək havanı.**
**Təmiz bir gül toxumu tək,**
**Bədəninə ək, havanı.**

**Saçlarına dən düşəndə,**
**Xatirələr gen düşəndə,**
**Gözün nuru**
**Yadına hərdən düşəndə**
**Qucaqla bərk-bərk havanı.**

**Hər günün bir işgəncədir,**
**Günahkar o cavanla**
**Bu taybatay pəncərədir.**
**O gün-bu gün bu pəncərə qabağında,**
**Dilin gəlmir oxuyasan**
**O həzin, kövrək havanı.**

### *Ayrılıq*

**Ağacdan yarpaqlar düşər,**
**Quşlar cığırla deyişər,**
**Yadıma ayrılıq düşər,**
**Dağı üşüdən ayrılıq.**

**Olub keçənin hamısı,**
**Bizi sonra qınayası.**
**Mənimçün zindan qapısı,**
**Səninçün gülşən ayrılıq.**

**Kim sözünü yerə saldı?**
**Günahına görə saldı,**
**Bizi pərən-pərən saldı,**
**İndi eşidən ayrılıq.**

**Gec də olsa xoş bir sözlə,**
**Yoluna düşən ayrılıq.**
**Gecə görüş yerimizlə...**
**Xəlvət görüşən ayrılıq.**

### *Belə bir nağıl*

**Bu həyatdır.**
**Handa qırıq könül də,**
**Balaca kainatdır.**
**Günlərin bir günündə,**
**İtirdiyin şeylərin,**
**Biri üç ola bilər.**
**Ya da başqa birinin,**
**O sevgi gülüşləri,**
**İllərin görüşləri,**
**Bir ayrılıq anında,**
**Tamam heç ola bilər.**
**Bu həyatdır.**
**Gah doğma, gah da yaddır.**
**Gəlsə tale məqamı,**
**Düşünmə ki, aldadır-**
**Sabah gec ola bilər.**
**Bu həyatdır.**
**Göylərdən əmanətdir.**
**Neyləyəsən ki, bəzən**
**Ruhu göylərdə gəzən**
**Şairin yer üzünə**
**Enib qalmaq arzusu,**
**Olmayan məzarı tək**
**Bir gün puç ola bilər.**
**Yer çıxar mehvərindən**
**Şair sözündən, şerindən,**
**Dünyanın hər yerindən,**
**Harasa köç ola bilər.**

### *Nağılvari bir gecədə*

**Yerlər, göylər təzələnər,**
**Ay işığı gözə gələr.**
**Bəlalar da üzə gülər,**
**Nağılvari bir gecədə.**

**Cansız, qupquru bir ağac,**
**Gözlərimdə yaşıllaşar,**
**Tənha oğlanlarla qızlar,**
**Birdən-birə qoşalaşar**
**Nağılvari bir gecədə.**

**Bu özü də bir tamaşa,**
**Dəxli yoxdur kim nə görər, nə danışar**
**Yanımda sən ola-ola**
**Gözüm günaha bulaşar,**
**Nağılvari bir gecədə.**

**Budaqda çırpınan quş da,**
**Qanadından vurulmuş tək**
**Baxar, baxdıqca üşənər,**
**"Bizsiz qalacaq" - düşünər...**

**Dalğa ayağa döşənər**
**Nağılvari bir gecədə.**

**Dillənənməz, səssiz qalar,**
**Nə söz qalar, nə üz qalar.**
**Qoyub gedər kölgəsini,**
**Mənə də bu dəniz qalar,**
**Nağılvari bir gecədə.**

### *Bu qayığın...*

**Necə qəribdi bu qayıq,**
**O dayandı, zaman getdi.**
**Dəniz bir oyun oynadı,**
**Dəliqanlı cavan getdi.**

**Səma açıq, sular sakit,**
**Heç özü də bilmədi ki,**
**Bu dalğalar**
**Hardan gəldi, hara getdi.**

**Sanki dalıb xəyallara,**
**Ləpələrdə yırğalanır.**
**Qayığın halın görüncə,**
**Dənizin də bağrı yanır.**
**Ləpələrlə gecə-gündüz,**
**Bu oğlanın hekayəti nağıllanır.**

**Nə çalxalan, nə də tükən,**
**Nə çılğın bir ehtirasla**
**yu qayığı.**
**Özün dəniz günahında**
**çırpınırkən.**
**Günahını yuyanmazsan,**
**Bu qayığın, bu qayığın.**

### *Söz qalmamış*

**Baxışından, nəfəsindən,**
**Hikkəsindən iz qalmamış.**
**Günahların böyüdübdü gözlərimi,**
**Daha görüb günahını**
**Böyütməyə göz qalmamış.**

**Öz xəyanət addımından**
**Qalxan tozu uda-uda,**
**Ayrılığı dada-dada**
**Biləsən ki, bu dünyada,**
**Daha səni kiritməyə**
**söz qalmamış.**

**Unudub yar-yoldaşını,**
**Dünyanın yır-yığışını**
**Oxşadıqca öz uğursuz taleyinə,**
**Əllərinlə qoyduğun**
**başdaşını,**
**O əllərə tökəcəksən**
**qarğışını**

**...Niyə mənim başdaşımın**
**Üstü hələ yazılmamış?**

### *Yanıb kül olmağa nə var?*

**Hər işıq heç işıq deyil**
**Hər gül, gül olmaz dedilər .**
**Hər aşiq də aşiq deyil**
**Yanıb kül olmaz dedilər.**

**Öz yolunda, düz yolunda**
**Sevgisindən dəli olan,**
**Ölümünə razı olar**
**Amma qul olmaz dedilər.**

**Göyə açılıb əlləri.**
**İki ürəyin telləri**
**Yanıb, yanıb kül olsa da**
**Yenə qırılmaz dedilər.**

**Axşamüstü mavi gölə**
**Enməsəydilər qol-qola.**
**Həmin sahil ola-ola**
**Həmin göl olmaz dedilər.**

**Mənim yolum divar-divar,**
**Qalmadı sözüm, macalım.**
**Yanıb kül olmağa nə var?**
**Yanmadan kül olan canım.**

### *Gördüyü nə, bildiyi nə?*

**Keçib ömrünün yarısı**
**Ürəyində söz ağrısı, "döz" ağrısı.**
**Ovucundan içilən su**
**Ehsan olmadı, olmadı.**

**Gördüyü nə, bildiyi nə?**
**Ağladığı, güldüyü nə?**
**Yaşadığı öldüyündən**
**Asan olmadı, olmadı.**

**Pəncərəni bir ah döydü,**
**Axşam döydü, sabah döydü.**
**Deyəsən çox nahaq döydü,**
**Açan olmadı, olmadı.**

**Ömrünün yarısında**
**Vardımı onu çağıran?**
**İki əli arasında**
**Başı bir gündə ağaran**
**Qoca olmadı, olmadı.**

**Baxdı zirvədə qar gördü,**
**Çaşdı, əməlli-başlı çaşdı**
**Gözü dağlara sataşdı...**
**Hər sovrulan, gələn ili,**
**Sanki nağıl, oyun imiş.**
**Sən demə köndələn evi**
**Bu dağla qol-boyun imiş.**



# Rus ədəbiyyatının Böyük Pyotru və ya M.V.Lomonosov həm də istedadlı şair olmuşdur

**Mixail Vasilyeviç Lomonosov 1711-ci il noyabr ayının 19-da Arxangelsk vilayətinin Lomonosovo kəndində anadan olmuşdur. O,balıqçı ailəsində doğulmuşdur. Moskvada Slavyan-Yunan-latın Akademiyasına kəndli balaları qəbul edilmədiyi üçün M.V.Lomonosov özünü Xolmoqor drovyanının oğlu kimi qələmə verərək ora daxil olmuşdu. Daha sonra Peterburq EA nəzdindəki universitetdə, 1736-1741-ci illərdə Almaniyada təhsil almışdır. Qayıtdıqdan sonra 1745-ci ildə kimya professoru vəzifəsinə seçilmişdir. 1748-ci ildə M.V.Lomonosovun təkidi ilə Rusiyada ilk elmi-tədqiqat kimya laboratoriyası yaradılmışdır. 1748-ci ildən kimya ilə daha çox məşğul olmuş, 1753-cü ildən ömrünün sonunadək təbiyyət və tətbiqi elmlərin ən müxtəlif sahələrində çalışmışdır. 1755-ci ildə M.V.Lomonosovun layihəsi əsasında indi onun adına olan Moskva universiteti təşkil olunmuşdur. O, 1760-cı ildə İsveç, 1764-cü ildə Balonya EA- larının fəxri üzvi seçilmişdir.**



M.V.Lomonosovun optika sahəsindəki ən mühüm ixtiralardan biri qaranlıqda obyektləri aydın seçmək üçün düzəltdiyi xüsusi baxış borusu olmuşdur. O,Rusiyada ilk dəfə fotometrik üsulları inkişaf etdirmiş, viskozimetr və refraktometr kimi cihazlar ixtira etmişdir.

Ümumiyyətlə XVII əsrin ortalarında fəaliyyət göstərmiş dünya miqyaslı dahi alim, qabaqcıl ictimai xadim, ölkəsinin elmi, təhsili və mədəniyyəti üçün misilsiz xidmətləri olan parlaq istedadlardandır. Ensiklopedik zəka sahibinin elmi maraq dairəsi heyrətamiz geniş, sonsuz, dərin olmuşdur. Böyük rus şairi A.S.Puşkin onun haqqında demişdir: "Tarixçi, filosof, natiq, fizik, kimyaçı, astronom, biolog, geolog, coğrafiyaşünas, dilçi, mexanik,mineralog, rəssam və şair olan bu şəxs hər şeyə nüfuz edərək hər şeyi sınaqdan çıxarmışdır".

M.V.Lomonosov ədəbi-bədii yaradıcılıqda da novator idi. V.Q.Belinski yazmışdır: "M.V.Lomonosovla bizim ədəbiyyatımız başlanır, o rus ədəbiyyatının Böyük Pyotru idi ".

M.V. Lomonosovun şeir yaradıcılığı rus mədəniyyəti, şifahi xalq yaradıcılığı qaynaqları ilə bağlıdır.

Müasir rus poeziyasında da əsas yer tutan sillabik-tonik şeir sistemini nəzəri cəhətdən əsaslandırmış, onu öz poetik yaradıcılığında tətbiq etmişdir. A.S.Puşkin M.V. lomonosovun fəlsəfi odalarını yüksək qiymətləndirmişdir. I Pyotrun vəsfi M.V.Lomonosov poeziyasında xüsusi yer tutur. Onun "Böyük Protr" (1760), "Tamira və Səlim" (1750), "Demofont" (1752) faciələri vardır.

"Saqqal himni" (1757) satirası mürtəce ruhanilər əleyhinə yönəldilmişdir. Rus dilinin ilk əsl normativ qrammatikası olan "Rus qrammatikası" və s. filoloji əsərlərin müəllifidir.

M.V.Lomonosov rus terminologiyasının əsasını qoymuşdur. Onun ədəbi və elmi fəaliyyəti hələ XIX əsrin I yarısından qabaqcıl Azərbaycan ziyalılarının diqqətini cəlb etmiş, M.F.Axundov "Puşkinin ölümünə Şərq poeması"nda rus ədəbiyyatının böyük simalarının sırasında onun da adını çəkmişdir.

Sankt - peterburq vilayətində şəhər, Atlantik okeanında axın, Şimal Buzlu okeanında sualtı silsilə, Novaya Zemlya adasında dağ silsiləsi, Kuril adalarında vulkan, Şpitsbergen adalarında yüksəklik M.V.Lomonosovun şərəfinə adlandırılmışdır. Moskvada, Sankt-Peterburqda və Lomonosov şəhərində heykəli qoyulmuşdur.

**M.V.Lomonosov 1765-ci il aprel ayının 15-də dünyasını dəyişmiş, Sankt-Peterbur şəhərindəki Lazarevski qəbiristanlığında torpağa tapşırılmışdır.**

**Şixəmməd Seyidməmmədov,**
**ADPU-nun Quba filialının "Təbiət fənləri və onun tədrisi metodikası" kafedrasının baş müəllimi,**
**Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü**

# Ölümlə müsahibə



**Mən: Qapı bağlı idi. Hardan gəldin. Özü də çağrılmamış.**

**Ölüm:** Mən külək kimiyəm. Gözə görünmədiyim kimi, gəlməyimə də xüsusi yer lazım deyil. Və bir də, axı mənim nə vücudum, çəkim var ki ?! Bağlı qapılar məndən ötrü həmişə açıqdır. Mən kənardan gəlmirəm. Elə insan dünyaya gələndə, onunla bir doğuluram. Mənim heç yaşım da yoxdur, olmur da.Mən həmişə adamların başı üzərində oluram.

**Mən: Yaxşı də! Mənimlə fəlsəfədən danışma. Artıq gəlmisən, daha nə etmək olar. Qonağı qapıdan qovmazlar ki!**

**Ölüm:** Mən evə yox, dəqiq olaraq, sənin yanına, taleyinə hakim kəsilməyə gəlmişəm. Burada başa düşülməyən nə var ki! Ömür boyu şəstlə gəzdirdiyin vücudun, bu boy-buxun, hamısı mənim qismətimdir, mənimdir. Təkcə ruhundan başqa. O, mənlik deyil, mənim onunla işim yoxdur. Ruh da mənim təki gözəgörünməzdir. Siz insanlar da onu çox əzizləyir, müqəddəsləşdirir, əbədiləşdirirsiniz. Amma öz aramızdır, ruh da məndən çəkinir. Gözümə görünmək istəmir. Mən gələn kimi harasa yoxa çıxır...

**Mən:** Ölüm qardaş, gəl mətləbdən uzaqlaşmayaq. De görüm xeyirdirmi, gecənin bu vaxtı, zil qaranlıqda gəlmisən.

**Ölüm:** Qəribə, məntiqsiz suallar verirsən. Nəyə gəldiyimi də yaxşı bilirsən. Məndən ötrü bu elə xeyirdir. Adamları əzab-əziyyətdən, çətinliklərdən, birdəfəlik qurtarmaq. Yəni canını almaq. Mənə görə qaranlıq yoxdur. Mən qaranlıqda da görürəm. Bütün gecələr məndən ötrü aylı, işıqlıdır. Qarşımda da həmişə yaşıl işıq yanır. Gəlişimin məqsədi də səni aparmaqdır. O, boyda 65 illik yol gəlmişəm. Əliboş qayıtmayacam ki!

**Mən: İlahi, bu 65 il nə tez gəlib keçdi. Ömür bir göz qırpımı imiş. Vallah bəlkə də, bu cür daha məntiqlidir. Dünya min illərdir mövcuddur deyə, 60-70 il bizim üçün bir ana, bir göz qırpımına bənzəyir.**

**Ölüm:** Hazırlaş, yır-yığış et, gedək. Mənim gedəcək yerlərim çoxdur. İş başında vaxt itirə bilmərəm. İşim həddən artıq çoxdur.

**Mən: Hara tələsirsən,qaçaqaç deyil ha. Qoy üst-başımı düzəldim, səliqəyə salım. Gələn, görən olar.**

**Ölüm:** Qorxma! Məni görən olmur. Mən gözlə görünmürəm. Mən özüm isə hamını, hər şeyi görür, heç bir şeyi bir an belə gözümdən qaçırmıram. Üst-başının dərdini çəkmə. Mənə sənin ömrün, həyatın, aldığın nəfəs lazımdır.

**Mən: Yaxşı, sən deyən olsun. Razıyam. Başla görək, neyləyirsən...Yox, sən Allah, bir az aman ver. Qoy bir vəsiyyət edim. Adamlara bəzi tövsiyələrim var.**

**Ölüm:** Eh, sadəlövh insan. Səninki bir Allaha qalıb. Vəsiyyət nədi, onu yazmağa vaxtı hardan alım. Bəs sən bu altmış beş ildə harda idin?! Ömür boyu gördüyün işlər, əməllər elə vəsiyyətdir də. Səndən sonra, səni xatırlayanlar, ömür yoluna nəzər salıb, kimliyinə qiymət verəcəklər. Xeyirxah əməllər etmisənsə, adın hörmətlə çəkiləcək. Pis işlərə qulluq göstərmisənsə hamı səni söyəcək. Bəs eşitməmisən, yaxşı-insanlıq, pis-nadanlıq mənasın verir. Sən 65 ildə etdiklərini, gördüklərini bir kağız parçasına yazmaq istəyirsən. Bu doğru hal deyil. Qoy xudbinlik olmasın, mən hərdən düşünürəm ki, nə yaxşı ki mən varam. Ölüm adlı mən. Adamlar məndən qorxmasalar, ölüm barəsində düşünməsələr, Allah bilir nə qədər pisliklər edərdilər. Mən elə buna görə də heç kimə güzəştə gedə bilmərəm. Yaxşı,pis hamını aparmalıyam. Mən heç kimə fərq qoya bilmərəm. Mənim hamını eyni nizamla ölçən bir tərəzim var. Hamıya eyni gözlə baxıram mən. Məndən ötrü yaxşısı, pisi, vəzifəlisi,fəhləsi əhəmiyyət kəsb etmir. Hamı getməlidir. Bir gün dünyaya qədəm qoyan insan, bir gün də mütləq şəkildə onu tərk etməlidir. Dünyanın qanunları da, adamların xasiyyətləri də qəribədir. Özündən razı, lovğalananlar mən gələndə quzuya dönürlər. Elə yalvarırlar ki, gəl görəsən. Ancaq mən heç də insanların təsəvvür etdikləri qədər əzazil, insafsız deyiləm. Çoxlarına şanslar verirəm ki, həyata nə üçün gəldiklərini dərindən anlasınlar. Bəzən mən onlardan vaz keçəndə deyirlər ki, Allah saxladı. Amma əslində bu bir təsadüfdir.

**Mən: Yaxşı, ölüm qardaş. Görürəm çox şeylərdən başın çıxır. Onda mənə bir məsələni başa sal. Dünyaya insan gəlir. Yəni, doğulur insan. Bu dünyanın havasının qoxusunu udduqdan sonra, görürsən nədənsə boğulur. Və başlayır aramsız, hönkür-hönkür ağlamağa. Bu nədir?! Dünyaya təzəcə qədəm qoyan insan hamının udduğu hava ilə nəfəs almaq istəmirmi?! Yoxsa bu hava təmiz deyil. Onu ondan qabaq alanlar artıq bu havanı da zəhərləyiblər. Havanın mənəviyyatı saflıqdan çıxıbmı?!...Və sonra yaşamağa başlayır insan. Cabalayır, iməkləyir. Daha sonra böyüyür və ölür insan. Və öləndə qəribə də olsa gülür insan. Bax bunları mən başa düşə bilmirəm.**

**Ölüm:** Qardaş, bu dediklərinlə mənim əlaqəm yoxdur. Həyatda hər kəs öz bildiyi, qavradığı, bacardığı işlərlə məşğul olmalıdır. Sənin dediklərin isə Yaradanın yaratdıqlarıdır. Sizin dillə desək, alın yazısıdır. Ondan nə qaçmaq, nə də onu pozmaq mümkün deyil, mətləbin üstünə qayıdaq. Vaxtdır artıq, siz çoxsunuz, mənsə təkəm. Çatdıra bilmirəm. Gəl başlayaq, sənin dediyin kimi, gül bir az...

**Mən: Ay ölüm, gəlmişkən qoy səndən bir şey də soruşum. Allah bilir səni bir də harda və nə vaxt görəcəyəm. Bax məni həyatda narahat edən, yaxından maraqlandıran şeylərdən biri də bu ruh məsələsidir. Bilirsən, biz insanlar belə deyirik ki, adam səninlə görüşəndən sonra vücuddan güclü olan ruh göylərə, ərşə çəkilir. Yəni ölmür, yaşayır ruh. Axı biz deyirik ki, ruh vucuddan güclüdür. Əgər belədirsə, o, niyə vücudu da özü ilə göylərə aparmır. Onun ölümünün qarşısını almır.**

**Ölüm:** *(Xəfifcə gülümsəyir).* Vallah siz insanlar həqiqətən də çox qəribə məxluqlarsınız. Mənən xudbin, özündən razı olduğunuz kimi, fikirləriniz, düşüncələriniz də xudbin və bəsitdir. O, güclü ruhun mən gələndə gücü bəs hara gedir? Güclüdürsə niyə qaçır, isti yuvasından didərgin düşür. Elə illər, əsrlər boyu yaşadığı yerdə yaşasın də. Məndən güclüdürsə,qoy gücünü mənə göstərsin. Qaçmasın. Yəni siz insanların çox zaman arzu və istəkləriniz utopik olaraq həqiqətdən irəlidə gedir. Bu ruhun göylərə gedib yaşaması da insanın özünə verdiyi təsəllinin kölgəsidir. İnsan bu dünyaya gəldimi, bir gün də torpağın altına da getməlidir və gedir də. Uydurma olan elə ruhu da,hec göylərdə görən olmayıb axı...

...Ölümün acığına olaraq, güldüm. Rişxəndlə, istehza ilə ucadan güldüm ki, rahat ölüm. Ani olaraq gözlərimə qaranlıq çökdü, müvazinətimi itirdim. Bunun ölüm, son olduğunu başa düşdüyümdən ölərkən gözlərimi özüm sığamaq istədim. Həm başqalarına əziyyət olmasın, həm də orada ölümün əksi görünməsin deyə. Ancaq ölüm o qədər tez, bir göz qırpımının yarısında oldu ki, əlim havada qaldı, sonra da sinəmə düşdü. Ölümə gücüm çatmadı, oldum onun növbəti qurbanlarından biri. Bax beləcə, ömür yolum kəsildi, saplağından qırılıb düşdü. Mən də oldum təzə dünyanın yeni sakinlərindən biri...

**Adil Misirli**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Kür-Araz ovalığındakı Salyan

**Azərbaycanın Aran iqtisadi rayonuna aid olan Salyanın bugününü, dünənini, bütövlükdə tarixini göz önünə gətirəndə bu bölgənin özünəməxsus inkişaf yolu diqqəti çəkir. Belə ki, bu rayon inzibati ərazi vahidi olana qədər daha çox Aran bölgəsi kimi heyvandarlıqla və bir də dənizkənarı ərazilərdən balıqçılıqla məşğul olma ənənəsini özündə yaşadıb. Bu fikirləri söyləyərkən tarixi mənbələrə üz tutmağa məcbur oluruq. Çünki mənbələrdən aydın şəkildə bəlli olur ki, Salyan ərazisindən qədim karvan yolu da keçmiş və bu da Kür çayının imkanlarından istifadə etməyə müəyyən mənada şərait yaratmışdır. Bugünkü Salyan ərazisi bölgəyə üz tutanlar üçün bir məsələdə də yardımçı olubdur.**

Dilçilərin, alimlərin fikrinə görə, elə Kür çayının üzərindən ”bərə”, ”sal” kimi vasitələrdən istifadə etməklə ötüb keçib getdiklərindən sonda bu söz ərazisinin adında da özünü tapıb. Və nəticədə sahilə yan alan ”sal”ın bir mənası da Salyan sözü ortaya çıxıbdı. Təbii ki, bu bir elmi fərziyyədi. Amma bütün hallarda Salyanın Kür çayının və Xəzər dənizinin sahilində yer alması bu sözə müəyyən status verir. Sovet dönəmindən öncəsi tarixlərdə müxtəlif hərbi, siyasi gərginliklər caynağında olmuş digər xanlıqlarımız kimi, Salyanın da tarixində elə zaman kəsikləri var ki, bu da həmin böyük tariximizin bir hissəsini təşkil edir. Xüsusilə, Salyan və Quba xanlıqlarının birləşdirilməsi əsasında mərkəz kimi Xudat şəhərinin seçilməsi də bir tarixi gerçəklikdir.

Bəlli tarixi faktlara təbii ki, həmişə istinad etmək, üz tutmaq, onu yaddaşda yeniləmək hər bir Azərbaycan vətəndaşının vəzifə və hüquqlarına daxil olan bir məsələdir. Ona görə də Regionların İnkişafına Dair Dövlət Proqramının bir maddəsində ifadə olunan məqam xüsusilə diqqəti çəkir. Bu da bölgənin, yeni regionun tarixi coğrafiyası, ekologiyası və bütövlükdə bəlli təbiəti barəsində həm ölkə əhalisinin, həm də Azərbaycana səfər edən turistlərin məlumatlandırılması üçün önəmli bir məqamdır. Bax, bu mənada Azərbaycan tarixində Salyan adlı coğrafiyanın mövcudluğu və bu mövcudluğun içərisindəki gerçəkliklər hər zaman mənim diqqətimi özümə çəkib. Xüsusilə bu ərazidə doğulmuş Azərbaycanın çox önəmli şəxslərinin də həyat tarixçəsi bu məsələdə mənim üçün əsas nüanslardan sayılıbdır. Ona görə də Salyanın tarixi abidələri və tarixi şəxsiyyətləri bu gün də həyatımızda və tariximizdə öz önəmini qoruyub saxlamaqdadır.






Təəssüf ki, Sovet dönəmində Azərbaycanın digər bölgələri kimi, Salyanda da tarixi gerçəklikləri yaşatmağa, təbliğ etməyə, xalqın kimliyini dünyaya bəyan etməyə o qədər də imkan və şərait yaradılmırdı. Əksinə, adamlar daha çox təsərrüfat həyatına bağlanırdı. İnsanları yaşadıqları bölgənin tarixindən daha çox bu bölgənin məhsulları və onun istehsalı maraqlandırırdı. Düşünülmüş, planlı şəkildə gerçəkləşdirilən bu siyasət öz növbəsində unutqanlığa, soy kökdən uzaq düşməyə aparırdı.

Azərbaycan müstəqillik əldə etdikdən sonra digər ərazilərdə olduğu kimi, Salyanda da həyata, tarixə münasibət kökündən dəyişdi. Kür-Araz ovalığında yerləşən və Muğan və Cənub-Şərqi Şirvan düzlərində formalaşmış Salyan rayonu ümumi yaşayış məntəqələrinin sayı 16-dan çoxdur. Bu yaşayış məntəqələri isə həm özünün ərazisi və əhalisinin sayı baxımından diqqəti çəkir. Bu gün həmin məntəqələrə çəkilən yollar, yaradılan infrastruktur Sovet dönəmindən kifayət qədər fərqlənir. Bir zamanlar Azərbaycanın böyük pambıqçılıq rayonlarından sayılan Salyanda 3 pambıq təmizləmə məntəqəsi fəaliyyət göstərirdi. Bu da adamların ağır əməyi nəticəsində sahənin inkişaf etdirilməsinə olan planlı idarəetmənin nəticəsi idi. Yəni, Azərbaycanın Aran bölgələrində yetişdirilən pambıq öz məhsuldarlığı ilə yanaşı, ağır əmək sahəsi olması ilə həmişə ölkənin ziyalı təbəqəsini düşündürmüşdü.

Bu gün də Salyanda kənd təsərrüfatının inkişaf etdirilməsi əsas perspektivlərdən biri sayılır. Bu regionda dənli bitkilər, bostan-tərəvəz məhsulları, üzüm, pambıq və mal-davar saxlanılması məsələləri əsas aparıcı sahələrdəndir. Demək olar ki, Salyanda istehsal edilən kənd təsərrüfatı məhsulları bu ərazidə yaşayan sakinlərlə yanaşı, ölkə bazarlarına da çıxarılır. Yəni, Azərbaycanın ümumi istehsal göstəriciləri arasında Salyanın da öz yeri var. Əgər həmin göstəricilərə diqqət yetirsək, onda görərik ki, bu gün Salyanda kənd təsərrüfatının əsas sahələrindən olan pambıqçılıq, taxılçılıq, tərəvəzçilik və heyvandarlığın inkişaf etdirilərək uğurlu nəticələrə çatdırılmasında sahibkarların, iş adamlarının xidmətləri danılmazdır. Necə deyərlər, bu coğrafiyanın xarakter və xüsusiyyətlərini yaxşı bilən yerli sahibkarlar, fermerlər və iş adamları Salyanda üzümçülüyün, pambıq istehsalının, subtropik meyvə bağlarının genişlənməsinə demək olar ki, böyük diqqət yetirməklə, həm də kapital yatırımı edirlər. Bir az da açıq ifadə etsək, bu sahələrə maliyyə xərcləyən həmin adamlar öncədən nə əldə edəcəklərini də artıq bilirlər.

Doğrudur, Salyanda aparıcı iqtisadi sahə kənd təsərrüfatı olsa da, ancaq sənayenin də müəyyən sahələri bu bölgədə zaman-zaman inkişaf etdirilib və bu gün də həmin proses davam etdirilir. Artıq rayonda əvvəlcə qeyd etdiyimiz kimi, Pambıqtəmizləmə Məntəqələri, Kərpic İstehsalı Zavodu, Plastik Kütlə Emalı Müəssisəsi uğurlu nəticələr əldə etməkdədir. Salyanda istehsal edilən şirələr, sərinləşdirici içkilər, həmçinin ”Salyan pivəsi” alıcıların rəğbətini qazanıb. Demək olar ki, Azərbaycanın əksər bölgələrində və satış nöqtələrində Salyanda istehsal edilmiş məhsullarla qarşılaşmaq artıq adi həyat tərzimizdir.

Doğrudur, Sovet dönəmində Salyanda ən böyük istehsal sahələrindən biri balıqyetişdirmə idi. Hətta burada yetişdirilən balıqlar digər Sovet respublikalarına da göndərilirdi. Təəssüf ki, müstəqilliyimizin ilk illərində bu məsələ demək olar ki, başlı başına buraxıldı. Həmin təsərrüfat sahəsi acınacaqlı duruma düşdü. Bu gün isə yenidən rayonda balıqçılıq təsərrüfatı bərpa olunub. Azərbaycanın bir çox bölgələrində Salyanda yetişdirilən balıqların satış məntəqələri yaradılıb. Hər kəs üçün maraqlı olan və diqqətini çəkən ağ balıq və nərə balığı məhz Salyandakı balıqçılıq təsərrüfatlarında yetişdirilir. Hətta ekspertlərin fikrinə görə, həmin balıqlar dad və keyfiyyətinə görə dünyada liderlik edir. Təbii ki, bu balıqların kürüsü də həmin liderlərin sırasındadır. Ona görə də Salyanda istehsal olunan qara kürü dünya bazarında liderlik edir.

**Bu gün Salyan rayonun mənzərəsi Sovet dönəmini yaddaşlardan silməkdədir. Aparılan tikinti-quruculuq, abadlıq işləri, yaradılan yeni infrastruktur rayonun görkəmini kökündən dəyişib. Azərbaycan Prezidenti cənab İlham Əliyevin qarşıya qoyduğu vəzifələri Salyanda həyata keçirməsində rəhbərlik edən rayon icra hakimiyyəti, eləcə də rayon icra başçısı Sevindik Hətəmovun öz komandası ilə birlikdə rayonda yaratdığı işgüzar mühit bugünkü nailiyyətlərin əsasını təşkil edir. Hər kəs öz işi ilə və həm də məsuliyyətlə məşğul olur. Aparılan bu yenilənmə rayona kənardan diqqəti də artırır. Adamlar Salyanın tarixi abidələrini görməyə, bu bölgənin nemətlərini dadmağa həvəslə gəlirlər. Təbii ki, Salyanın tarixini, onun təhsil, səhşiyyə, mədəniyyət sahəsindəki inkişaf perspektivlərini daha köklü şəkildə istiqamətləndirmək, ortaya çıxarmaq üçün hələ çox işlər görülməlidir. Bu təkcə Salyan üçün yox, bütövlükdə Azərbaycan üçün önəmli bir məsələdir. Yəqin ki, əlaqədar təşkilatlar ölkə prezidentinin tapşırığına uyğun olaraq Salyanın daha gözəl növrağı üçün tam ciddiyyəti və gücləri ilə çalışacaqlar.**

**Əbülfət MƏDƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Bu ömrün payızı tez gəldi

## Alim, publisist, müəllim və dost olan Məhəmmədəli Mustafanın xatirəsinə

**İnsan ömrünün eni, boyu özünə heç vaxt bəlli olmur. Sadəcə bir insan başqa bir insanın hansı zaman kəsiyi yaşadığını izləyə bilir. Yəni, yaşayanlar köçüb gedənlərin doğum və ölüm tarixindən xəbərdar olur. Burada bir haşiyə çıxım. Söhbət rəqəmlərdə ifadə olunan doğum və ölümdən gedir, gerçək yaşanan ömürdən getmir. Çünki biz bəzən bir anın içində bir ömür yaşayırıq. Bəzən də əksinə...bir ömrün içərisində yaşamağa payımıza bir an düşür. Deyə bilmərək ki, kimin həqiqi ömrü nə qədərdi və bundan sonra nə qədər olacaq. Lakin mən bəlli bir zaman kəsiyini həqiqətən yaşamışam və bununla bağlı da "19 avqust" şeir də yazmışam...**

Bəli, hər nəslin öz yaşam zamanı var və o nəsil o zamanın içərisində doğulur, ayağa qalxır, özünü təsdiq edir və təbii ki, onun baharı kimi qışı da qapısını döyür. Lakin təbiətdə olduğu kimi insan həyatında da dörd fəsil var. Bahar doğumdur, yay dirçəlişdir, payız yır-yığışdır, qış qürubdur... Bu mənada nəslin yarpaq tökümü qəribədi ki, heç də həmişə payızda baş vermir. Bax, insan ömründəki fəsillərin bir-birinin içərisində cərəyan etməsi təbiətdəki fəsillərdə özünü bu nöqtədə fərqləndirir. Təbiət öz dördlüyünü yaşayır, insan isə bəzən baharda da payızın acısını, yayda da payızın qovğasını, qışda da payızın yarpaq tökümünü özündə ifadə edir. Bu bizim istəyimizdən asılı olmadan baş verən prosesdir...

Mən nəslimin yarpaq tökümü ilə bağlı son illərdə yaman çox yazılar yazıram. Bu yarpaq tökümünün acısını mənə yaşadan qan qohumlarımla yanaşı, ruh doğmalarım da az deyil. Onların içərisində şair Vahid Əlif oğlu, maliyyəçi Dilavər Əliyev, Mirzə Səfərəliyev, akademik Hətəm Quliyev, hüquqşünas Şirxan Adıgözəlov, Ələsgər Bayramov və digərləri barəsində mən ürək sızıltısı ilə bu yarpaq tökümünə üsyan etmişəm. Amma mən kiməm ki Tanrı önündə? "Hökm onun hökmüdü, fərman onun fərmanıdı!" - deyən şair hər şeyi birmənalı şəkildə ifadə edir. Lakin bəzən insan bildiyini də, dərk etdiyini də, qanuni olanı da, qaçılmaz olanı da anlaya-anlaya onun üçün göz yaşı tökür, saç yolur, haray qoparır. Bəlkə də bu etiraz yox, özünün həmin o itki ilə barışması üçün atdığı son addım, etdiyi son cəhddi...

Onunla 1992-ci ildə şəxsən tanış oldum. Həmin ilin başlanğıcında "Ədalət" qəzetində işləməyə gəldim. O da "Ədalət"də işləyirdi. Bu komandaya məndən öncə qoşulmuşdu. Boy-buxunu, özünəməxsus danışıq tərzi, xüsusilə içdən gələn gülüşü dərhal diqqətimi çəkdi. Hiss etdim ki, o bu komandanın ən şən əməkdaşlarından biridir. Qayğını, kədəri hansısa gücün hesabına özündən uzaq tutmağı bacarır. Tam səmimi deyəcəm. Onun bu qabiliyyətinə hətta bir az həsəd apardım. Çünki mən Qarabağı, kəndimi, evimi itirmişdim. Bu itki mənə gülüşü də yadırğamışdı. Bu itki məndən ruhumu da, iç dünyamı da almışdı. Ona görə də içdən gülən adamları görəndə keçmişimi xatırlayırdım, dünənimə tərəf baxırdım. İllər ötdü, onun gülüşünün yüzə-yüz içdən gəlmədiyini duydum, anladım. Əməlli-başlı dərk etdim ki, bu adam ovqat yaratmaq üçün, adamların əhvalını durultmaq üçün özünü bu gülüşə kökləyir. Otağına təkliyə çəkiləndə isə o gülüş ondan perikir, ondan uzaqlaşır. Bax, bəlkə də onun ömrünün payızını sürətləndirən, tezləşdirən bir səbəb də bu oldu.

Məhəmmədəli Mustafa ilə "Ədalət" qəzetindəki həmkarlığımız, yoldaşlığımız, sonda isə dostluğumuz çox sınaqlardan keçdi. Bəzən o kiminsə hansısa bir sözünə istinad edib məndən incidi. İki-üç gündən sonra məsələnin mahiyyətini biləndən sonra yenə həmin təbəssümlə "Ə, qağa, boş şeydi" - dedi. Və beləcə zaman-zaman mən onu özünə aid



olan dünyanın müəyyən vaxtlarına baş vura bildim. Yaşadığı ailə dramından tutmuş müəllim ömrünə qədər o tamam fərqli bir yolda idi. Elə jurnalist, publisist kimi də fərqlənirdi. Yazılarında aid olduğu bölgənin ruhunu aşkarca duymaq olurdu. Əsəbləşəndə də, sevinəndə də kimliyi ortaya çıxırdı. Bu da onun içi ilə çölünün bərabərliyindən xəbər verirdi...

Məhəmmədəli Mustafa yol-yoldaşlığına xüsusi diqqət yetirirdi. Onun həmkarımız Faiq Qismətoğlu və Lətif Süleymanlı ilə gözəl macəraları ayrıca bir söhbətin mövzusudur. Hər dəfə o, bu macəralardan birini danışıb bizi ürəkdən güldürməyə çalışırdı və hər dəfə də onun həmin "üçlük"dəki dünyasının nə qədər maraqlı olduğunu fəxarətlə yaşadığını şəxsən mən hiss edirdim. Əks halda o, yorulardı, bezərdi, uzaqlaşardı həmin o "üçlük"dən. Amma əksinə, Məhəmmədəli Mustafa bütün istək və arzularını, atacağı addımları həmin "üçlük"də müzakirə edib, xüsusilə Faiq Qismətoğlu ilə hər sözünü, sirrini bölüşürdü. Onların baş-başa qaldığı anları kənardan izləmək özü bir mövzudur. Çünki Məhəmmədəlinin sakit, Faiqin ötkəm səsi adama kənardan elə təsir bağışlayır ki, sanki onlar indi əlbəyaxa olacaqlar. Lakin Məhəmmədəlinin halını pozmadan, fikrini sakit halda, asta-asta, tələsmədən təkrarlaması Faiqin, loru dildə desək, "havasını alır", onu da Məhəmmədəlinin sakit dünyasını qaytarırdı...

Günlərin bir günü Məhəmmədəli Mustafa mənə yaxınlaşdı. Həmin gün qəzetdə növbətçi idi. Dedi ki, ay qağa, ta yoruluram, Lənkəran, Sumqayıt, Bakı, "Ədalət" arasında gilinc qalmışam. İstəyirəm qəzetdən ayrılam, gedəm elmin dalınca. Bir anlıq fikrə getdim. Elə indi də həmin söhbəti xatırlayıb fikirləşirəm və...

Məhəmmədəli Mustafa AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda elmi işçi idi. Namizədliyinin müdafiəsinə hazırlaşırdı. Paralel olaraq Lənkəran, Sumqayıt və Qərb Universitetlərində dərs deyirdi, müəllim kimi fəaliyyət göstərirdi. Bu da ona doktorluğunu müdafiə etməkdə vaxt baxımından çətinlik yaradırdı. Mən də Məhəmmədəlinin dediklərini içimdən keçirib doğru qərar qəbul etdiyini təsdiqlədim. Və elə növbəti həftədə o, qəzetin təsisçisi və baş redaktoru ilə razılaşıb "Ədalət"dən getdi. Özünün də dediyi kimi, gedən cismi oldu. Vaxtaşırı telefon zəngləri, elmi yazılar, darıxanda kollektivə baş çəkmək isə onun bu qəzetə sədaqətinin gerçək üzü idi. Biz tez-tez telefonla danışırdıq. Burda da tam səmimi deyim ki, "Ədalət"dən gedəndən sonra filologiya elmləri doktoru Məhəmmədəli Mustafanın mənə münasibəti çox dəyişmişdi. İndi o, məni həm də bir şair kimi oxuyub təhlil edirdi. Hətta yaradıcılığım barəsində böyük bir məqalə də yazmışdı. Son dəfə nəşriyyatda görüşdük. "Ədalət"də oturub söhbət etdik. Sonra nəşriyyatın bufetində çay içdik və bir də gördüm ki, Məhəmmədəli masadan durub nəşriyyatın bufetinə keçdi. Qayıdıb gələndə əlində üç qutu "Kent-4" siqareti var idi. Təəccüblə üzünə baxdım. Sanki soruşdum ki, çəkməyə başlamısan? Məhəmmədəli siqaretləri mənim qarşıma qoyub dedi: "Bu gün əmək haqqımı almışam. Bilirəm ki, sən də bu siqaretdən çəkirsən. Götür, bir neçə gün işinə yarayar" - dedi.

Onun bu diqqəti, bu səmimiyyəti məni əməlli-başlı təsirləndirdi. Və sonra Məhəmmədəli məndən xahiş etdi ki, Aqil Abbasa zəng edim. Soruşdum ki, niyə özün zəng vurmursan? Dedi ki, mobil telefonda nömrəni dəyişmişəm. Zəng vuraram, birdən açmaz, ona görə sən zəng vur. Mən onun istəyini yerinə yetirdim. Məhəmmədəli Aqil Abbasla telefonda bir xeyli danışdı və məlum oldu ki, yeni monoqrafiyasından danışır. İstəyir ki, yazıçı Aqil Abbasın yaradıcılığı barəsində işləməyə başladığı monoqrafiya ilə bağlı millət vəkili ilə görüşüb bəzi suallarına cavab alsın... Təəssüf... Onlar razılaşdılar. Amma qəfil yarpaq tökümü bu istəyi yarı yolda qoydu.

Mən bir həftə sonra sosial şəbəkədə filologiya elmləri doktoru Məhəmmədəli Mustafanın vəfat etməsi xəbərini oxuyanda inanmadım. Faiq Qismətoğluna zəng vurdum. O, kövrək bir səslə "Getdi Məhəmmədəli" - dedi.

**Bəli, bizim nəslin yarpaq tökümü yaman tez başladı. Bu nəslin haqqa qovuşan təmsilçilərinin adları bəlkə də bir kitaba sığmaz. Bu adların sırasına Məhəmmədəli Mustafa da yazıldı. Bizdən qabağa düşdü. O sıra bizi də gözləyir. Sadəcə qatardan harda düşəcəyimizi, necə düşəcəyimizi bilmədən biz o sıraya tərəf gedirik. Özdə təkcə biz getmirik, hər kəs bu yolun yolçusudu. Bu yol isə əbədiyyat yoludu. "Ədalət"in tarixində, yaddaşında ədəbiyyat elmimizin təmsilçilərinin və öyrənənlərin yadında , bir də dostlarının, doğmalarının ömründə yaşayacaq Məhəmmədəli Mustafa. Ruhu şad, məkanı cənnət olsun!**

**Əbülfət MƏDƏTOĞLU**

## *Ekspert: Rayonlara az bal toplayan müəllimlərin göndərilməsi vəziyyəti pisləşdirə bilər*



**Müəllimlərin işə qəbulunda əsas problemlərdən biri rayonlara getmək istəyən müəllimlərin sayının az olmasıdır.**

Bunu təhsil eksperti Şahlar Əsgərov deyib. Onun sözlərinə görə, imtahanlarda yüksək bal toplamış müəllimlərin Bakıda qalıb, az bal toplayanların rayonlara göndərilməsi də məsələnin problemli tərəfidir:

”Rayonlarda təhsilin səviyyəsi onsuz da aşağıdır. Bir tərəfdən də zəif müəllimlərin göndərilməsi bu vəziyyəti daha da pisləşdirə bilər. Bu istiqamətdə ciddi işlər görülməlidir. Güman edirəm ki, Təhsil Nazirliyi düşünüb, bunun ədalətli həllini tapacaq”.

Ekspert vakant yerlərin sayı ilə müqayisədə namizədlərin sayının qat-qat artıq olması və bu səbəbdən də çox sayda müəllimin işsiz qalmasına baxmayaraq, ali təhsil müəssisələrində növbəti illərdə müəllimlik ixtisası üzrə yerlərin sayının azaldılmasını isə düzgün addım hesab etmədiyini bildirib:

”Müəllim ixtisası üzrə universitetlərdə qəbul yerlərini azaltmaq olmaz. Ona görə ki, seçim hüququ var. İş tapana qədər heç olmasa qoy bizim gənclərimiz ali təhsilli olsunlar. Fikrimcə, Azərbaycanın bütün ağıllı gəncləri ali məktəblərdən keçməlidir. Bu gün 100 attestat alan gəncimizdən 10-u xarici ölkələrə gedir və təəssüf ki, çoxu geri qayıtmır. Məktəbi bitirən hər 100 şagirdin 10-unun isə ali məktəb proqramını mənimsəmə potensialı yoxdur. Yerdə qalan 80 nəfərin 10-15-i kolleclərdə təhsil alır, 65 nəfərin də hər biri mənim fikrimcə ali təhsilli olmalıdır. Ali təhsil düşüncə, dünyagörüş, gələcəyi görmək deməkdir. Hətta mən ali məktəblərdə yerlərin sayının artırılmasının tərəfdarıyam. Yerlərin azaldılması milli baxımdan çox zərərli addım olar”.

## *Antalyada meşə yanğınları nəzarət altına alınıb*



***Türkiyənin Antalya vilayətində 10 gün davam edən meşə yanğınları nəzarət altına alınıb.***

***Bunu ölkənin kənd və meşə təsərrüfatı naziri Bəkir Pakdemirli deyib.***

***Onun sözlərinə görə, bölgədə 10 gün ərzində 21 yanğın ocağı ilə mübarizə aparılıb.***

***Xatırladaq ki, Antalyanın Manavqat rayonunda 7 nəfər həyatını itirib. Hazırda Türkiyənin dörd vilayətində meşə yanğınları davam edir.***

# "Xəstəliklərin, intiharların, insan faciəsinin kökündə bu dayanır: sevgisizlik"

*Həmsöhbətimiz şair Elnaz Eyvazdı.*



**- Adətən, ədiblərin bir çoxu yaradıcılıqdan kənar sahələrdə çalışdığına görə gileylənir. Azərbaycan dili və ədəbiyyat müəllimisiniz. Yaradıcılığınızı nəzərə alsaq, sizə daha doğma və yaxın sahədir. Bunun müsbət cəhətləri var?**

- Yaradıcılıq elə qısqanc sahədir ki, uğur qazanmaq, ortaya yaxşı mənada barmaqla göstəriləcək əsər qoymaq üçün gərək özünü sırf ona həsr edəsən. Bölünməyəsən, enerjini, gücünü, zamanını ona verəsən. Bu da ki, mümkün deyil. Məsələn, özümdən danışsam, ara-sıra yazdığım şeirləri nəzərə almasaq, yaradıcılıqdan kənar düşmüşəm. Məlum durumla bağlı dərslərin distant keçirilməsi, saatlarla kompüter qarşısında oturmaq, cüzi zaman fasiləsindən sonra repititorluq etmək bütün zamanımı və enerjimi aldı. Bura evin kişi və qadın işlərini də əlavə etsək, hansı yaradıcılıqdan danışım?! Nə ürəyimcə mütaliə etməyə, nə yazmağa vaxt qalır. Arada elə dolurdum, yetişmiş çiban kimi az qalırdım partlayam, yazmaq istəyirsən, ancaq olmur. Amma müəllimliyin yaradıcılığa müsbət təsiri odur ki, daima axtarışdayam, bir də görürsən, uşaqlar elə suallar verir ki, günlərlə araşdırma edəsi oluram. Həm də dünyanın ən məsum varlıqları ilə işləmək insanın sanki enerjisini təzələyir.

### *Nə ürəyimcə mütaliə etməyə, nə yazmağa vaxt qalır*

**- Ədəbiyyat adamları deyir ki, müasir dövrümüzün, müasir yazarların təbliği, tanıdılması üçün təhsil sahəsi önəmlidir. Elə ədəbiyyat adamları arasında bu sahədə çalışanlar var. Məsələn, siz. Özü də ədəbiyyat müəllimi. Bir yazar, müəllim kimi hansı təbliğ, tanıtmaqla bağlı ilə cəhdlər etmisiniz? Bəlkə özümüz etsək alınar, sadəcə cəhdlər etmirik?**

- Müəyyən cəhdlər edirdim pandemiyadan öncə. Məktəbdə "Kitab klubu" yaratmışdım, müxtəlif siniflərin şagirdlərini cəlb etmişdim. Uşaqlar çox həvəslə kitabları alıb oxuyurdular, sonra qoyulan əsəri müzakirə edirdik. Yaxud ədəbiyyat dərslərində mövzudan asılı olaraq, müasir yazıçı, şairlərlə bağlı istiqamət verib, maraq yaradırdım. Sonra görürdüm ki, gedib axtarıb tapanlar olub, nəsə oxuyub.

**- Şagirdləriniz şeirlərinizi, hekayələrinizi oxuyur?**

- Oxuyurlar. Özümdən istəyəndə, çox istisna hallarda öz şeirimi oxuyuram. Ancaq özləri internetdən tapıb oxuyur. Bilirsiniz, mən heç vaxt özümlə bağlı şairəm, yazaram filan sözlər işlətmirəm. Ancaq valideynlər deyəndə ki, uşaq sizinlə fəxr edir, deyir, Elnaz Eyvaz bizim müəllimimizdir, evə gələn qonaqlara da açıb internetdən sizi göstərir, istər-istəməz adamın ürəyi böyüyür sanki köksündə. Lovğalanmıram, Yaradana, bu sevgini, statusu, qələmi, sözü mənə rəva görənə təşəkkür edirəm...Düşünürəm ki, qismətimə müəllimlik boş yerə düşməyib. Borcum elm verməklə yanaşı, hətta öncə, insan yetişdirməkdir. Mənəviyyatı zəngin, bəşəriyyətə yararlı, Vətənə ləyaqətli vətəndaşlar yetişdirmək. Bu yolda son nəfəsimə qədər əlimdən gələni etməyi özümə borc bilirəm.

**- Sizinlə müzakirə edir, suallar verirlər? Adətən hansı suallardan qaçırsınız?**

- Bəli, edirlər. Müxtəlif suallar verirlər. Demək olar ki, onların ədəbiyyatla, mənim yazdıqlarımla bağlı heç bir sualından qaçmıram. Bir dəfə siniflərin birində ədəbiyyat dərsində hamısı bir ağızdan xahiş etdi ki, şeir oxuyum onlar üçün. Ruhsal məqamıma düşdü, oxudum. Alqışladılar, sonra da müxtəlif suallar verdilər. Sanki məni başqa yerdən dəvət edib görüş təşkil etmişdilər. Axırda zarafatla dedim ki, baxın, bu söhbəti başqa məktəbin şagirdləri ilə etsəydik, deyərdilər, şair qonağımız var. Səhəri gün sinfə daxil olanda gördüm stolun üstünə bir fincan çay, konfet qoyublar, konfetin üstünə məktub. Məktubda "Sizi çox sevirik!" yazılıb. Əvvəl çaşıb qaldım. Başımı qaldırıb soruşmaq istəyəndə gördüm hamısı ayaq üstə dayanıb və məni alqışladılar. Dedilər, dünən müəllim kimi yox, şair kimi qonağımız oldunuz. Çox kövrəldim.

### *Borcum elm verməklə yanaşı, hətta öncə, insan yetişdirməkdir*

**- Sanki şairlər faciələri sevir. Sanki bütün faciələr onların ilham mənbəyidir. Götürək, sevgi şeirləini. Əksərən, ayrılıq, kədər, "gəlməz oldunlar", həsrət, yol gözləmək və.s. Elə sizin sevgi şeirlərinizdə də bu hal çoxdur. Siz də faciə, ayrılıq sevənlərdənsiniz?**

- Elə ayrılıqlar var ki, zərurətdən irəli gəlir. Yaxşı ki, ayrılırsan və həyata davam edirsən. Əks halda, həyatdan ayrıla bilərdin, bəlkə. Getməli olan zamanında getməlidir, getmirsə, göndərməlisən. Belə ayırlıqlar sadəcə stres yaşadır adama. Ancaq elə ayrılıqlar var ki, ağlının ucundan keçirəndə ürəyin göyüm-göyüm göynəyir. Allah belə ayrılıqları uzaq etsin. Mənim ürəyim sevgilə o qədər doludur ki, ayrılığı, faciəni necə sevə bilərəm?! İlham mənbəyim də sevginin özüdür. Hər kəs öz yazdıqlarını da, yaşadıqlarını hamıdan yaxşı bilir, təbii. Və mən də görürəm ki, çox vaxt yaşadıqlarımı deyil, yaşayacaqlarımı yazmışammış. Elə şeirlərim var ki, onları yazanda ağlıma gəlməyib ki, bunu yaşaya bilərəm. Zaman keçəndən sonra özüm də dəhşətə gəlmişəm. Sanki olacaqları öncədən özümə yazdırıblar kimi. Hətta bir dəfə yuxudan ayılana qədər bir bənd şeiri əzbərlədim, oyanan kimi köçürdüm bloknota, sonra da ardını yazdım. Müəyyən müddət sonra həmin şeirin məhz yuxuda yazdığım bəndini həyatda yaşadım, inanırsınız?!

**- Xoşbəxt qadın olmaq, yoxsa ilham mənbəyinə çevrilən faciələr? Hansını seçərdiniz əlinizdə olsaydı...**

- Xoşbəxtlik zatən daimi və mütləq deyil. Anlarla ölçülür. Elə anlar var ki, o bir anın sayəsində günlərlə ayaqların yerdən üzülür xoşbəxtlikdən. Xoşbəxtlik mütləq deyil ona görə ki, məsələn, bir qadın övlad kimi xoşbəxt olar, ana kimi xoşbəxt olar, lap elə müəllim kimi xoşbəxt olar ki, sevilir. Qadın kimi xoşbəxt olmaq başqadır artıq. Birinin o birinə qarışacağı yoxdur bunların. Fərq etməz, qadın, ya kişi, şəxsi həyatında xoşbəxt olmayan adam digər xoşbəxtliklərinin dadını çıxara bilmir, elə hey bir tərəfi yel çəkir. O ki qaldı seçimə, faciələrdən ilham almaq deməzdim, faciələrin yanğısını söndürmək, içindəki közü dışarı atmaq üçün yazmaq var. Bilmirəm...seçə bilsəydim, yəqin ki, Qadın xoşbəxtliyini seçərdim. Çünki digər xoşbəxtliklər özləri məni seçib şükür.

**- "Ərini öldürən qadın". Belə bir hekayənizə rast gəlmişdim. Nə qədər acınacaqlı olsa da, düşünürəm ki, bir çox qadın, bəlkə də, içində bu arzu ilə yaşayır...**

- "Qadın" hekayəsini deyirsiniz, 2011-ci ildə Nəsimi Milli Ədəbiyyat Müsabiqəsinin hekayə nominasiyasının qalibi olmuşdu o hekayə. Orda hər şey yaşandığı kimidir. Təkcə sondakı ərini öldürmək istəyindən başqa. Heç vaxt kimisə öldürməyi düşünməmişəm. Əsla! Söhbət bir qadından gedirsə və o qadın mənəmsə, mən uzaqbaşı gedə bilərəm, öldürə yox. Bəlkə, kimlərsə əsəbiləşəndə öldürmək istəyir ərini, ya da öldürür. Niyyət əməlin yarısıdır. Öldürmək mənlik deyil, mənim işim yaşatmaqdır, layiq olanı təbii ki.

**- Elə bir məqam olubmu ki, ürəyinizin ayaqlarınızdan yapışdığını hiss edəsiniz?**

- Getmək-
dünyanın ən asan işidir:
nə var ki: bir kəndir, bir masa.
Əlbəttə,ürəyin ayaqlarından sallaşmasa...
O qədər olub ki...Ürəyə nə var e, qırılan da özü, ayaqlarından sallaşan da.
Xoşbəxtlik zatən daimi və mütləq deyil

**- Bir zaman AYB-dən çıxmışdınız. Bütün bunların nəticəsi siz tərəfdən necə oldu? Bu illər ərzində düşündükləriniz özünü hansı baxımdan doğrultdu? Peşmanlıq hissi var?**

- Çıxdım və heç nə dəyişmədi. Dəyişmədisə, demək düz və zamanında verilmiş qərar idi. Nə ora, nə ordan getməklə xüsusi bir hədəfim, gözləntim yox idi. Mənim işim yazmaqdır. Həyat şəraitim, məişət qayğılarım imkan verdikcə yazıb, ürəyim istəyəndə publikaya təqdim etmək. Nə yazdıqlarım üçün kimsədən nəsə umuram, nə kimsəyə minnət qoyuram. Və birlikdən çıxdığım üçün də əsla peşman deyiləm. Ümumiyyətlə, daha güclü, yeni bir təşkilat olsa belə, üzvü olduğum üçün mənə maaş da versələr, desələr ki, al bu pulu, işləmə, get otur yaz, qəbul etmərəm. Əgər sən tutarlı mətn qoyursansa ortaya, yaxud da heç istedadın yoxdursa, haranınsa vəsiqəsini formal olaraq daşıyıb-daşımamağının fərqi yoxdur. Deyən olar ki, bəs onda niyə üzv olmuşdun? Həə...insan doğru addımlarını atmaq üçün öncə müəyyən səhvlər edir, dərslər alır həyatdan. Birbaşa bütün qərarlarımız doğru, addımlarımız yolunda olsaydı, bəlkə, maraqlı olmazdı. Adına "həyat" deyilməzdi. Təcrübəmiz olmazdı.

**- Səhv etmirəmsə, ərizə ilə çıxan yeganə adam da siz idiniz...**

- Bəli. Elə vəsiqəmi də ərizəmlə bir yerdə təqdim etdim. Çünki məqsədim şou yaratmaq, gündəm olmaq deyildi. Uzun zaman düşünüb verdiyim qərar idi. Hərçən bu mözvu ilə bağlı danışmağı sevmirəm, ona görə də detallara getmirəm. Çünki zamanında çox ağır keçirdim o mərhələni, haqsızlıqlarla üzləşdim, açıqlamalar verməK zorunda qaldım. Səhhətimə pis təsir etdi...AYB-nin üzvü olan dostlarım var, aramızda qarşılıqlı və səmimi xətir-hörmətimiz var. Sevgilərini, diqqətlərini hiss etmişəm hər zaman. Ordan çıxandan sonra neçə dəfə müxtəlif mətbu orqanlarında şerilərimi çap ediblər, hətta özümdən xəbərsiz. Üzv olanda heç bu qədər etməmişdilər. Bilsəydim, daha əvvəl çıxardım...

**- Və son olaraq: sizi kənardan görünəcək qədər narahat edən nədir?**

- İnsanlığın üzləşdiyi faciələr, insanların bir-birini "yeməyi", bir-birinə etdikləri pisliklər, haqsızlıqlar. Ən xırda haqsızlığa, yalana dözmürəm, özümə edilməsə belə. İnsanlığın sevgiyə ehtiyacı var. İnsanlar sevgisizlikdən zülüm çəkir, inanın. Bütün xəstəliklərin, intiharların: insan faciəsinin kökündə bu dayanır. Axı adamlar onları sevənlərə, onlar üçün fədakarlıq edənlərə niyə nankorluq etsinlər ki?! Heyvanlar belə onlara edilən yaxşılığı unutmur, aldığı sevginin qarşılığında sədaqət göstərir. Axı BİZ niyə beləyik? Ancaq qərarlıyam: kim nə qədər üzür üzsün, insanları sevməkdən, sevdiklərim uğruna yaşamaqdan, yaşatmaqdan vaz keçməyəcəm, həyatım, canım bahasına olsa da. İnanıram ki, buna layiq olanlar var! Sevgiyə, İnsana dəyər verənləri güdaza vermək, qurunun odunu yaşı yandırmaq olmaz...

**Söhbətləşdi:**
**Emin Piri**

# İncə sənətin fədailəri: Rəssamlığı sevən və sevdirən İsgəndərova bacıları

*Azərbaycan Rəssamlar İttifaqının üzvü, rəssam, sərgi-tədbir təşkilatçısı, bir çox ölkədaxili və ölkələrarası uğurlu layihələrin rəhbəri Elnurə xanım və bacısı Aygün İsgəndərova Ağdam rayonunun Qiyaslı kəndindəndirlər.*

*Ömürlərini həsr etdikləri rəssamlıq sənəti ilə nəinki Ağdamın , eləcə də Azərbaycanın adını bütün yarış, müsabiqə və sərgilərdə ucaldan peşəkar rəssamlardandı. Bu gün onlarla söhbətləşəcəyik, sizə də maraqlı olan mövzuları onlarla birgə çözəcəyik.*




**- Aygün xanım, düzünü deyim mən sizin ötən ilin may ayında bir yarışmada qalib olarkən tanımışdım. Yadınıza gəlirmi?**

- Bəli, ugurlar insan yaddaşından silinməyən ən şirin xatirələrdi. Ağdam Rayon Heydər Əliyev Mərkəzi Ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş "Vətənə həsr olunmuş ömür" adlı video görüntülərdən ibarət onlayn rəsm müsabiqəsini siz dediyiniz kimi ötən ilin may ayında baş tutmuşdu. 70?80 ölçüdə, kətan yağlı boya ilə çəkdiyim, mövzusu " Ulu Öndər Yolu" adlı rəsm əsərim, münsiflər heyəti tərəfindən birinci yerin qalibi oldu.

**- Elnurə xanım, həyata keçirdiyiniz layihələrin demək olar ki, hamısı uğurlu alınıb, Azərbaycan əcnəbilər tərəfindən daha dərindən araşdırılıb, tanınıb.Necə deyərlər, Azərbaycana qərəzli münasibətdə olan dünyanın fonunda siz öz sənətinizlə bu münasibətə əlvan boyalar qatmağı bacarmısınız.**

- Bəli, kifayət qədər tədbirlərimiz, layihə və sərgilərimiz olub ki burda sizin dediyiniz fikirlərə haqq qazandırmaq olar. Bu tədbirlərdən biri bu ilin may ayında baş tutdu. "Azərkitab" Kitab Təbliğatı Mərkəzində 28 May - Respublika Gününə həsr olunan rəsm sərgisi keçirldi. Sərginin layihə rəhbəri mən idim. "Meksika Azərbaycan rəssamlarının gözü ilə" adlı sərgi Meksikanın Azərbaycandakı səfirliyinin koordinasiyası ilə, mən və rəssam Aygün İsgəndərova tərəfindən təşkil olundu. Sərgi Meksika mədəniyyəti və təbiətinin zəngin müxtəlifliyinə aid azərbaycanlı rəssamların baxışını əks etdirən 30-dək əsərdən ibarət idi. Mənim üçün mükafat isə Meksikanın Azərbaycandakı səfiri Rodriqo Labardinin çıxışı oldu. O, iki ölkə arasında dostluq əlaqələrinin inkişaf etdiyini bildirdi. Səfir bu xüsusda mədəniyyət və incəsənətin rolunu qeyd edib: "Hər iki ölkənin bədii ifadələri bu dostluğu daha da möhkəmləndirməyə imkan verdi, danışdığımız dil və ya mənsub olduğumuz milliyyətdən asılı olmayaraq ünsiyyətimizi asanlaşdıran və canlandıran universal dəyər incəsənətdir"

**- Elnurə xanım, sizin təşkilatçılığınızla 2019 -cu ilədə gənclərlə bağlı bir tədbirolmuşdu. Yadımdadır, uzun müddət həmin tədbir gündəmdən düşmədi...**




-Bakıda 2019-cu ildə - 2 Fevral gənclər gününə həsr olunmuş "Gənclərin gələcəyə baxışı" adlı sərgi keçirildi. Tədbir bizim və İran İslam Respublikasının Azərbaycandakı Səfirliyinin Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə həyata keçdi. Sərgidə 150-dən çox rəssamın iştirakı ilə 200-dən çox əsər nümayiş edilmişdi.

**- Məqsəd nə idi?**

- Bu sərgi bizim üçün çox vacib idi, çünki mövzu çox aktualdır. Daha yetkin nəslin nümayəndələri rəssamlıq sənətini çox yaxşı anlayır, bizim əsas məqsədimiz isə gənclərin diqqətini çəkmək və onlar arasında rəssamlığı inkişaf etdirməkdir. Ümid edirik, cəhdimiz boşa çıxmadı və biz gənclərin düşüncəsinə təsir etməyi bacardıq. Ümid edirik ki, bu sərgidə biz onlara demək istədiklərimizi göstərə, gəncləri düşünməyə, rəssamların öz əsərlərində nə demək istədiklərini, əsərlərə hansı mənəvi impuls verildiklərini göstərə bildik.

**-...və nəhayət "Zəfərin mübarək Azərbaycan" adlı sərgi...**

Bu sərgimiz Qurtuluş gününə həsr olunmuşdu. Qurtuluş Günümüzün memarı ulu öndərimiz Heydər Əliyevin və zəfərimizin banisi Ali Baş Komandan İlham Əliyevin fəaliyyətindən və uğurlu siyasətin təqdirəlayiq olduğunu kətan üzərində də olsa bildirmək borcumuzdur. Yeni Azərbaycan Partiyasının Yasamal rayon təşkilatında layihə rəhbəri və təşkilatçısı mən və Aygün xanımın olduğu Qurtuluş Gününə həsr olunmuş Azərbaycan Rəssamlar İttifaqının üzvü, rəssam Məlik Məmmədxanovun "Zəfərin mübarək Azərbaycan" adlı fərdi yaradıcılıq sərgisi açıldı.

Sərgidə rəssamın zəfərimizə həsr olunmuş iki qardaş ölkənin liderlərinin portretinin təqdimatı ilə yanaşı, Azərbaycan motivləri əks olunan 25 əsəri də nümayiş olundu.

**- Elnurə xanım, yeni planlar, layihələr olacaqmı?**

- Əlbəttə, durğunluq bizə uygun deyil.

Biz daim axtarışda, yeniliklər hazırlayıb, ictimaiyyətə təqdim etməkdə olmalıyıq . İnsanları adi baxdıqları, hər gün gördükləri ən sadə insanları, əşyaları, ağacı, budağı, yarpağı fərqli şəkildə, daha gözəl ampulada göstərmək, eyni zamanda sevdirmək, missiyamız var. Əslində bu incəsənətin, incəsənt adamlarının missiyasıdır. Tədbirlərimizdə mütləq sizi də dəvət edəcəyik!

**- Müəllifi olduğunuz bütün layihə, sərgi, müsabiqə və yarışların sizə və Azərbaycanımıza xeyirli-uğurlu olmasını diləyirik. Müsahibəyə görə, hər ikinizə təşəkkür edirəm.**

**Söhbətləşdi**
**Əntiqə Rəşid**

## *Hazal Kaya yazıçı Şəhrazadın cavabını verdi: "Nə qəribə dərdlər var..."*





***Türkiyədən baş verən meşə yanğınları səbəbi ilə məşhurlar sosial şəbəkədə paylaşım edərək digər dövlətlərdən yardım istəyib.***

***Bu kampaniyaya qarşı çıxan tanınmışlar da olub.***

***Adalet.az xəbər verir ki, aktrisa Nilgün Belgün, müğənni Nilufer, şoumen Mehmet Ali Ərbil, yazıçı Şehrazad paylaşım edərək ”Heç kimə ehtiyacımız yoxdur, başımızda dövlətimiz var” -deyə yazaraq etiraz ediblər.***

***Yazıçı Şəhrazad: ”Ağırıma getdi bu yurtxarici yardım çağrılması. Ölkəm, vətənim bu acizliyə düşəcək ölkə deyildi. Onun üçün o yardımçağrışı etməyəcəyəm” deyə social şəbəkə hesabında bildirib.***

***Yazıçının bu fikirlərinə etiraz gəldiyi bir vaxtda bir münasibət də tanınmış aktrisa Hazal Kayadan gəldi:” Bütün ölkələr bunun kimi böyük fəlakət zamanlarında digər ölkələrdən yardım istəyə bilər. Cayır cayır yanan canları izləmək getsin zorunuza Təki bir ağaç, bir kənd, bir heyvan qurtarılsın kim nə deyərsə, desin bizim üçün nə qəribə dərdlər var ya ” ifadelerini paylaşdı.***

***Əntiqə***

## *Futbolda bürünc medalların sahibi bilindi - Tokio-2020*



**Tokio-2020 Yay Olimpiya Oyunlarında kişilərin futbol yarışlarında üçüncü yerin sahibi məlum olub.**

Qol.az xəbər verir ki, Meksika yığması bürünc medal uğrunda görüşdə Yaponiyanı 3:1 hesabı ilə məğlub edib. Meksikalıların heyətində qolları Sebastyan Kordova (13), Xoan Vaskes (22) və Aleksis Veqa (58) vurublar. Yaponiyanın yeganə qoluna isə 78-ci dəqiqədə Kaoru Mitoma imza atıb. Meksika millisi daha əvvəl, 2012-ci ildə keçirilən Yay Olimpiya Oyunlarında qızıl medal qazanmışdı. Tokio-2020-nin kişi futbolçular arasında final matçı bu gün Braziliya və İspaniya milli komandaları arasında keçiriləcək.


Astara rayonu Səncərədi kənd sakini Vəliyev Sədaqət Beyqi oğluna 15 May 1998-ci il tarixində 18 saylı qərar ilə açılmış torpaq sahəsinin plan və ölçüsü (AN 136136) itdiyi üçün etibsarsız sayılsın.

***

Astara rayonu Səncərədi kənd sakini Vəliyev Sədaqət Beyqi oğluna 15 may 1998-ci il tarixində 18 saylı qərarı ilə verilmiş torpaq sahəsinin plan və ölçüsü AN 136136 itdiyi üçün etibarsız sayılsın.

***

Lənkəran rayonu Liman şəhər sakini Seyidov Şaverən Daxil oğluna Dövlət Reyestr idarəsi tərəfindən verilmiş torpaq sahəsinin plan və ölçüsü Reyestr № 802013076777, AN 101527 itdiyi üçün etibarsız sayılsın.

***

Lənkəran rayonu Liman şəhər sakini Mustafayeva İradə Əlimustafa qızına dövlət reyestr idarəsi tərəfindən verilmiş torpaq sahəsində verilmiş torpaq sahəsinin plan və ölçüsü reyestr № 802013076978, A№ 103782 itdiyi üçün etibarsız sayılsın.

***

Maliyyə arayışı N 9288

Verilir, Heydərova Yeganə Heydər qızına, ondan ötrü ki, Bakı şəhəri, Nərimanov rayonu, Ə.Əliyev küçəsi, 1937 saylı məhəllədə inşa edilmiş yaşayış binasının, 8-bina, 1-blok, ümumi sahəsi 287.00 m2 olan qeyri-yaşayış sahəsinə dair heç bir borcu yoxdur. İtdiyi üçün etibarsız sayılır.

***

Daşınmaz Əmlakın Dövlət reyestrində 8 nömrəli reyestr kitabının 889 nömrəli vərəqəsində qeydiyyata alınmış Bakı şəhəri, Binəqədi rayonu A.S. Sani küçəsində istifadədə olan - ha torpaq sahəsində yerləşən 2 mərtəbəli binanın 1-ci mərtəbəsində 308,7 kv.m. ümumi 150,9 kv.m əsas, 157,8 kv.m köməkçi sahədən ibarət qeyri-yaşayış sahəsinin tam mülkiyyət huququ üzrə Zeynalov Şamil Yunis oğlunun adına verilmiş Çıxarışı itdiyi üçün etibarsız sayılır.


Aqil Abbas cinayətkara qarşı keçirilən əməliyyatda aldığı xəsarət nəticəsində dünyasını dəyişmiş polis kapitanı

**Elçin Rəşid oğlu Səfərovun**

vəfatı ilə əlaqədar ailə üzvlərinə başsağlığı verir.

# Cüneyt Arkından Kara Murat şilləsi - Oxunma rekordu qırdı

**Türk kinosunun unudulmaz aktyorlarından biri olan Cüneyt Arkın əsasən "Kara Murat" obarı ilə yaddaşlara öz imzasını həkk edib.**



Cüneyt Arkın bu gün 84 yaşındadır və xoşbəxt bir ailəsi var.

Onun əsl adının Fahrettin Cüreklibatur olduğunu çox adam bilmir.

Kinoya addım atdığı 1960-cı illərdə Cüneyt adını Cüneyt Gökçerdən, Arkın adını isə Ramazan Arkından alıb birləşdirərək Cüneyt Arkın kimi tanınmağa başlayıb.

O, filmlərdə canlandırdığı qəhrəmanlar kimi təmiz qəlbli, cəsur biridir.

Rahmi Turanın yazdığı 20 cildlik Kara Murat romanlarının doqquzuna film çəkildi. Bu 9 filmin səkkizində Kara Muratı Cüneyt Arkın oynayıb və çox uğurlu olub.

Filmlərin istehsalçısı "Bay Sinema" ləqəbli Türker İnanoğludur.

Cüneyt Arkın gənclik illərində dalaşqan olub. Klublarda, barlarda, orda-burda tez-tez davası düşərmiş. Bunlar qəzetlərdə xəbər olar, hər səfər də Türker İnanoğlu bu davalara müdaxilə edər, aktyoru çətin durumlardan xilas edərdi.

Cüneyt Arkının həyatında Türker İnanoğlunun çox önəmli rolu var.

Necə ki, qəhrəman, cəsur və sevgisi uğrunda mübarizə aparan obrazları canlandırırdı, bugünlərdə həyat yoldaşı haqqında etdiyi paylaşım da onun oynadığı obrazlarla şəxsiyyətinin necə vəhdət içində olduğunu göstərir:

"Heç bir şeydən qorxmadığım qədər həyat yoldaşımı itirməkdən qorxuram. Betülümü itirdiyim an mən də yox olaram!".

Onun sosial şəbəkədəki bu səmimi etirafı, ölümsüz sevgisinin ifadəsi izləyicilərini, onu sevənləri də duyğulandırıb.

Kara Muratdan nahaq bəhs etmədik.

Cüneyt Arkın Kara Murat bənzətməsilə son zamanlar ölkədə baş verənlərə münasibətini bildirib və oxunma rekordunu qırıb.

**"Heç kim Türk millətinə dırnaqarası yanaşmasın! Biz savaşdan qaçanlara bənzəmərik. Biz rol xatirinə, pul naminə qəhrəman deyilik. Gəlsin görək it soylarını! O zaman hər birimiz Kara Murt olacağıq! Çünki Kara Murat bizik!".**

**Eminquey**

## *Olimpiadada rekord vurdu - 52 yaşında*




**Tokio-2020 Yay Olimpiya Oyunlarında növbəti rekord qeydə alınıb.**

Qol.az xəbər verir ki, 52 yaşlı ispaniyalı atlet Xesus Anhel Qarsiya 50 km məsafəyə idman yerişində 35-ci yeri tutub. Bu, İspaniya təmsilçisinin 8-ci Olimpiadası olub.

Qarsiya atletikada 8 Olimpiya Oyunlarında iştirak edən ilk idmançı kimi tarixə düşüb. Debütü Barselona-1992-yə təsadüf edən idmançı bu müddətdə 1 qızıl, 2 gümüş, 2 bürünc əldə edib.

Qeyd edək ki, Olimpiadalarda iştirak sayında rekord kanadalı jokey İan Millerə məxsusdur. O, 10 dəfə bu yarışda iştirak edib.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 117**
Çapa imzalanmışdır: 06.08.2021